AZƏRBAYCAN RESPUBLİKASININ
KORRUPSİYAYA QARŞI MÜBARİZƏ ÜZRƏ KOMİSSİYASI

# “Korrupsiya ilə mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı”nın monitorinqi və qiymətləndirilməsi

# Metodologiyası

# “Korrupsiya ilə mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı”nın monitorinqi və qiymətləndirilməsi

# Metodologiyası

Bakı – 2026

“Korrupsiya ilə mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı”nın monitorinqi və qiymətləndirilməsi Metodologiyası” (bundan sonra – Metodologiya) Azərbaycan Respublikasının Korrupsiya ilə mübarizə üzrə Komissiyasının (bundan sonra – Komissiya) Katibliyi tərəfindən hazırlanmış, Komissiyanın Korrupsiya ilə mübarizə üzrə dövlət proqramlarının qiymətləndirilməsi üzrə işçi qrupun iclaslarında müzakirə edilərək təkmilləşdirilmişdir.
Metodologiya Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 4 aprel tarixli 3199 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Korrupsiya ilə mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı”nın sübut və nəticə əsaslı monitorinqi və qiymətləndirilməsinin əsas və qaydalarını müəyyən edir. Metodologiya Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 6 mart tarixli 1294 nömrəli Fərmanı ilə təsdiqlənmiş “Dövlət proqramlarının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi Qaydası”na və dəyişiklik nəzəriyyəsinə əsaslanır.
Dəyişiklik nəzəriyyəsinin beş elementinin (qatqı, fəaliyyət, hasilat, nəticə və təsir) Metodologiyada təsbit edilməsi onun nəzəri-təcrübi əhəmiyyətini artırır, qiymətləndirmənin dəqiq kəmiyyət göstəriciləri üzrə aparılmasına imkan verir.

**Azərbaycan Respublikasının Korrupsiya ilə mübarizə üzrə Komissiyası, “Korrupsiya ilə mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı”nın monitorinqi və qiymətləndirilməsi Metodologiyası”, Bakı, 2026, 107 s.**

## MÜNDƏRİCAT

1. GİRİŞ ....................8
2. DƏYİŞİKLİK NƏZƏRİYYƏSİ VƏ METODOLOGİYANIN MAHİYYƏTİ ....................10
3. METODOLOGİYA ÜZRƏ QİYMƏTLƏNDİRMƏ ....................14
4. TERMİNOLOGİYANIN İZAHI ....................21

PRİORİTET 1. KORRUPSİYAYA QARŞI MÜBARİZƏ ÜZRƏ QANUNVERİCİLİK BAZASININ TƏKMİLLƏŞDİRİLMƏSİ SAHƏSİNDƏ TƏDBİRLƏR ....................22

1.1. Dövlət orqanlarının (qurumlarının) fəaliyyətində korrupsiya risklərinin müəyyən edilməsi, təhlili və qarşısının alınması qaydalarının müəyyənləşdirilməsi ....................22

1.2. Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxslərin həvəsləndirilməsinə və müdafiəsinə dair qanunvericiliyin təkmilləşdirilməsi ....................23

1.3. Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların elektron formada təqdim edilməsi işinin təşkili, qanunsuz varlanmaya qarşı mübarizə tədbirlərinin gücləndirilməsi ilə bağlı təkliflər verilməsi ....................25

1.4. Xüsusi müsadirə institutunun effektivliyinin təmin edilməsi məqsədilə ölkə ərazisində, yaxud başqa dövlətin yurisdiksiyasında olan cinayət yolu ilə əldə olunmuş əmlakın və ya müsadirə edilməli olan digər aktivlərin qaytarılması (aşkar edilməsi, üzərinə həbs qoyulması, aktivlərin dondurulması və sair) ilə bağlı səmərəli fəaliyyətin həyata keçirilməsi üçün müvafiq təkliflər hazırlanması ....................26

1.5. Cinayət yolu ilə əldə edilmiş və xüsusi müsadirə obyekti olan əmlakın qiymətləndirilməsi və idarə olunması sahəsində qanunvericiliyin təkmilləşdirilməsi ....................27

1.6. Dövlət orqanlarının (qurumlarının) vəzifəli şəxslərin fəaliyyətində maraqlar toqquşmasının qarşısının alınması ilə bağlı müvafiq qanunvericilik aktlarının hazırlanması ....................28

1.7. Dövlət xidmətlərinin təşkili prinsiplərini və qaydasını tənzimləyən, dövlət orqanları (qurumları) tərəfindən xidmətlərin göstərilməsinə dair tələbləri müəyyən edən vahid qanunun qəbul edilməsi ....................29

1.8. Tikilməkdə olan və ya tikilmiş və istismara qəbul edilməmiş çoxmənzilli binalarda mənzillərə dair verilmiş hüquqmüəyyənedici sənədlərin vahid informasiya bazasının yaradılması, bu istiqamətdə daşınmaz əmlakın təminat qeydinin aparılması mexanizmlərinin təkmilləşdirilməsi30

1.9. Dövlət investisiya layihələri üzrə korrupsiya risklərinin qiymətləndirilməsi və bu qiymətləndirmənin nəticələrinə uyğun olaraq qabaqlayıcı institusional mexanizmlərə dair təkliflər verilməsi ....................31

1.10. Dövlət və bələdiyyə əmlakının daşınmaz əmlakın dövlət reyestrində qeydiyyatının təmin edilməsi sahəsində görülən işlərin yekunlaşdırılması ....................32

1.11. Yerli özünüidarəetmə sahəsində korrupsiya ilə əlaqədar hüquqpozmaları yaradan səbəb və şəraitin öyrənilərək aradan qaldırılması ilə bağlı əlavə tədbirlər görülməsi, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi ....................33

PRİORİTET 2. KORRUPSİYANIN QARŞISININ ALINMASI VƏ ŞƏFFAFLIĞIN GÜCLƏNDİRİLMƏSİ SAHƏSİNDƏ TƏDBİRLƏR ....................36

2.1. Dövlət orqanlarında (qurumlarında) çalışan işçilərin, o cümlədən hüquq mühafizə orqanları əməkdaşlarının, Korrupsiya ilə mübarizə üzrə Komissiyanın Katibliyinin işçilərinin, habelə hakimlərin sosial təminatının yaxşılaşdırılması və korrupsiya hüquqpozmalarının qarşısının

alınması fəaliyyətinin gücləndirilməsi məqsədilə həmin şəxslərin əməkhaqlarının mərhələlərlə artırılması üzrə tədbirlərin davam etdirilməsi, bununla bağlı təkliflər hazırlanması.....................36

2.2. Korrupsiya ilə mübarizə sahəsində əhəmiyyəti nəzərə alınaraq, "Elektron məhkəmə" informasiya sisteminin funksionallığının artırılması ilə bağlı tədbirlərin davam etdirilməsi, sistemin ölkənin bütün regionlarında tətbiqinin təmin edilməsi ilə bağlı tədbirlərin yekunlaşırılması ........37

2.3. Ədalət mühakiməsi sahəsində antikorrupsiya tədbirlərinin gücləndirilməsi, məhkəmə hakimiyyətinin daha səmərəli təşkili məqsədilə beynəlxalq təcrübə nəzərə alınmaqla Məhkəmə-Hüquq Şurasının formalaşdırılmasına dair qaydaların təkmilləşdirilməsi .................................39

2.4. Dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və dövlət adından yaradılan publik hüquqi şəxslərdə işə qəbul prosedurlarında şəffaflığın artırılması və bu sahədə ictimai nəzarət mexanizmlərinin tətbiqinin genişləndirilməsi ilə bağlı əlavə tədbirlər görülməsi ........................................................................................40

2.5. Dövlət orqanları (qurumları) tərəfindən göstərilən elektron xidmətlərdən istifadənin səmərəliliyinin artırılması məqsədilə Vahid Giriş (Login) Sisteminin bütün dövlət informasiya ehtiyatlarında və sistemlərində tətbiqi ilə bağlı təkliflərin təqdim edilməsi.................................42

2.6. Yerli icra hakimiyyəti orqanları tərəfindən göstərilən elektron xidmətlərin sayının artırılması və səmərəliliyinin yüksəldilməsi məqsədilə həmin xidmətlərin Elektron Hökumət Portalına inteqrasiya olunmuş vahid rəqəmsal icra hakimiyyəti portalı üzərindən göstərilməsi.................43

2.7. Yerli icra hakimiyyəti orqanları başçılarının aktlarının (normativ xarakterli aktlar istisna olmaqla) uçota alınması qaydalarının təkmilləşdirilməsi və həmin aktların elektron bazasının yaradılması ......................................................................................................................44

2.8. Dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması ilə bağlı fəaliyyətin sürətləndirilməsi.......................................................................................45

2.9. Şəxsin yaşayış sahəsinə ehtiyacı olan qismində uçotunun aparılması qaydasının təsdiqi və uçota alınma ilə bağlı dövlət xidmətlərinin elektronlaşdırılması, habelə yerli icra hakimiyyəti orqanları tərəfindən yaşayış sahəsinə ehtiyacı olan şəxslərin və təklif edilən mənzil fondunun siyahılarının ictimaiyyət üçün açıq şəkildə öz rəsmi internet səhifəsində dərc edilməsi və aktuallığının daim təmin edilməsi ..........................................................................................47

2.10. Özəl sektorda şəffaflığın artırılması məqsədilə həmin sahədə şəffaflıq üzrə beynəlxalq standartların tətbiqinin genişləndirilməsi üçün tədbirlər görülməsi...........................................48

2.11. İSO 37001 "Antikorrupsiya idarəetmə sistemləri" beynəlxalq standartının tətbiqinin nəzərdən keçirilməsi və bununla bağlı təkliflər verilməsi .........................................................................49

2.12. Dövlət satınalmalarında şəffaflığın artırılması məqsədilə bu sahədə nəzarətin gücləndirilməsi və yol verilən hüquqpozmalara qarşı mübarizə tədbirlərinin artırılması .............50

2.13. Dövlət satınalmalarında iştirak edən şirkətlərə benefisiar mülkiyyətçinin açıqlanması öhdəliyinin müəyyən edilməsi ilə bağlı təkliflərin təqdim edilməsi ............................................52

2.14. Dövlət satınalmaları üzrə maliyyə əməliyyatlarının monitorinqi mexanizminin yaradılması ..............................................................................................................................................53

2.15. Satınalma prosedurlarından olan kotirovkalarla alınan mal və xidmətlərin bazar qiymətlərinə uyğun müəyyən edilməsinə nəzarətin həyata keçirilməsi prosedurlarının təkmilləşdirilməsi, satınalma komissiyasının fəaliyyət müstəqilliyinin gücləndirilməsi............................................54

2.16. Bələdiyyə gəlir və xərclərinin vahid portalının yaradılması və bütün bələdiyyə xərclərinin portal vasitəsilə həyata keçirilməsi, portalın açıqlığının təmin olunması ..................................56

2.17. Dövlət orqanları (qurumları) tərəfindən korrupsiya risklərinin qiymətləndirilməsi və qarşısının alınması ilə bağlı illik hesabatların hazırlanması və Korrupsiya ilə mübarizə üzrə Komissiyaya təqdim edilməsi ....57

PRİORİTET 3. MALİYYƏ ŞƏFFAFLIĞININ TƏMİN EDİLMƏSİ VƏ CİNAYƏT YOLU İLƏ ƏLDƏ EDİLMİŞ ƏMLAKIN LEQALLAŞDIRILMASINA VƏ TERRORÇULUĞUN MALİYYƏLƏŞDİRİLMƏSİNƏ QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ TƏDBİRLƏR ....59

3.1. Nağdsız hesablaşmalar bazarının üstünlüyünün təmin edilməsi məqsədilə tədbirlər görülməsi ....59

3.2. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən mühasibat uçotu subyektləri tərəfindən Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edilməli olan maliyyə hesabatlarının elektron formada verilməsini təmin edən "e-mühasibat" elektron portalının yaradılması ....60

3.3. Dövlət büdcəsindən ayrılan vəsaitlərin təyinatı üzrə səmərəli xərclənməsi ilə əlaqədar həyata keçirilən yoxlamaların, təftişlərin və digər nəzarət tədbirlərinin səmərəliliyinin, keyfiyyətinin daha da artırılması, dövlət büdcəsindən ayrılan vəsaitlərin xərclənməsində şəffaflığın yüksəldilməsi 62

3.4. Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə FATF (Maliyyə Tədbirləri üzrə İşçi Qrup) tövsiyələrinin icrası istiqamətində tədbirlərin davam etdirilməsi ....63

3.5. Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi cinayətlərinin aşkarlanması və istintaqının aparılmasında səmərəliliyin artırılması, eləcə də bu sahədə istintaq təcrübəsinin təkmilləşdirilməsi istiqamətində tədbirlər görülməsi ....65

3.6. Vəzifəli şəxslər tərəfindən təqdim edilən maliyyə xarakterli məlumatlar haqqında bəyannamədəki məlumatların müvafiq məlumat bazalarındakı məlumatlarla uyğunluğunun yoxlanılmasına imkan verən elektron informasiya mübadiləsinin formalaşdırılması ilə bağlı təkliflərin təqdim edilməsi ....67

PRİORİTET 4. DÖVLƏT XİDMƏTLƏRİNİN VƏ İDARƏETMƏ MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ SAHƏSİNDƏ TƏDBİRLƏR ....68

4.1. Dövlət xidmətlərinin proaktiv, elektron formada göstərilməsi sahəsində fəaliyyətin genişləndirilməsinin təşkil edilməsi üçün tədbirlər görülməsi ....68

4.2. Dövlət xidmətlərinin elektronlaşdırılması və dövlət orqanlarının (qurumlarının) informasiya sistemləri arasında inteqrasiyanın təmin edilməsi üzrə işlərin sürətləndirilməsi, kağız əsaslı xidmətdən məlumat əsaslı xidmətə keçirilməsinin təşkil olunması ilə bağlı fəaliyyətin təmin edilməsi....70

4.3. Şəffaflığın artırılması məqsədilə dövlət xidmətinin göstərilməsi üçün tələb olunan sənədlərin siyahısı, qanunvericiliklə müəyyən edilmiş ödənişlərin məbləği barədə məlumatların dövlət xidmətləri ilə bağlı vahid məlumat portalında və aidiyyəti dövlət orqanlarının (qurumlarının) internet səhifələrində yerləşdirilməsi ....71

4.4. Ali təhsil və orta ixtisas təhsili müəssisələrində əlavə təhsilə qəbul qaydalarının təkmilləşdirilməsi, müvafiq qəbul prosesinin elektronlaşdırılması ....72

4.5. Dövlət orqanları (qurumları) tərəfindən göstərilən xidmətlərdən istifadənin genişləndirilməsi məqsədilə elektron imzanın əldə olunması imkanlarının sadələşdirilməsi ....74

4.6. Dövlət xidmətlərinin mobil texnologiyalar vasitəsilə göstərilməsi imkanlarının genişləndirilməsi ....75

4.7. Müasir texnologiyaları tətbiq etməklə regionlarda əhalinin internet informasiya-kommunikasiya xidmətlərindən istifadə imkanlarının artırılması ..............................................76

4.8. Dövlət sərhədindən buraxılış məntəqələrində elektron köşk və digər innovativ vasitələrin tətbiqi, habelə aidiyyəti dövlət orqanları (qurumları) tərəfindən şəxslərə səyyar xidmət göstərilməsi imkanlarının genişləndirilməsi ......................................................................78

4.9. Dövlət orqanlarının (qurumlarının) göstərdikləri xidmətlərin keyfiyyətinin qiymətləndirilməsi məqsədilə rəsmi internet saytları və sosial şəbəkələr vasitəsilə mütəmadi elektron məmnunluq sorğularının keçirilməsi, bu prosesə vətəndaş cəmiyyəti institutlarının və ictimai şuraların cəlb edilməsi..........................................................................................................................79

4.10. Çağrı mərkəzləri mövcud olmayan dövlət orqanlarında (qurumlarında) bu xidmətlərin təşkil edilməsi, mövcud çağrı mərkəzlərinin işinin təkmilləşdirilməsi və çağrı mərkəzləri tərəfindən göstərilən xidmətlərin ümumi tələblər əsasında həyata keçirilməsi ilə bağlı tədbirlər görülməsi.81

4.11. Haqqı ödənilən ictimai işlərə cəlbolunma ilə bağlı müraciətlərin qəbulu və baxılma prosedurlarının elektronlaşdırılması, sui-istifadə hallarını aradan qaldıracaq mexanizmlərin hazırlanması .....................................................................................................................82

4.12. Dövlət və bələdiyyə torpaq sahələrinin icarəyə və mülkiyyətə verilməsi, icarə müddətlərinin uzadılması, kateqoriyasının dəyişdirilməsi proseslərinin elektronlaşdırılması, bu sahədə sui-istifadə imkanlarının məhdudlaşdırılması ilə bağlı təkliflər hazırlanması ..................................84

4.13. Kənd təsərrüfatı istehsal vasitələrinin satışına və lizinqinə tətbiq edilən güzəştlərin, güzəştli kreditlərin verilməsi ilə bağlı prosedurların elektronlaşdırılması işinin davam etdirilməsi və növbəlilik reyestrlərinin yaradılması.............................................................................85

4.14. Bələdiyyə aktlarının bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqana elektron formada təqdim olunması imkanlarının genişləndirilməsi ............................................86

PRİORİTET 5. KORRUPSİYAYA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ VƏTƏNDAŞ CƏMİYYƏTİ İNSTİTUTLARI İLƏ ƏMƏKDAŞLIĞIN VƏ BU SAHƏDƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIĞIN İNKİŞAF ETDİRİLMƏSİ ...............................................................................................88

5.1. Korrupsiya ilə mübarizə sahəsində fəaliyyət göstərən vətəndaş cəmiyyəti institutları ilə dövlət orqanları (qurumları) arasında əməkdaşlığın daha da gücləndirilməsi və birgə layihələrin həyata keçirilməsi ..............................................................................................................88

5.2. Dövlət orqanlarında (qurumlarında) ictimai iştirakçılığın tətbiqinin genişləndirilməsi və ictimai şuraların fəaliyyətinin səmərəliliyinin artırılması.................................................................89

5.3. Beynəlxalq Prokurorlar Assosiasiyası (IAP), Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyası (IAACA), Beynəlxalq Antikorrupsiya Akademiyası (IACA), Korrupsiyaya qarşı Avropa Tərəfdaşları Təşkilatı (EPAC) və korrupsiya ilə mübarizə sahəsində fəaliyyət göstərən digər beynəlxalq təşkilatlarla əməkdaşlığın daha da genişləndirilməsi, qabaqcıl antikorrupsiya təcrübələrinin öyrənilməsi ilə bağlı tədbirlərin davam etdirilməsi...............................................91

5.4. Birləşmiş Millətlər Təşkilatının, Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupunun (GRECO), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) tövsiyələrinin icrası istiqamətində tədbirlərin davam etdirilməsi.........................................................................................92

PRİORİTET 6. KORRUPSİYAYA QARŞI MÜBARİZƏ ÜZRƏ MAARİFLƏNDİRMƏ..................94

6.1. Ölkə üzrə əhatəli antikorrupsiya tədris modulunun hazırlanması .......................................94

6.2. Dövlət və bələdiyyə orqanlarının, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərin və büdcə

təşkilatlarının işçilərində, o cümlədən tibb və təhsil işçilərində antikorrupsiya davranış modelinin formalaşdırılması ilə bağlı işlərin gücləndirilməsi, cəmiyyətdə məlumatlılığın artırılmasına yönəlmiş maarifləndirmə, tədris və digər tədbirlərin səmərəliliyinin yüksəldilməsi məqsədilə tədbirlər görülməsi ....................................................................................................95

6.3. Sahibkarlıq sahəsində yoxlamaların aparılması ilə bağlı sui-istifadə və korrupsiya hallarının qarşısının alınması məqsədilə sahibkarlıq subyektləri üçün bu sahədə məlumatlılığın artırılmasına yönəlmiş maarifləndirici tədbirlərin keçirilməsi ....................................................96

6.4. Dövlət qulluqçuları üçün korrupsiya ilə mübarizə və etik davranış qaydaları ilə bağlı təlim kurslarının təşkili ....................................................................................................98

6.5. Hərbi qulluqçular üçün korrupsiya ilə mübarizə sahəsində tədris kurslarının, treninqlərin və seminarların təşkili ....................................................................................................99

6.6. Bələdiyyə üzvləri və qulluqçuları üçün korrupsiya ilə mübarizə sahəsində tədris kurslarının, treninqlərin və seminarların keçirilməs ....................................................................101

6.7. Regionlarda əhalinin rəqəmsallaşma istiqamətində bilik və bacarıqlarının artırılması ilə bağlı maarifləndirmə tədbirlərinin keçirilməsi....................................................................103

6.8. Özəl məhkəmə ekspertizası institutunun fəaliyyətində şəffaflığın təmin olunması məqsədilə özəl məhkəmə ekspertləri üçün mütəmadi tədris kurslarının və treninqlərin təşkil edilməsi .....104

6.9. Mediadan, o cümlədən dövlət orqanlarının (qurumlarının) və bələdiyyələrin öz internet və sosial şəbəkə səhifələrindən istifadə etməklə korrupsiya ilə mübarizə tədbirləri ilə əlaqədar xüsusi buraxılışların təşkili, ictimai müzakirələrin, videokonfransların keçirilməsi təcrübəsinin genişləndirilməsi, bu sahədə müxtəlif videoçarxların, bukletlərin hazırlanması və onların əhali arasında geniş yayılmasının təşviq edilməsi ....................................................................105

6.10. Ölkəmizdə korrupsiya ilə mübarizə sahəsində əldə edilmiş nailiyyətlər barədə beynəlxalq ictimaiyyətin davamlı və sistemli şəkildə məlumatlandırılması, ASAN, DOST və digər nümunəvi dövlət xidmətlərinin nailiyyətlərinin müsbət milli təcrübə qismində beynəlxalq səviyyədə təşviq olunması ....................................................................................................106

# 1. GİRİŞ

1.1. “Korrupsiya ilə mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 4 aprel tarixli 3199 nömrəli Sərəncamının (bundan sonra – Sərəncam) 6-cı bəndində Azərbaycan Respublikasının Korrupsiya ilə mübarizə üzrə Komissiyasına (bundan sonra – Komissiya) tövsiyə edilmişdir ki, “Korrupsiya ilə mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı”nın (MFP) icrasının mütəmadi qiymətləndirilməsini təmin etsin, bu prosesə vətəndaş cəmiyyəti institutlarının cəlb edilməsi üçün tədbirlər görsün və görülən işlər barədə ictimaiyyəti mütəmadi olaraq məlumatlandırsın. Həmçinin Sərəncamın 4-cü bəndində MFP-nin yerinə yetirilməsi ilə əlaqədar görülən işlərin vəziyyətinin mütəmadi təhlil edilməsi və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat verilməsi də Komissiyaya tövsiyə olunmuşdur.

1.2. Komissiyanın 2024-cü il 10 avqust tarixli qərarı ilə Korrupsiya ilə mübarizə üzrə dövlət proqramlarının qiymətləndirilməsi üzrə işçi qrup (bundan sonra – İşçi qrup) yaradılmış, Komissiyanın işçi qruplarının 2025-ci il 8 aprel tarixli ümumi iclasında işçi qrupun tərkibi təsdiq edilmişdir.

1.3. MFP kimi konseptual sənədlərdə yalnız müvafiq tədbirlər nəzərdə tutulduğundan bu tədbirlərin icrası səviyyəsini kəmiyyət baxımından ölçməyə imkan verən indikatorlar təsbit olunmur. MFP-də tədbirin adı, ilkin, aralıq və yekun nəticələri qeyd olunsa da, həmin tədbir üzrə konkret olaraq hansı indikatorlar üzrə işlərin görülməsi təsbit edilməmişdir. Bu isə müvafiq tədbirin dəqiq, düzgün və eyni cür qiymətləndirilməsində çətinliklərə səbəb olur. Konkret indikatorlar olduqda həmin tədbirin icra səviyyəsini qiymətləndirmək mümkün olur, icra edilməyən və ya icra səviyyəsi aşağı olan tədbirlər üzrə digər işlərin görülməsi nəzərdə tutulur. Buna görə də bu qəbildən olan sənədlərin məzmununu dəqiqləşdirən metodologiyalara ehtiyac yaranır.

1.4. Göstərilənlər nəzərə alınaraq Komissiyanın Katibliyi tərəfindən “Korrupsiya ilə mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı”nın monitorinqi və qiymətləndirilməsi Metodologiyası” (bundan sonra – Metodologiya) hazırlanmış və İşçi qrupun iclaslarında müzakirə edilərək təkmilləşdirilmişdir. Müzakirələrdə Komissiyanın işçi qruplarının 13 orqanın (qurumun) və 13 vətəndaş cəmiyyəti nümayəndələrindən ibarət üzvləri iştirak etmiş və təkliflər əsasında Metodologiyanın məzmununda müvafiq təkmilləşmələr aparılmışdır.

1.5. Bundan başqa Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 6 mart tarixli 1294 nömrəli Fərmanı ilə təsdiqlənmiş “Dövlət proqramlarının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi Qaydası”na (bundan sonra – Qayda) 2 nömrəli Əlavənin 2.4.1-ci yarımbəndinə görə icra edilmiş tədbir 1 bal, qismən icra edilmiş tədbir 0,5 bal, icra edilməmiş tədbir isə 0 balla qiymətləndirilir. Tədbirin tam və ya qismən icra edilmiş yaxud icra edilməmiş hesab edilməsi üçün tədbirin neçə faizi üzrə işlərin görülməsinə dair müddəalar da Metodologiya ilə tənzimləyir.

1.6. Metodologiya Qaydaya və beynəlxalq təcrübədə geniş istifadə edilən dəyişiklik nəzəriyyəsinə əsaslanır. Dəyişiklik nəzəriyyəsi dövlət proqramları üzrə nəzərdə tutulan

tədbirlərin cəmiyyət və dövlət idarəçiliyində yaratdığı kəmiyyət və keyfiyyət dəyişikliyini ölçməyə imkan verən beş elementin – qatqı (*input*), fəaliyyət (*activity*), hasilat (*output*), nəticə (*outcome*) və təsir (*impact*) məcmusundan ibarətdir.

1.7. Qatqı tədbirin icrasına sərf edilən insan və maddi resurslara çəkilən xərci ehtiva edir.

1.8. Fəaliyyət isə tədbirin icrası ilə bağlı görülən konkret işlərdən (məsələn, haqqı ödənilən ictimai işə cəlb etmənin onlayn qaydada aparılmasını təmin edən portalın yaradılması üçün işçi qrupun yaradılması, işçi qrup tərəfindən portalın texniki-hüquqi parametrləri ilə bağlı layihə hazırlanması, portalın texniki-proqram təminatının hazırlanması, portalla bağlı normativ hüquqi aktın qəbulu) ibarətdir.

1.9. Hasilat tədbirlə yaradılan konkret məhsulu (məsələn, haqqı ödənilən ictimai işə cəlb etmənin onlayn qaydada və növbəliliklə aparılmasını təmin edən elektron portalın fəaliyyətə başlaması) nəzərdə tutur. Nəticə isə hasilatın yaratdığı yaxın və orta müddətli (1–3 il) dəyişikliyi, faydanı və effektivliyi (məsələn, haqqı ödənilən ictimai işə cəlbetmə sahəsində şikayətlərin sayının azalması, haqqı ödənilən ictimai işə qəbul olunmaq üçün müraciətlərin portal vasitəsilə edilməsi, işə cəlb edilmədən əmək haqqının ödənilməsi təcrübəsinin aradan qalxması) ehtiva edir.

1.10. Tədbirin təsiri uzun müddətli (3 ildən artıq) və daha geniş ictimai faydalı məqsədləri (məsələn, şəffaflığın artması, vətəndaş məmnunluğunun artması, orqanlara (qurumlara) ictimai etimadın yüksəlməsi, korrupsiya cinayətlərinin törədilməsinin qarşısının alınması, məşğul əhalinin sayının artması, yoxsulluğun azalması) nəzərdə tutur. Belə məqsədlərə bir tədbirlə nail olmaq mümkün deyil və bu digər tədbirlərin də kompleks tətbiqini zəruri edir.

1.11. Metodologiyanın hasilat üzrə indikatorları kəmiyyət qiymətləndirilməsini, nəticə və təsir üzrə indikatorlar isə kəmiyyət və keyfiyyət qiymətləndirilməsini nəzərdə tutur. Hasilat indikatorları üzrə hər bir tədbirin icrası 100 ballıq şkala üzrə qiymətləndirilir. Bu isə icraçı orqana (quruma) müvafiq tədbirin icrası üçün zəruri olan şərtləri əvvəlcədən müəyyən etməyə imkan verir. Həmçinin müvafiq indikatorlar üzrə qiymətlərin aydın təsbit edilməsi görülmüş işlərin eyni cür və dəqiq qiymətləndirilməsinə şərait yaradır, hər bir tədbirin icra səviyyəsini və hər bir orqanın (qurumun) icra göstəricilərini dəqiq balla ölçməyə imkan verir.

1.12. Nəticə elementi üzrə tədbirin icrasından əvvəlki kəmiyyət göstəriciləri tədbirin icrasından sonrakı göstəricilərlə müqayisə edilir. Tədbirin icrasından əvvəlki dövrə münasibətdə tədbirin icrasından sonra 50% müsbət dəyişiklik ən yüksək nəticə hesab olunur.

1.13. Təsir elementi üzrə metodologiyada nəzərdə tutulan 48 indikator (məsələn, beynəlxalq reytinlərdə ölkəmizin göstəricilərinin yüksəldilməsi, adambaşına düşən ümumi daxili məhsulun məbləğinin artması, vurulmuş maddi ziyanın ödənilməsi hesabına dövlət büdcəsinə daxilolmaların artımı, effektiv maliyyə nəzarəti mexanimzlərinin tətbiqi nəticəsində dövlət vəsaitinin qanunauyğun, məqsədyönlü, səmərəli istifadə və idarə edilməsi, orqanlara (qurumlara) ictimai etimadın yüksəlməsi, vətəndaş məmunluğunun

artması və s.) cəmiyyət və dövlət idarəçiliyinin müxtəlif sahələrini əhatə edir. Bu isə MFP-də nəzərdə tutulan tədbirlərin həmin sahələrə təsirini müəyyən etməyə imkan verdiyindən metodologiyanın ictimai əhəmiyyətini artırır.

## 2. DƏYİŞİKLİK NƏZƏRİYYƏSİ VƏ METODOLOGİYANIN MAHİYYƏTİ

2.1. Dəyişiklik nəzəriyyəsinə görə dəyişiklik zəncir beş elementdən ibarətdir: qatqı (*input*), fəaliyyət (*activity*), hasilat (*output*), nəticə (*outcome*) və təsir (*impact*) (bax: Sxem № 1 və № 2).

2.2. Qatqı (*input*) müvafiq tədbirin icrası zamanı istifadə edilən maddi və insan resurslarıdır. Maddi resurslara maliyyə vəsaiti, texniki avadanlıqlar, proqram təminatı və digər əşyalar aiddir. İnsan resursu isə tədbirin icrasına cəlb edilən işçilər və digər şəxslərdir. Qatqı mövcud olmazsa dəyişiklik nəzəriyyəsinin ikinci zənciri – fəaliyyət də mövcud olmaz. Bu baxımdan kifayət qədər qatqının (resursun) olmaması bəzi hallarda tədbirin icra edilməməsi və ya keyfiyyətsiz icrası ilə nəticələnir.

2.3. Qatqının indikatorları dəqiq müəyyən edilir. Yəni sərf ediləcək vəsait üzrə konkret xərc istiqamətləri əvvəlcədən dəqiqləşdirilir. Bu mərhələdə vəziyyətin düzgün qiymətləndirilməməsi, hətta kifayət qədər qatqı resursları olsa belə nəticənin uğursuz olmasına səbəb ola bilər. Məsələn, tədbir elektron arxivin yaradılmasını nəzərdə tutursa və arxivin özü mövcud deyilsə, yaxud pərakəndə şəkildədirsə, müvafiq tədbir üzrə uğurlu nəticənin əldə edilməsi ehtimalı azdır. Çünki bu tədbir üzrə müvafiq maddi vəsait – sənədlər mövcud deyil yaxud natamamdır.




**Sxem № 1. Dəyişiklik zənciri elementləri**

2.4. Fəaliyyət (*activity*) tədbirin kim tərəfindən nə vaxt və harada nəyin icra ediləcəyini bildirir. Tədbirin məzmunundan və məqsədindən asılı olaraq fəaliyyətin də məzmunu dəyişir. Məsələn, tədbir hansısa normativ hüquqi aktın qəbul edilməsidirsə, tədbir həmin aktın qəbulu ilə bağlı müvafiq prosedurları (işçi qrupun yaradılması, işçi qrup üzvləri arasında vəzifə bölgüsünün aparılması, hər bir üzv tərəfindən müvafiq məsələnin mahiyyətinin, xarici ölkələrin və beynəlxalq təcrübənin təhlil olunması, müvafiq boşluq və ziddiyyətlərin öyrənilərək aşkara çıxarılması, bu proseslər əsasında layihənin hazırlanması, layihənin aidiyyəti orqanlara razılaşdırılması üçün təqdim edilməsi, layihənin razılaşdırılması, layihə razılaşdırıldıqdan sonra müvafiq orqana təqdim edilərək qəbul olunması və dərc edilməsi) əhatə edir. Bundan fərqli olaraq təlimin keçirilməsinə dair tədbir daha fərqli mərhələləri özündə ehtiva edir: təlimin məzmun və məqsədinə uyğun hədəf qrupu üzərində sorğu keçirilməklə onların ehtiyaclarının müəyyən edilməsi, ehtiyaclar əsasında təlim proqramının hazırlanması, təlim proqramının aidiyyəti maraqlı subyektlərlə razılaşdırılması, ixtisaslı təlimçilərin cəlb olunması, iştirakçıların təlimə dəvət edilməsi, təlimdən əvvəl ilkin diaqnostik qiymətləndirmənin aparılması, təlimin keçirilməsi, təlim nəticələrinin (təlimin təşkili, maarifləndirmə xüsusiyyətləri, dinləyicilərin öyrəndikləri biliklər) sorğu vasitəsilə qiymətləndirilməsi.

2.5. Fəaliyyət təşkil edilərkən müvafiq mərhələlər üzrə indikatorlar da təsbit olunur. Həmin indikatorlar fəaliyyətin düzgün və vaxtında icra edilməsinə nəzarəti təmin edir. Məsələn, normativ hüquqi aktın qəbulu prosesində ilkin mərhələdə işçi qrup yaradılır, daha sonra işçi qrup üzvləri arasında vəzifə bölgüsü aparılmaqla hər bir üzv müəyyən məsələ üzrə araşdırma və təhlil aparır. Bu ilkin mərhələdə müvafiq indikatorlar (iş bölgüsünün aparılması, təhlil və araşdırmanın edilməsi) müəyyən edildikdən sonra dəqiq müəyyən edilmiş vaxtda icraçılar yerinə yetirdiklərin işin nəticəsini – aparılmış araşdırma və təhlilin nəticəsinə dair arayışı (hesabatı) təqdim edir. Bu həm fəaliyyətin keyfiyyətini ilkin mərhələdə qiymətləndirməyə imkan verir, əlaqələndirmə işinin effektivliyini artırır, həm də tədbirin vaxtında icra edilməsinə şərait yaradır.

2.6. Fəaliyyət indikatorları həm də tədbirin effektiv və səmərəli icra olunmasına xidmət edir. Bu baxımdan fəaliyyət indikatorları müəyyən edilərkən təkcə tədbirin mahiyyətini təşkil edən məsələlər deyil, həm də tədbirin effektiv və səmərəli şəkildə başa çatması üçün zəruri olan digər məsələlər nəzərə alınır və onlara uyğun indikatorlar müəyyən olunur. Məsələn, əgər tədbir elektron sistemin yaradılmasıdırsa, təkcə elektron sistem üzrə zəruri texniki-hüquqi məsələlər deyil, həm də o sistemin istifadəçilərinin maraqları nəzərə alınmalıdır. Belə ki, həmin şəxslərin maraqları nəzərə alınması yaradılacaq sistemin istifadəçi sayının artmasına və istifadəçi məmnunluğuna səbəb olur ki, bu da tədbirin təsirliliyinə (*impact*) və nəticəsinə (*outcome*) təsir göstərir.

2.7. Hasilat (*output*) tədbirin yekun məhsulunu ehtiva edir və tədbirin məzmunundan asılı olaraq dəyişir. Məsələn, tədbir normativ hüquqi aktın qəbulu ilə bağlıdırsa normativ hüquqi aktın dərci tədbirin hasilatıdır. Tədbir elektron sistemin qurulması ilə bağlıdırsa həmin elektron sistemin yaradılması və tətbiqi ilə hasilat əldə edilmiş hesab olunur. Hasilata həmçinin, müəyyən sayda dinləyicilərin təlimi başa vurması, peşəkar mütəxəssislər bazasının formalaşdırılması və s. aiddir.

2.8. Hasilatın indikatorları hasil olunan işin kəmiyyət və keyfiyyət göstəriciləri ilə bağlıdır. Məsələn, normativ hüquqi aktın dərci müvafiq tədbirin hasilatı olsa da, həmin

aktın keyfiyyət tərəfi hasilatın indikatorlardır. Başqa sözlə, normativ hüquqi aktın necəliyi, hansı minimum tələblərə cavab verməsi və beynəlxalq standartlara uyğunluğu hasilatın indikatorlardır. Məsələn, normativ hüquqi akt korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxslərin həvəsləndirilməsi və müdafiəsi ilə bağlıdırsa, bu tədbir üzrə hasilat indikatorları müvafiq beynəlxalq standartın minimum tələblərinə uyğun formalaşdırılır (məsələn, iş yerlərində qisas məqsədli tədbirlərdən qorunma mexanizminin mövcudluğu, məlumat verən şəxslərin həvəsləndirilməsi, korrupsiya barədə məlumatı qəbul edən struktur bölmənin qərəzsiz və müstəqilliyi, təkzibedilməz dəlillər ehtiva edən anonim müraciətlərə baxılmanın məcburiliyi, korrupsiya barədə müraciətlər üzrə vahid statistikanın aparılması və digər aidiyyatı tələblər).




**Sxem № 2. "Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxslərin həvəsləndirilməsi və müdafiəsi haqqında" normativ hüquqi aktın qəbuluna dair tədbir üzrə dəyişiklik zənciri elementləri**

2.9. Hasilat tədbirin yekun məhsulu olsa belə, bu hələ özlüyündə tədbirin uğurlu olub-olmamasının göstəricisi deyildir. Tədbirin effektivliyi onun təsirliliyi (*impact*) və nəticəsi (*outcome*) əsasında müəyyən edilir. Bu isə hasilatı təsir və nəticədən fərqləndirən başlıca xüsusiyyətdir. Məsələn, beynəlxalq standartlara uyğun normativ hüquqi akt qəbul edilə bilər, lakin həmin aktın icrasına orqanlar (qurumlar) hazır deyillərsə aktın icrası uğursuz olacaqdır. Yaxud təkmil elektron sistem yaradılsa belə həmin elektron sistemin istifadəçilərinin ondan istifadə bacarıqları yoxdursa və ya ümumiyyətlə sistem tətbiq edilmirsə belə tədbirin nəticəsi effektiv hesab olunmur. Başqa sözlə, bu qəbildən olan hallarda tədbirin hasilatı olsa da, nəticəsi yoxdur.

2.10. Dəyişiklik zənciri bir-birini izləyir. Hər bir proses növbəti prosesə çevrilir. Buna görə də, hasilat nəticəyə çevrilir. Əgər hasilat nəticəyə çevrilməmişdirsə deməli onun heç bir əhəmiyyəti yoxdur. Hasilatın əldə edilməsi icraçı qurumdan asılıdır. Lakin nəticənin əldə edilməsi icraçı qurumun tam nəzarətində deyil. Hasilat fəaliyyətin birbaşa məhsuludur, buna görə də o göstərilmiş xidmət və ərsəyə gələn işin sayı və necəliyi ilə ölçülür. Bundan fərqli olaraq nəticə hasilatın tətbiqi və ya istifadəsi zamanı əldə olunur, tədbirin faydasını, mövcud vəziyyətdə baş verən dəyişikliyi əks etdirir.

2.11. Nəticə (*outcome*) hasilatdan fərqli olaraq tədbirin ictimai münasibətlərdə yaratdığı yaxın (1 ilədək) və orta (1–3 il) müddətli dəyişik və faydanı bildirir. Nəticədən fərqli olaraq hasilat fəaliyyətin yekun məhsulunu göstərir, onun necəliyini bildirir, lakin nailiyyət və dəyişikliyi göstərmir. Məsələn, “Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxslərin həvəsləndirilməsi və müdafiəsi haqqında” normativ hüquqi aktın dərci tədbirin hasilatıdır. Lakin həmin normativ hüquqi akt qəbul edildikdən sonra korrupsiya barədə məlumatı qəbul edən ayrıca subyektin müəyyən edilməsi, onun tərəfindən müvafiq müraciətlərə baxılaraq obyektiv araşdırmanın aparılması, korrupsiya barədə təsdiqini tapan məlumatlara görə müraciət müəlliflərinin həvəsləndirilməsi, korrupsiya barədə məlumat vermək istəyən şəxslərə konfidensial məsləhətlərin verilməsi, iş yerində korrupsiya barədə məlumat verdiklərinə görə qisas məqsədli tədbirlərə məruz qalma faktları və konfidensial məlumat ötürmə kanallarının təsis edilməsi bu tədbirin nəticəsidir. Qeyd edilən nəticə göstəriciləri əsasında tədbirin cəmiyyət üçün nə dərəcədə faydalı olması, tədbirin özünün isə nə dərəcədə effektiv olması müəyyən edilir.

2.12. Nəticə indikatorları həm kəmiyyət, həm də keyfiyyət göstəriciləri əsasında qiymətləndirilir. Məsələn, təlimin keçirilməsi tədbiri üzrə təlimə cəlb olunan şəxslərin sayı kəmiyyət göstəricisidirsə, təlimin məzmunu və faydalılığına dair iştirakçılar arasında aparılmış sorğunun nəticəsi onun keyfiyyət göstəricisi qismində çıxış edə bilər. Bu halda təlimə cəlb olunan şəxslərin sayı kifayət qədər olsa belə, təlimçinin zəruri bilik və bacarıqlara malik olmaması üzündən iştirakçıların müvafiq biliyə yiyələnməməsi tədbirin nəticəsinə mənfi təsir göstərir. Buna görə də, nəticə indikatorları ölçülməsi mümkün məlumata əsaslanır, tədbirin dəyişiklik yaradacağı bütün sahələri əhatə edir.

2.13. Təsir (*impact*) indikatorları müvafiq tədbir nəticəsində uzun müddət ərzində (3–5 il və 5 ildən artıq) baş verən geniş məzmunlu müsbət dəyişiklikləri ehtiva edir və belə dəyişikliyin təkcə bu tədbirlər əldə edilməsi mümkün deyil. Buna görə də təsir indikatorları müvafiq tədbirin məqsədləri ilə sıx bağlıdır. Belə geniş və ümumi məqsədlərə isə bir tədbir vasitəsilə nail olmaq mümkün olmur, bu isə digər tədbirləri və ümumi səyi zəruri edir. Məsələn, korrupsiya hüquqpozmalarının sayının azalması üçün təkcə “Korrupsiya ilə

əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxslərin həvəsləndirilməsi və müdafiəsi haqqında” normativ hüquqi aktın qəbul edilməsi kifayət etmir, bu daha geniş və konseptual tədbirlər sistemini zəruri edir. Yaxud ölkənin göstəricilərinin beynəlxalq reytinqlərdə yüksəlməsi üçün yalnız bir tədbirin icra edilməsi kifayət etmir.

## 3. METODOLOGİYA ÜZRƏ QİYMƏTLƏNDİRMƏ

3.1. Metodologiya üzrə qiymətləndirmə Qaydaya uyğun aparılır. Qaydada nəzərdə tutulmayan məsələlər Metodologiya ilə tənzimlənir.

3.2. Qatqı (*input*) indikatorları üzrə cavablar və qiymətləndirmə

3.2.1. Sorğu vərəqində qatqı indikatoru üzrə sorğulanan məlumatlar insan və maddi resurslara görə ayrılıqda təqdim edilir. Belə məlumatların mümkün qədər dəqiq verilməsi nəzərdə tutulsa da, bəzi hallarda təxmini hesablamalar da mümkündür. Qatqı indikatoru üzrə qiymətləndirmə kəmiyyət qiymətləndirilməsi ilə aparılır və görülmüş işə çəkilən xərcin bu işin mahiyyətinə uyğunluğu baxımından təhlil olunur. Belə ki, Qaydanın 1.6.12-ci yarımbəndinə görə “səmərəlilik – dövlət proqramının icrası məqsədilə sərf edilən resursların nəzərdə tutulan nəticələrə çevrilmə dərəcəsini ölçən qiymətləndirmə meyarı”dır. Qaydanın 4.9-cu bəndinə görə “[d]övlət proqramının icrasının bu Qaydaya uyğun monitorinqi həmin dövlət proqramının icrasına dövlət büdcəsindən ayrılmış vəsaitin təyinatına uyğun və səmərəli xərclənməsinin dövlət maliyyə nəzarəti qaydasında yoxlanılmasını, habelə qanunvericiliyin icrasına nəzarət və icra intizamının təmin edilməsi çərçivəsində Azərbaycan Respublikası Prezidentinin Administrasiyası tərəfindən dövlət nəzarəti tədbirlərinin həyata keçirilməsini, icra hakimiyyəti orqanlarının və dövlət qurumlarının fəaliyyətinin, onların həyata keçirdikləri layihələrin səmərəliliyinin qiymətləndirilməsini istisna etmir”.

3.2.2. Maddi resurslar tədbirin icrası üçün alınmış maddi-texniki vəsaitə (kompüter, printer, proqram təminatı, kargüzarlıq vasitələri və s.), digər mallara və əmtəəyə çəkilən xərci ehtiva edir. İnsan resursu dedikdə isə, müvafiq tədbirin icrası ilə əlaqədar ödənilmiş əmək haqları və ya görülmüş işə görə xidmət müqaviləsi üzrə ödənişlər nəzərdə tutulur. Məsələn, tədbir hər hansı informasiya sisteminin qurulmasını nəzərdə tutursa bu tədbir üzrə qatqı indikatorları hesablanarkən həm maddi, həm də insan resursu hesablanır. Bu zaman həmin proqram təminatının ərsəyə gəlməsinə çəkilən xərclər (məsələn, xidmət müqaviləsi üzrə proqram təminatını hazırlayan şəxsə ödənilən məbləğ) maddi resurslara aid edilirsə, orqanın (qurumun) bu işə məsul şəxslərinə ödədiyi əmək haqqı insan resursu xərci hesab edilir.

3.2.3. İnsan resursu üzrə çəkilən xərc orqanın (qurumun) işçisinə ödənilən əmək haqqı əsasında müəyyən edilir. Belə əmək haqqı müvafiq işçinin bir saatlıq əmək haqqı məbləğinin onun bu işə sərf etdiyi saatların sayına vurulması yolu ilə hesablanır. Əgər müvafiq tədbirə bir neçə şəxs cəlb edilmişdirsə hesablama eyni qaydada aparılır, sonda bütün məbləğlər toplanır. Məsələn, hər hansı tədbirə 3 nəfər işçi cəlb edilmişdirsə və onların aylıq əmək haqları müvafiq olaraq 3.000, 4.000 və 5.000 manatdır və aylıq iş norması hər üçündə eyni olmaqla 160 saatdırsa, bu halda onların 1 saatlıq əmək haqqı müvafiq olaraq 18,75 (3000/160), 25 (4000/160) və 31,25 (5000/160) manatdır. Müvafiq tədbir üzrə 1-ci işçi 10 saat, 2-ci işçi 30 saat, 3-cü işçi 20 saat işləmişdirsə, həmin tədbirə görə birinci işçiyə 187,5 manat (18,75*10), ikinci işçiyə 750 manat (25*30), üçüncü işçiyə

isə 625 manat (31,25*20) ödənilmişdir. Beləliklə, qeyd edilən tədbirin insan resurslarına ümumilikdə 1.562,5 (187,5+750+625) manat sərf edilir. Buna görə də sorğu vərəqində hər iki resursa çəkilən xərc ayrılıqda göstərilməklə cəmi qeyd edilməlidir. Məsələn, maddi resursa 10.000 manat, insan resursuna isə 1.562,5 manat xərc çəkilmişdirsə müvafiq qrafada "10.000+1.562,5=11.562,5" kimi qeyd olunur.

3.2.4. Qatqı indikatoru üzrə qiymətləndirmədə dövlət sektoru üzrə audit standartlarından, xüsusilə performans auditi standartlarından istifadə olunur.

3.3. Fəaliyyət (*activity*) indikatorları

3.3.1. Metodologiya çərçivəsində fəaliyyət indikatorları üzrə qiymətləndirmə aparılmır.

3.4. Hasilat (*output*) indikatorları üzrə cavablar və qiymətləndirmə

3.4.1. Hasilat indikatoru üzrə hər bir tədbir 100 ballıq şkala ilə ölçülür və müxtəlif indikatorlar əsasında həmin bal toplanır. 0–39 bal "icra edilməmiş", 40–74 bal "qismən icra edilmiş", 75–100 bal "tam icra edilmiş" nəticə hesab olunur. Nəticələr tam ədəd olmadıqda yuvarlaqlaşdırma aparılır.

3.4.2. Hasilat indikatoru üzrə tədbirin ümumi icrası bir neçə qurumun icra nəticəsindən asılıdırsa həmin tədbirin ümumi icra səviyyəsi tədbirin icraçılarının icra səviyyəsi əsasında müəyyən edilir. Tədbirin icraçılarının icra səviyyəsi də Metodologiyanın 3.4.1-ci yarımbəndinə uyğun aparılır. Bu nəticə həmin tədbir üzrə icraçı qurumun nəticəsi hesab olunur. Daha sonra hər bir icraçı qurumun icra balı toplanmaqla icraçı qurumların sayına bölünməsi yolu ilə tədbirin ümumi icra balı müəyyən olunur. Məsələn, tədbirin 3 icraçı qurumu varsa onlardan birinci 70, ikinci 30, üçüncü isə 85 bal toplamışdırsa, tədbirin icra balı 61,67-dir (70+30+85)/3=61,67). Bu halda tədbirin ümumi icra vəziyyəti Metodologiyanın 3.4.1-ci yarımbəndinə görə "qismən icra edilmiş" hesab olunur. MFP-nin 1.3, 1.4, 1.9, 2.4, 2.5, 2.8, 2.9 ("şəxsin yaşayış sahəsinə ehtiyacı olan qismində uçotunun aparılması qaydasının təsdiqi və uçota alınma ilə bağlı dövlət xidmətlərinin elektronlaşdırılması"na münasibətdə), 2.11–2.13, 2.17, 3.3, 3.5, 3.6, 4.1–4.3, 4.6, 4.8–4.10, 5.1–5.3, 6.2–6.7, 6.9 və 6.10-cu tədbirləri üzrə qiymətləndirmə bu yarımbəndə uyğun aparılır.

3.4.3. Hasilat indikatoru üzrə tədbirin ümumi icrası bir neçə qurumun icra nəticəsindən asılı olmadığı halda həmin tədbirin ümumi icra səviyyəsi görülmüş işin nəticəsi əsasında müəyyən edilir. Məsələn, MFP-nin 1.1-ci tədbirdə "[d]övlət orqanlarının (qurumlarının) fəaliyyətində korrupsiya risklərinin müəyyən edilməsi, təhlili və qarşısının alınması qaydalarının müəyyənləşdirilməsi" nəzərdə tutulur. Bu qayda normativ hüquqi aktın (aktların) qəbulunu özündə ehtiva edir ki, belə aktların qəbulu heç də hər bir icraçının (Azərbaycan Respublikasının Nazirlər Kabineti, Komissiya, Azərbaycan Respublikasının Baş Prokurorluğu) səlahiyyətində deyil. Belə ki, bu tədbir üzrə həm "Korrupsiya ilə mübarizə haqqında" Azərbaycan Respublikasının 2004-cü il 13 yanvar tarixli 580-IIQ nömrəli Qanununa (bundan sonra – "Korrupsiya ilə mübarizə haqqında" Qanun) dəyişikliyin edilməsi, həm də müvafiq metodologiyanın və ya qaydanın Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən qəbul edilməsi nəzərdə tutulur. Bu baxımdan bu qəbildən olan tədbirlər üzrə tədbir icraçıların hər birinin fəaliyyəti əsasında (Metodologiyanın 3.4.2-ci yarımbəndi üzrə) deyil, tədbirin ümumilikdə icrası üzrə (Metodologiyanın 3.4.1-ci yarımbəndi əsasında) qiymətləndirilir. Bununla belə icraçıların

tədbir üzrə icra səviyyəsi onların səlahiyyət və funksiyası əsasında qiymətləndirilir. Məsələn, tədbir üzrə qanunun qəbul olunması nəzərdə tutularsa və icraçı orqan (qurum) qanun qəbul etmək səlahiyyətində olmadığından orqanın (qurumun) tədbir üzrə icra səviyyəsi hazırladığı müvafiq qanun layihəsi əsasında Metodologiyanın 3.4.1-ci yarımbəndinə uyğun qiymətləndirilir. Həmin Qanun layihəsinin qəbul edilməməsi tədbirin ümumi icrası səviyyəsinə təsir edərək tədbirin icra edilməmiş hesab edilməsinə səbəb olsa da, aidiyyatı orqana (quruma) münasibətdə tədbir orqanın (qurumun) icra etdiyi işə müvafiq olaraq Metodologiyanın 3.4.1-ci yarımbəndinə uyğun qiymətləndirilir. MFP-nin 1.1, 1.2, 1.5–1.8, 1.10, 1.11, 2.1–2.3, 2.6, 2.7, 2.9 ("yerli icra hakimiyyəti orqanları tərəfindən yaşayış sahəsinə ehtiyacı olan şəxslərin və təklif edilən mənzil fondunun siyahılarının ictimaiyyət üçün açıq şəkildə öz rəsmi internet səhifəsində dərc edilməsi və aktuallığının daim təmin edilməsi"nə münasibətdə), 2.10, 2.14–2.16, 3.1, 3.2, 3.4, 4.4, 4.5, 4.11–4.14, 5.4 və 6.1-ci tədbirləri üzrə qiymətləndirmə bu yarımbəndə uyğun aparılır.

3.4.4. Hasilat indikatoru üzrə qiymətləndirmə qiymətləndirmə dövründə tədbirin icra vəziyyətinə əsasən aparılır. Hasilat indikatoru normativ hüquqi akt layihəsinin qəbulu, təklifin verilməsi, təlimin və sorğunun keçirilməsi, təhlil aparılması, məlumatın əlçatanlığının təmin edilməsi, arayış, hesabat və ya digər təhlil sənədinin hazırlanması kimi göstəriciləri nəzərdə tutursa, bu indikatorlar üzrə qiymətləndirmə müvafiq normativ hüquqi akt layihəsinin qəbul edildiyi, təklif verildiyi, təlim və sorğu keçirildiyi, təhlil aparıldığı, məlumatın əlçatanlığının təmin edildiyi və ya digər sənədlər hazırlandığı halda aparılır. Əks halda, müvafiq hasilat indikatoru üzrə göstəricilər 0 balla qiymətləndirilir. Bundan fərqli olaraq, tədbir müvafiq portalın və ya elektron informasiya sisteminin yaradılması və istifadəyə verilməsini nəzərdə tutursa, portal və ya elektron informasiya sistemi test rejimində istifadə olunarsa, müvafiq hasilat indikatorları üzrə göstəricilər 2-ə bölünür. Portal və ya elektron informasiya sistemi üzrə texniki tapşırıq sənədi hazırlanmış və buna uyğun işlər görülürsə, müvafiq hasilat göstəriciləri 4-ə bölünür.

3.4.5. Bir qayda olaraq Metodologiyada nəzərdə tutulmuş göstəricilər fəaliyyəti Azərbaycan Respublikasının bütün ərazisini əhatə edən orqanlara (qurumlara) münasibətdədir. Məsələn, icrası bütün dövlət orqanlarını (qurumlarını) əhatə edən 6.2-ci tədbir üzrə 1-ci hasilat indikatorunda "[m]aarifləndirici tədbirlərə cəlb edilən şəxslərin sayı" təsbit edilmişdir. Həmin indikatorda qeyd edilmişdir ki, "1 il ərzində tədbirlərə cəlb edilən işçilərinlərin sayı 500 nəfər təşkil edərsə yaxud müvafiq orqanın (qurumun) işçilərinin 10%-i təşkil edərsə bu indikator üzrə 100%-lik göstəricidir". Göstərilən müddəa fəaliyyəti Azərbaycan Respublikasının bütün ərazisini əhatə edən orqanlara (qurumlara) aiddir. Bu göstəricilər rayon (şəhər) icra hakimiyyətlərinə münasibətdə müvafiq dövr üzrə rayonun (şəhərin) əhalisinin sayının ölkə əhalisinin sayına olan nisbəti nəzərə alınmaqla azaldılır. Məsələn, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatına görə 2025-ci il 1 yanvar tarixinə Azərbaycan Respublikasının və Ağcabədi rayonunun əhalisinin sayı müvafiq olaraq 10.224.900 nəfər və 136.800 nəfər təşkil edir. 6.2-ci tədbir üzrə 1-ci hasilat indikatorunda nəzərdə tutulan 500 nəfərlik göstərici 10.224.900 nəfərə münasibətdədir. Ağcabədi rayonuna münasibətdə 500 nəfərlik göstərici 7 nəfər olaraq müəyyən edilir (136.800x500/10.224.900 = 6,69 ≈ 7).

3.4.6. Tədbir üzrə hasilat indikatorları qiymətləndirilərkən icraçı orqanın (qurumun) fəaliyyəti ilə bağlı olmayan yaxud müvafiq dövrün qiymətləndirilməsinə

aidiyyəti olmayan indikatorlar həmin orqana (quruma) yaxud qiymətləndirmə dövrünə münasibətdə nəzərə alınmır. Bu zaman nəzərə alınmayan indikatorun balı hesabına digər indikatorların balı proporsional qaydada 100 ballıq şkala üzrə artırılır. Məsələn, 2.4-cü tədbir üzrə 6-cı və 7-ci hasilat indikatorları şifahi müsahibə mərhələsinə aiddir. Əgər orqanda (qurumda) işə qəbul zamanı şifahi müsahibə nəzərdə tutulmamışdırsa 5-ci və 6-cı indikatorların hər biri üzrə toplanması nəzərdə tutulan 10 bal, cəmi 20 bal digər indikatorlar arasında proporsional qaydada bölünür. Yaxud 3.2-ci tədbirdə 2023–2025-ci illər ərzində, yəni 3 il müddətinə "e-mühasibat" elektron portalının yaradılması nəzərdə tutulmuşdur. Tədbirin ilkin nəticəsi təkliflərin toplanması, aralıq nəticə layihənin müəyyən edilməsi, yekun nəticə isə portalın yaradılmasının başa çatdırılmasıdır. Göründüyü kimi tədbir 3 illik müddəti əhatə etdiyindən ilkin, aralıq və yekun nəticənin hər biri müvafiq olaraq 2023-cü, 2024-cü və 2025-ci illərdə icra edilməlidir. Hər il üzrə görülən işlər isə aidiyyəti, yəni müvafiq dövr üçün uyğun olan hasilat indikatorları əsasında qiymətləndirilir. Bu tədbir üzrə 1-ci hasilat indikatoru yekun nəticə ilə bağlı olduğundan (yəni, "e-mühasibat" elektron platformasının istifadəyə verilməsini nəzərdə tutduğundan), 2023-cü və 2024-cü illər üzrə görülmüş nəticələr yalnız 2-ci, 3-cü və 4-cü indikatorlar üzrə qiymətləndirilir. Bu zaman həmin indikatorların 10 bal, 30 bal və 10 bal qiymətləri proporsional qaydada 20 bal, 60 bal və 20 bal müəyyən edilir (10x+30x+10x=100; x=2; 2*10=20; 2*30=60; 2*10=20). Həmçinin, təbir müxtəlif məzmunlu yarımtədbirlərdən ibarətdirsə və bir neçə icraçı müəyyən olunmuşdursa, müvafiq icraçının fəaliyyət istiqamətinə uyğun olmayan hissədə tədbir qiymətləndirilmir. Məsələn, 2.9-cu tədbir "[ş]əxsin yaşayış sahəsinə ehtiyacı olan qismində uçotunun aparılması qaydasının təsdiqi və uçota alınma ilə bağlı dövlət xidmətlərinin elektronlaşdırılması, habelə yerli icra hakimiyyəti orqanları tərəfindən yaşayış sahəsinə ehtiyacı olan şəxslərin və təklif edilən mənzil fondunun siyahılarının ictimaiyyət üçün açıq şəkildə öz rəsmi internet səhifəsində dərc edilməsi və aktuallığının daim təmin edilməsi"ni nəzərdə tutur. Bu tədbirin məzmununa iki fərqli yarımtədbir daxildir: 1. şəxsin yaşayış sahəsinə ehtiyacı olan qismində uçotunun aparılması qaydasının təsdiqi və uçota alınma ilə bağlı dövlət xidmətlərinin elektronlaşdırılması; 2. yerli icra hakimiyyəti orqanları tərəfindən yaşayış sahəsinə ehtiyacı olan şəxslərin və təklif edilən mənzil fondunun siyahılarının ictimaiyyət üçün açıq şəkildə öz rəsmi internet səhifəsində dərc edilməsi və aktuallığının daim təmin edilməsi. İkinci yarımtədbir (yəni, 2-ci və 3-cü hasilat indikatorları) yerli icra hakimiyyəti orqanlarının, birinci yarımtədbir (1-ci və 4-cü hasilat indikatorları) isə digər icraçıların fəaliyyət istiqamətlərinə uyğundur.Bəzi hallarda ilkin, aralıq və yekun göstəricilər 3 illik deyil (yəni, hər il üzrə bir nəticə olmaqla), 5 illik dövr (2022–2026) üzrə də qiymətləndirilə bilər. Hər bir mərhələ üzrə nəticə 100% qiymətləndirilərsə 3 mərhələ üzrə 300% hesab olunur. Tədbirin 5 il olması nəzərə alınaraq hər il üzrə 60%-lik nəticənin icrası həmin il üzrə 100%-lik nəticədir. Bu halda 1-ci il (2022-ci il) üzrə ilkin nəticənin 60%, 2-ci il (2023-cü il) üzrə ilkin nəticənin qalan 40%-i və aralıq nəticənin ilk 20%-i, 3-cü il (2024-cü il) üzrə aralıq nəticənin qalan 60%-i, 4-cü il (2025-ci il) üzrə aralıq nəticənin qalan 20%-i və yekun nəticənin 40%-i və 5-ci il (2026-cı il) üzrə isə yekun nəticənin qalan 60%-i icra olunur. Məsələn, 2.3-cü tədbirdə "[ə]dalət mühakiməsi sahəsində antikorrupsiya tədbirlərinin gücləndirilməsi, məhkəmə hakimiyyətinin daha səmərəli təşkili məqsədilə beynəlxalq təcrübə nəzərə alınmaqla Məhkəmə-Hüquq Şurasının formalaşdırılmasına dair

qaydaların təkmilləşdirilməsi” nəzərdə tutulur. “Ədalət mühakiməsi sahəsində antikorrupsiya tədbirlərinin gücləndirilməsi, məhkəmə hakimiyyətinin daha səmərəli təşkili məqsədilə beynəlxalq təcrübənin öyrənilməsi” ilkin, “[ə]dalət mühakiməsi sahəsində antikorrupsiya tədbirlərinin gücləndirilməsi, Məhkəmə-Hüquq Şurasının formalaşdırılmasına dair qaydaların təkmilləşdirilməsi” aralıq, “[ə]dalət mühakiməsi sahəsində antikorrupsiya tədbirlərinin gücləndirilməsi, məhkəmə hakimiyyətinin daha səmərəli təşkili istiqamətində tədbirlər görülməsi” isə yekun tədbir kimi göstərilmişdir. Bu baxımdan 5 illik (2022–2026-cı illər) dövrü əhatə edən bu tədbir üzrə 2024-cü ildə görülməli işlər əsasən aralıq nəticədə təsbit olunan göstəricilərin 60%-i ilə məhdudlaşır. O da nəzərə alınmalıdır ki, aralıq nəticədə təsbit olunan göstəricilərin də təxminən 20%-nin 2025-ci ildə aparılması nəzərdə tutulur.

3.4.7. Hər bir indikator üzrə müvafiq balın toplanması göstəricilərlə təsdiqlənir. Buna görə də, sorğu vərəqində tədbirlərin icrası barədə təqdim edilən məlumat tədbirin müvafiq indikatorunun nömrəsi ilə nömrələnir. Məsələn, orqan (qurum) 2.4-cü tədbirin 5-ci hasilat indikatoru üzrə məlumat təqdim edirsə müvafiq qrafada “5.” nömrələməsi etdikdən sonra “şifahi müsahibə prosesinin video qeydiyyatının aparıl”ıb-aparılmaması barədə məlumat təqdim edir. Müvafiq indikatorlar üzrə məlumat təqdim edilməzsə, həmin indikator üzrə heç bir bal toplanmır.

3.4.8. Sorğu vərəqi üzrə müvafiq məlumatlar təqdim edilərkən həmin məlumatı təsdiq edən sənəd və digər material (məsələn, normativ hüquqi akt layihəsinin, təhlilin nəticəsinə dair arayışın (hesabatın), təlimlərin keçirilməsinə dair məlumatın paylaşıldığı aktiv linkin, təlim proqramının və s.) sorğu vərəqinə əlavə edilir. Sorğuya cavabda müvafiq akta istinad edilirsə həmin aktın (sənədin) surəti və ya linki sorğu vərəqinə əlavə olunur. Həmçinin cavablarda müvafiq layihənin hazırlandığı yaxud razılaşma prosesində olduğu qeyd edilirsə həmin layihənin də surəti əlavə edilir. Sorğu vərəqində göstərilmiş məlumatlar yuxarıda qeyd edilən təsdiqedici sənədlər əsasında qiymətləndirilir. Aidiyyatı təsdiqedici sənəd və materialın təqdim edilməməsi müvafiq tədbir üzrə işlərin görülməməsi hesab olunur.

3.4.9. Sorğu vərəqində cavablar qeyd edilərkən görülmüş hər bir işin tarixi qeyd olunur. Bu həmin tədbirin hansı dövrdə icra edilməsinə imkan verir. Müddət keçməklə tədbir icra olunsa belə bu tədbirin icra göstəricisinə təsir etmir.

3.4.10. Sorğu cədvəlində başqa qayda nəzərdə tutulmamışdırsa hər bir tədbir üzrə sorğu olunan, yəni bir illik dövrü əhatə edən məlumatlar əlavə edilir. Əgər tədbir bir neçə ili əhatə edirsə hər il üzrə görülməli olan tədbirlərin həcmi və ya həddi tədbirin ilkin, aralıq və yekun nəticələri əsasında müəyyən edilir. Məsələn, 1.2-ci tədbirdə 2022–2024-cü illər ərzində “[k]orrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxslərin həvəsləndirilməsinə və müdafiəsinə dair qanunvericiliyin təkmilləşdirilməsi” nəzərdə tutulur. Bu tədbirin ilkin nəticəsi qanunvericiliyin təkmilləşdirilməsi üçün təkliflərin toplanmasını, aralıq nəticəsi bu təkliflər əsasında layihənin hazırlanmasını, yekun nəticəsi isə müvafiq normativ hüquqi aktın qəbulunu nəzərdə tutur. Bu baxımdan 2022-ci il üzrə ilkin nəticə, 2023-cü il üzrə aralıq nəticə, 2024-cü il üzrə isə yekun nəticə qiymətləndirilir. Bu halda 2024-cü il üzrə qiymətləndirilən nəticə həm də həmin tədbirin ümumilikdə nəticəsidir.

3.4.11. Çoxillik tədbirlərdə hər il üzrə görülmüş tədbirlər qiymətləndirilərkən nəzərə alınan əsas indikator məhz tədbir üzrə nəzərdə tutulmuş hasilat indikatorlardır. Bu indikatorlar yekun hasilata münasibətdə təsbit edilsələr də, tədbirin ilkin və aralıq mərhələsində görülmüş işlərin qiymətləndirilməsi də məhz eyni hasilat indikatorlar üzrə aparılır. Başqa sözlə tədbirin hər mərhələsi üçün ayrıca hasilat indikatorları nəzərdə tutulmur. Məsələn, 1.2-ci tədbir üzrə 2022-ci ilə dair ilkin hasilat müvafiq təkliflərin hazırlanmasıdır. Bu zaman hazırlanmış təkliflər vahid hasilat indikatorlar baxımından qiymətləndirilir, bu təkliflərin nə dərəcədə həmin indikatorlara uyğun olması müəyyən edilir. Həmçinin aralıq nəticə üzrə hazırlanmış müvafiq layihə də məhz həmin vahid hasilat indikatorları baxımından qiymətləndirilir. Belə yanaşma, həm də ona xidmət edir ki, tədbir üzrə ilkin mərhələdə yol verilən yanlışlıqlar qiymətləndirmə və müvafiq tövsiyələrlə aradan qaldırılsın ki, aralıq və yekun mərhələlərdə aradan qaldırılması mümkün olmayan hallar yaranmasın. Əgər ilkin mərhələdəki təkliflər müvafiq indikatorlara uyğun deyilsə bu mərhələdə aşağı bal toplanması özlüyündə yekun nəticə üzrə bala təsir etmir. Əgər yekun nəticədə, yəni 2024-cü il üzrə görülmüş iş hasilat indikatorlarına uyğun olarsa, tədbirin yekun nəticəsidir də yüksək qiymətləndirilir.

3.4.12. Müvafiq indikator üzrə qiymətləndirməni dəqiqləşdirən başqa müddəa yoxdursa qiymətləndirmə həmin indikator üzrə görülmüş işin kəmiyyət və keyfiyyət tərəfləri əsasında aparılır.

3.4.13. Müvafiq indikator üzrə 100%-lik nəticəyə bərabər hər hansı rəqəm nəzərdə tutulmuşdursa, bu rəqəmdən kiçik rəqəmlər üzrə əldə edilmiş göstərici düz mütənasib qaydada hesablanır. Məsələn, 4.1-ci tədbir üzrə 6-cı indikator aşağıdakı məzmunda təsbit edilmişdir: “Elektron xidmətlərin təşkilini həyata keçirən əməkdaşlardan il ərzində azı 20 saatlıq təlimə cəlb edilən əməkdaşların sayının belə xidmət göstərən bütün əməkdaşların sayına nisbəti ... (20%-lik göstərici bu indikator üzrə 100%-lik nəticədir)”. Bu indikator üzrə toplanması mümkün olan maksimum bal 10 baldır. Əgər əldə edilmiş göstərici 10% olarsa (yəni, azı 20 saatlıq təlimə cəlb edilən şəxslərin sayının digər aidiyyəti əməkdaşların sayına nisbəti) bu halda həmin indikator üzrə 50%-lik nəticə (yəni 5 bal) toplanır. Çünki, 10/20=1/2 olduğundan 10*1/2=5.

3.4.14. Müvafiq indikatorlarda hər hansı göstəricinin digərinə nisbəti tələb olunursa bu zaman bölən və bölünən tam göstərilməklə nisbət hesablanır. Bölən və bölünənin müəyyən edilməsi əvvəlki illərdəki kəmiyyət dəyişməsini də izləməyə imkan verir.

3.4.15. Prioritet istiqamət üzrə icra faizi müəyyən edilərkən Qaydaya 2 nömrəli əlavənin 2.4-cü və 2.5-ci bəndləri nəzərə alınır. Bu zaman tam icra edilmiş, yəni 75–100 bal toplanılmış tədbir 1, qismən icra edilmiş, yəni 40–74 bal toplanmış tədbir 0,5, icra edilməmiş, yəni 0–39 bal toplanmış tədbir isə 0-la qiymətləndirilir. Prioritet istiqamətin ümumi icra vəziyyəti aşağıdakı düsturla hesablanır:

$$\text{İF} = \frac{\text{İE} + \text{Qİ} + \text{İB}}{\text{TS}} * 100$$

İF – prioritet istiqamət üzrə icra faizi

İE – tam icra edilmiş tədbirlər üzrə ümumi bal

Qİ – qismən icra edilmiş tədbirlər üzrə ümumi bal

İB – icra edilməmiş tədbirlər üzrə ümumi bal
TS – prioritet istiqamət üzrə tədbirlərin sayı

Bu zaman əldə edilmiş nəticələr aşağıdakı qaydada qiymətləndirilir: qeyri-məqbul, yəni 0–50 faiz aralığında göstərici, məqbul, yəni 51–80 faiz aralığında göstərici və qənaətbəxş, yəni 81–100 faiz aralığında göstərici.

3.4.16. MFP üzrə ümumi icra faizinin nəticəsi qiymətləndirilərkən Qaydaya 2 nömrəli əlavənin 3-cü və 4-cü bəndlərinə uyğun olaraq aşağıdakı düsturla hesablanır:

$$\mathrm{DPQ} = \frac{\mathrm{PB}}{\mathrm{PS}} * 100$$

DPQ – dövlət proqramının icra faizi
PB – prioritet istiqamətlər üzrə ümumi bal
PS – prioritet istiqamətlərin sayı

Bu zaman əldə edilmiş nəticələr aşağıdakı qaydada qiymətləndirilir: qeyri-məqbul, yəni 0–50 faiz aralığında göstərici, məqbul, yəni 51–80 faiz aralığında göstərici və qənaətbəxş, yəni 81–100 faiz aralığında göstərici.

3.5. Nəticə (*outcome*) indikatorları üzrə cavablar və qiymətləndirmə

3.5.1. Nəticə indikatorları üzrə məlumatlar kəmiyyət və keyfiyyət baxımından qiymətləndirilir. Təqdim edilən məlumatlar əsasında müvafiq tədbirin hansı dərəcədə effektiv olması müəyyən olunur. Buna görə də, nəticə indikatorları hasilat indikatorları üzrə əldə edilmiş nailiyyətləri müəyyən etməyə xidmət edir. Məsələn, 4.1-ci tədbir “[d]övlət xidmətlərinin proaktiv, elektron formada göstərilməsi sahəsində fəaliyyətin genişləndirilməsinin təşkil edilməsi üçün tədbirlər görülməsi”ni nəzərdə tutur. Həmin tədbir üzrə 1-ci nəticə indikatoru “[m]üvafiq tədbirlər tətbiq edildikdən əvvəlki 3 il və sonrakı illər üzrə proaktiv xidmət istifadəçilərinin sayının bütün elektron xidmət istifadəçilərinin sayına nisbəti”ni nəzərdə tutur. Bu məlumat hesabına artım tendensiyasını müəyyən etmək mümkündür. Əgər tədbir başlamazdan əvvəlki illərdəki artım tendensiyasına nisbətən tədbirdən sonrakı artım tendensiyası yüksəkdirsə bu tədbirin müsbət nəticəsi hesab edilir. Həmin tədbir üzrə 4-cü nəticə indikatoru isə “[x]idmətlərin keyfiyyətinə və təkmilləşdirilməsinə dair vətəndaş məmnunluğu sorğularının kəmiyyət göstəriciləri”ni ehtiva edir. Burada isə keçirilmiş sorğu nəticələri üzrə qiymətlər müqayisə olunaraq həm kəmiyyət, həm də keyfiyyət qiymətləndirilməsi aparılır.

3.5.2. Metodologiyada nəzərdə tutulan nəticə indikatorlarından başqa digər statistik məlumatlar, sorğular, müsahibələr, müşahidələr və təhlillər əsasında da müvafiq göstəricilər müəyyən edilə bilər.

3.5.3. Başqa qayda nəzərdə tutulmamışdırsa nəticə göstəriciləri üzrə tədbir başlamazdan əvvəlki tendensiyaya münasibətdə tədbir tətbiq edildikdən sonrakı tendensiyada 0–50%-lik müsbət dəyişiklik 0–100%-lik nəticə hesab olunur.

3.6. Təsir (impact) indikatorları müvafiq statistik məlumatlar əsasında müəyyən edilir. Bu zaman statistik göstəricilərlə tədbir arasında birbaşa və dolayı əlaqə müəyyən edilir.

3.7. Müvafiq indikatorlar üzrə datanın təqdim edilməsi mümkün olmadıqda həmin göstəricilər beynəlxalq təcrübə, metodologiyalar və standartlar nəzərə alınmaqla, oxşar təcrübələr üzrə anologiya tətbiq edilməklə hesablanır.

## 4. TERMİNOLOGİYANIN İZAHI

4.1. Metodologiyada inzibati xətaların (faktların) sayı dedikdə Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsi (İXM) ilə qadağan edilmiş əməllərin törədilməsi faktlarının (epizodlarının) sayı nəzərdə tutulur. Bu zaman inzibati xəta haqqında icraatların sayı deyil, məhz faktların (epizodların) sayı nəzərdə tutulur. Çünki bir neçə inzibati xəta faktı (epizodu) inzibati xəta haqqında bir icraatda tədqiq oluna bilər.

4.2. Metodologiyada cinayətlərin sayı dedikdə Azərbaycan Respublikası Cinayət Məcəlləsi (CM) ilə qadağan edilmiş əməllərin törədilməsi faktlarının (epizodlarının) sayı nəzərdə tutulur. Bu zaman cinayət işləri və ya araşdırma materiallarının sayı deyil, məhz faktların (epizodların) sayı nəzərdə tutulur. Çünki bir neçə cinayət faktı (epizodu) bir cinayət işi və ya araşdırma materialı çərçivəsində araşdırıla və ya istintaq oluna bilər.

4.3. Cinayət faktı (epizodu) eyni cinayət əməlinin bir neçə maddəsi üzrə tövsif olunan tərkib əlamətini təşkil edirsə müvafiq məlumat daha ağır maddə üzrə məsuliyyət nəzərdə tutan maddəyə uyğun təqdim edilir. Məsələn, epizod həm CM-in 178.2.1-ci, həm də 178.3.2-ci maddəsinin tərkib əlamətlərini təşkil edirsə müvafiq məlumat CM-in 178.3.2-ci maddəsi üzrə təqdim edilir.

4.4. Cinayət və ya inzibati xəta faktlarının (epizodlarının) və cinayət və inzibati məsuliyyətə cəlb olunan şəxslərin sayı təqdim edilərkən vurulmuş maddi ziyanın (həçinin dövlətə vurulmuş maddi ziyan) məbləği və həmin ziyanın ödənilən hissəsi (həmçinin dövlətə vurulmuş maddi ziyanın ödənilən hissəsi) göstərilir.

4.5. Metodologiyada inzibati məsuliyyətə cəlb etmə dedikdə inzibati tənbeh tətbiq edilməsi yaxud İXM-in 53.1.6-cı, 53.1.8-ci və 53.1.10-cu maddələrində nəzərdə tutulmuş əsaslarla inzibati xətalar haqqında icraatın rədd edilməsi (başlanmış icraata xitam verilməsi) nəzərdə tutulur.

4.6. Metodologiyada cinayət məsuliyyətinə cəlb etmə dedikdə Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin müddəalarına uyğun olaraq ittiham hökmünün çıxarılması və ya təqsirləndirilən şəxs qismində cəlb edilməklə cinayət işinə bəraətverici əsaslar olmadan xitam verilməsi halları aiddir.

4.7. Metodologiyada korrupsiyaya şərait yaradan hüquqpozmalar dedikdə “Korrupsiya ilə mübarizə haqqında” Qanunun 9.3-cü maddəsində təsbit olunmuş əməllər nəzərdə tutulur.

4.8. Metodologiyada korrupsiya cinayətləri dedikdə orqanın (qurumun) vəzifəli şəxsləri tərəfindən xidməti və ya qulluq səlahiyyəti və ya vəzifələrinin icrası ilə bağlı CM-in 193-1-ci, 308–314-4-cü maddələrində təsbit olunmuş əməllər və qulluq mövqeyindən istifadə etməklə törədilən talama cinayətləri (178-ci və 179-cu maddələr) nəzərdə tutulur.

4.9. Sorğu olunan məlumat üzrə müvafiq statistik məlumatlar mövcud olmazsa sorğu edilən məlumata məzmun baxımından uyğun olan digər mövcud məlumatlar təqdim edilir.

**“Korrupsiya ilə mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı”nın monitorinqi və qiymətləndirilməsi metodologiyasına Əlavə**

## PRİORİTET 1. KORRUPSİYAYA QARŞI MÜBARİZƏ ÜZRƏ QANUNVERİCİLİK BAZASININ TƏKMİLLƏŞDİRİLMƏSİ SAHƏSİNDƏ TƏDBİRLƏR

### 1.1. Dövlət orqanlarının (qurumlarının) fəaliyyətində korrupsiya risklərinin müəyyən edilməsi, təhlili və qarşısının alınması qaydalarının müəyyənləşdirilməsi

| | | |
|---|---|---|
| **İcraçılar və icra müddəti** | Nazirlər Kabineti, Korrupsiya ilə mübarizə üzrə Komissiya, Baş Prokurorluq, 2022–2023 | |
| **İlkin nəticə** | Dövlət orqanlarının (qurumlarının) fəaliyyətində korrupsiya risklərinin müəyyən edilməsi, təhlili və qarşısının alınması ilə bağlı mexanizmin formalaşdırılması məqsədilə beynəlxalq təcrübənin öyrənilməsi və təkliflərin toplanılması | |
| **Aralıq nəticə** | Müvafiq qaydaların layihəsinin hazırlanması | |
| **Yekun nəticə** | Dövlət orqanlarının (qurumlarının) fəaliyyətində korrupsiya risklərinin müəyyən edilməsi, təhlili və qarşısının alınması ilə bağlı tədbirlərin həyata keçirilməsi qaydalarının müəyyənləşdirilməsi | |
| **Qatqı (*input*) indikatorları** | 1. Maddi resurslar (maddi-texniki vəsait, o cümlədən kompüter, printer, proqram təminatı, kargüzarlıq vasitələri, digər mallar və əmtəə) üzrə çəkilən xərc | |
| | 2. İnsan resursu üzrə çəkilən xərc | |
| **Hasilat (*output*) indikatorları və ballar** | 1. Risklərin idarə edilməsi (risklərin müəyyən edilməsi, təhlili və qiymətləndirilməsi) üzrə ISO və aidiyyəti beynəlxalq standartlara uyğun konkret qaydanın (metodologiyanın) hazırlanması və müvafiq məsələlərin (qaydanın strateji məqsədlərlə uyğunlaşdırılması, qaydada risk idarəetməsi üzrə resursların bölgüsü, səlahiyyət bölgüsü və hesabatlılığın təmin olunması (5), monitorinq və təkmilləşmə mexanizmlərinin nəzərdə tutulması (10), orqan (qurum) tərəfindən risklərin qiymətləndirilməsinin nəticəsinə müvafiq olaraq risk tədbirlərinin görülməsi (10), risklərin ağırlığını və təkrar olunma tezliyini müəyyən edən dəqiq indikatorların olması (20), risklərin müəyyən edilməsi, təhlili və qiymətləndirilməsinin dəqiq üsulları (25) həmin qaydada (metodologiyada) təsbit olunması | 70 |
| | 2. Risklərin idarə edilməsində cəmiyyət nümayəndələrinin iştirakı | 10 |
| | 3. Risklərin idarə edilməsi üçün işçi qrupun yaradılması | 10 |
| | 4. Risklərin idarə edilməsi fəaliyyətinin monitorinqinin kənar qurum tərəfindən aparılması | 10 |

| | |
|---|---|
| **Nəticə (*outcome*) indikatorları** | 1. Orqan (qurum) tərəfindən müvafiq tədbirlər görülmüş risklərin sayının idarə edilməsi zəruri hesab olunan risklərin sayına nisbəti |
| | 2. Orqanın (qurumun) fəaliyyətində həm risklərin idarə edilməsi fəaliyyətindən əvvəlki 3 il ərzində, həm də bu fəaliyyətdən sonrakı illərdə korrupsiya cinayətləri və korrupsiyaya şərait yaradan hüquqpozmalarla bağlı şikayətlərin sayı |
| | 3. Orqanın (qurumun) fəaliyyətində həm risklərin idarə edilməsi fəaliyyətindən əvvəlki 3 il ərzində, həm də bu fəaliyyətdən sonrakı illər üzrə korrupsiya cinayəti faktlarının (epizodlarının) və cinayət məsuliyyətinə cəlb edilən şəxslərin sayı |
| | 4. Orqanın (qurumun) fəaliyyətində həm risklərin idarə edilməsi fəaliyyətindən əvvəlki 3 il ərzində, həm də bu fəaliyyətdən sonrakı illərdə Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 410-cu və 445-1-ci maddələri üzrə inzibati xəta faktlarının (epizodlarının) və inzibati məsuliyyətə cəlb edilən şəxslərin sayı |
| **Təsir (*impact*) indikatorları** | 1. Korrupsiya ilə mübarizə sahəsində beynəlxalq reytinqlərdə Azərbaycan Respublikasının göstəricilərinin yüksəldilməsi |
| | 2. Adambaşına düşən ümumi daxili məhsulun məbləğinin artması |
| | 3. Vurulmuş maddi ziyanın ödənilməsi hesabına dövlət büdcəsinə daxilolmaların artımı |
| | 4. Effektiv maliyyə nəzarəti mexanimzlərinin tətbiqi nəticəsində dövlət vəsaitinin qanunauyğun, məqsədyönlü, səmərəli istifadə və idarə edilməsi |
| | 5. Orqanlara (qurumlara) ictimai etimadın yüksəlməsi |
| | 6. Orqanların (qurumların) işçiləri tərəfindən törədilən korrupsiya cinayətlərinin qarşısının alınması |

### 1.2. Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxslərin həvəsləndirilməsinə və müdafiəsinə dair qanunvericiliyin təkmilləşdirilməsi

| | |
|---|---|
| **İcraçılar və icra müddəti** | Nazirlər Kabineti, Baş Prokurorluq, 2022–2024 |
| **İlkin nəticə** | Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxslərin həvəsləndirilməsinə və müdafiəsinə dair qanunvericiliyin təkmilləşdirilməsi üçün təkliflərin toplanması |
| **Aralıq nəticə** | Qeyd edilən qanunvericilik aktının layihəsinin hazırlanması |
| **Yekun nəticə** | Korrupsiya ilə əlaqədar hüquqpozmalar barədə məlumat verən şəxslərin həvəsləndirilməsinə və müdafiəsinə dair qanunvericilik aktının qəbul edilməsi |
| **Qatqı (input) indikatorları** | 1. Maddi resurslar (maddi-texniki vəsait, o cümlədən kompüter, printer, proqram təminatı, kargüzarlıq vasitələri, digər mallar və əmtəə) üzrə çəkilən xərc |
| | 2. İnsan resursu üzrə çəkilən xərc |

| | | |
|---|---|---|
| **Hasilat (output) indikatorları və ballar** | 1. Korrupsiya ilə əlaqədar hüquqpozma barədə məlumat verən şəxslərin iş yerlərində qisas məqsədli tədbirlərə məruz qalma hallarından qorunması mexanizminin mövcudluğu, qisas məqsədli tədbirlərə məruz qaldığını iddia edən işçinin irəli sürdüyü dəlilləri təkzib etmək öhdəliyinin və sübut etmə yükünün işəgötürən üzərinə düşməsi | 30 |
| | 2. Korrupsiya barədə məlumatı qəbul edən struktur bölmənin qərəzsizliyinə və müstəqilliyinə təminat verilməsi | 10 |
| | 3. Korrupsiya ilə əlaqədar hüquqpozma barədə məlumat verən şəxslərin verdiyi məlumatlar öz təsdiqini taparsa onların həvəsləndirilməsi məsələsinin qanunvericilikdə təsbit olunması | 5 |
| | 4. Korrupsiya barədə məlumat verən şəxsin konfidensiallıq hüququnun təmin edilməsi, bunun üçün konfidensiallığa təminat verən məlumat ötürmə kanalının mövcudluğu | 10 |
| | 5. Korrupsiya barədə məlumat vermə mədəniyyətinin formalaşdırılmasına və bunun təşviq edilməsinə dair normaların mövcudluğu | 5 |
| | 6. Özündə təkzibedilməz dəlillər ehtiva edən anonim müraciətlərə baxılmasının məcburiliyi | 10 |
| | 7. Korrupsiya barədə müraciətlərin qəbulu üzrə vahid nəzarətedici orqanın (qurumun) müəyyən edilməsi, vahid statistikanın toplanması və bu sahədə qanunvericiliyin icrasına nəzarət | 10 |
| | 8. Məlumat verənin birbaşa işlədiyi orqandan (qurumdan) daha yuxarı orqana (quruma) yaxud alternativ orqana (quruma) müraciət imkanının məhdudlaşdırılmaması | 10 |
| | 9. Struktur bölmə tərəfindən məlumat vermək istəyən lakin tərəddüd edən, habelə məlumat verdikdən sonra hüquqi prosedurlar barədə məlumatsız olan şəxslərə konfidensial məsləhət verilməsi öhdəliyinin müəyyən edilməsi | 10 |
| **Nəticə (*outcome*) indikatorları** | 1. Həm müvafiq normativ hüquqi akt qəbul edilməzdən əvvəlki 3 il ərzində, həm də bu akt qəbul edildikdən sonrakı illər üzrə korrupsiya cinayətləri və korrupsiya ilə əlaqədar hüquqpozmalar barədə daxil olan müraciətlərin sayı | |
| | 2. Həm müvafiq normativ hüquqi akt qəbul edilməzdən əvvəlki 3 il ərzində, həm də bu akt qəbul edildikdən sonrakı illər üzrə qisas xarakterli tədbirlərə məruz qalmağa dair müraciətlərin sayı və onlara baxılmanın nəticəsinə dair statisitik göstəricilər (müraciətin təmini və ya təmin olunmaması) | |
| | 3. Həm müvafiq normativ hüquqi akt qəbul edilməzdən əvvəlki 3 il ərzində, həm də bu akt qəbul edildikdən sonrakı illər üzrə korrupsiya barədə məlumat verən şəxslərə tətbiq edilən həvəsləndirmələrin sayı | |
| | 4. Həm müvafiq normativ hüquqi akt qəbul edilməzdən əvvəlki 3 il ərzində, həm də bu akt qəbul edildikdən sonrakı illər üzrə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 594-2-ci maddəsi üzrə inzibati xəta faktlarının (epizodlarının) və inzibati məsuliyyətə cəlb edilən şəxslərin sayı | |
| | 5. Həm müvafiq normativ hüquqi akt qəbul edilməzdən əvvəlki 3 il ərzində, həm də bu akt qəbul edildikdən sonrakı illər üzrə korrupsiya şərait yaradan hüquqpozmalar üzrə intizam xətalarının (epizodlarının) və intizam məsuliyyətinə cəlb edilən şəxslərin sayı | |

| | |
|---|---|
| | 6. Həm müvafiq normativ hüquqi akt qəbul edilməzdən əvvəlki 3 il ərzində, həm də bu akt qəbul edildikdən sonrakı illərdə korrupsiya cinayətləri üzrə cinayət faktlarının (epizodlarının) və cinayət məsuliyyətinə cəlb edilən şəxslərin sayı |
| **Təsir (*impact*) indikatorları** | 1. Korrupsiya ilə mübarizə sahəsində beynəlxalq reytinqlərdə Azərbaycan Respublikasının göstəricilərinin yüksəldilməsi |
| | 2. Vurulmuş maddi ziyanın ödənilməsi hesabına dövlət büdcəsinə daxilolmaların artımı |
| | 3. Effektiv maliyyə nəzarəti mexanimzlərinin tətbiqi nəticəsində dövlət vəsaitinin qanunauyğun, məqsədyönlü, səmərəli istifadə və idarə edilməsi |
| | 4. Orqanlara (qurumlara) ictimai etimadın yüksəlməsi |
| | 5. Orqanların (qurumların) işçiləri tərəfindən törədilən korrupsiya cinayətlərinin qarşısının alınması |

### 1.3. Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların elektron formada təqdim edilməsi işinin təşkili, qanunsuz varlanmaya qarşı mübarizə tədbirlərinin gücləndirilməsi ilə bağlı təkliflər verilməsi

| | | |
|---|---|---|
| **İcraçılar və icra müddəti** | Nazirlər Kabineti, Korrupsiya ilə mübarizə üzrə Komissiya, Baş Prokurorluq, 2022–2026 | |
| **İlkin nəticə** | Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların elektron formada təqdim edilməsi işinin təşkili və qanunsuz varlanmaya qarşı mübarizə tədbirlərinin gücləndirilməsinə dair təkliflərin toplanılması | |
| **Aralıq nəticə** | Təqdim olunmuş təkliflərin qiymətləndirilməsi | |
| **Yekun nəticə** | Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların elektron formada təqdim edilməsi işinin təşkili və qanunsuz varlanmaya qarşı mübarizənin gücləndirilməsi ilə bağlı tədbirlər görülməsi | |
| **Qatqı (*input*) indikatorları** | 1. Maddi resurslar (maddi-texniki vəsait, o cümlədən kompüter, printer, proqram təminatı, kargüzarlıq vasitələri, digər mallar və əmtəə) üzrə çəkilən xərc | |
| | 2. İnsan resursu üzrə çəkilən xərc | |
| **Hasilat (*output*) indikatorları və ballar** | 1. Maliyyə bəyannaməsinin qanunvericilikdə nəzərdə tutulmuş məlumatları əks etdirən formaya dair təkliflərin verilməsi | 40 |
| | 2. Maliyyə bəyannaməsinin elektron formada təqdim edilməsi üçün informasiya sistemi yaradılmasına dair təkliflərin verilməsi | 40 |
| | 3. Qanunsuz varlanmaya görə cinayət və inzibati məsuliyyət müəyyən edən normaya dair təkliflər | 20 |
| **Nəticə (*outcome*) indikatorları** | 1. Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların elektron formada təqdim edilməsinə dair müvafiq tədbirlərin tətbiq olunması | |
| | 2. Qanunsuz varlanmaya dair inzibati və cinayət məsuliyyəti müəyyən edən qanunvericilik layihələri üzrəində müvafiq işlərin görülməsi | |

| | |
|---|---|
| **Təsir (*impact*) indikatorları** | 1. Korrupsiya ilə mübarizə sahəsində beynəlxalq reytinqlərdə Azərbaycan Respublikasının göstəricilərinin yüksəldilməsi |
| | 2. Orqanlara (qurumlara) ictimai etimadın yüksəlməsi |
| | 3. Orqanların (qurumların) işçiləri tərəfindən törədilən korrupsiya cinayətlərinin qarşısının alınması |

**1.4. Xüsusi müsadirə institutunun effektivliyinin təmin edilməsi məqsədilə ölkə ərazisində, yaxud başqa dövlətin yurisdiksiyasında olan cinayət yolu ilə əldə olunmuş əmlakın və ya müsadirə edilməli olan digər aktivlərin qaytarılması (aşkar edilməsi, üzərinə həbs qoyulması, aktivlərin dondurulması və sair) ilə bağlı səmərəli fəaliyyətin həyata keçirilməsi üçün müvafiq təkliflər hazırlanması**

| | | |
|---|---|---|
| **İcraçılar və icra müddəti** | Nazirlər Kabineti, Baş Prokurorluq, Ali Məhkəmə, 2022–2026 | |
| **İlkin nəticə** | Xüsusi müsadirə institutunun effektivliyinin təmin edilməsi məqsədilə aktivlərin qaytarılması mexanizmlərinin tətbiqi ilə bağlı beynəlxalq təcrübənin öyrənilməsi | |
| **Aralıq nəticə** | Məlumatların ümumiləşdirilməsi və təhlili, təkliflərin qiymətləndirilməsi | |
| **Yekun nəticə** | Aktivlərin qaytarılması ilə bağlı mexanizmi tənzimləyən müvafiq təklifin təqdim edilməsi | |
| **Qatqı (*input*) indikatorları** | 1. Maddi resurslar (maddi-texniki vəsait, o cümlədən kompüter, printer, proqram təminatı, kargüzarlıq vasitələri, digər mallar və əmtəə) üzrə çəkilən xərc | |
| | 2. İnsan resursu üzrə çəkilən xərc | |
| **Hasilat (*output*) indikatorları və ballar** | 1. Xüsusi müsadirə institutu ilə bağlı beynəlxalq təcrübənin öyrənilməsinə dair hesabat | 30 |
| | 2. Xüsusi müsadirə institutu ilə bağlı Azərbaycan Respublikası qanunvericiliyində olan beynəlxalq tələblərə zidd halların və çatışmazlıqların təhlilinə dair hesabat və təkliflər | 30 |
| | 3. Ölkə xaricindəki aktivlərin müəyyən edilməsinə imkan verən beynəlxalq şəbəkələrə və təşkilatlara üzvlüklə bağlı işlər və təkliflər | 20 |
| | 4. Ölkə xaricindəki aktivlərin bərpasına dair praktik işçilər üçün təlimatın yaxud rəhbər müddəaların hazırlanması | 20 |
| **Nəticə (*outcome*) indikatorları** | Aktivlərin qaytarılması ilə bağlı mexanizmi tənzimləyən normativ hüquqi aktın qəbulu və ixtisaslaşmış qurumun yaradılması | |
| **Təsir (*impact*) indikatorları** | 1. Korrupsiya ilə mübarizə sahəsində beynəlxalq reytinqlərdə Azərbaycan Respublikasının göstəricilərinin yüksəldilməsi | |
| | 2. Orqanlara (qurumlara) ictimai etimadın yüksəlməsi | |

**1.5. Cinayət yolu ilə əldə edilmiş və xüsusi müsadirə obyekti olan əmlakın qiymətləndirilməsi və idarə olunması sahəsində qanunvericiliyin təkmilləşdirilməsi**

| | | |
|---|---|---|
| **İcraçılar və icra müddəti** | Nazirlər Kabineti, Baş Prokurorluq, 2022–2024 | |
| **İlkin nəticə** | Cinayət yolu ilə əldə edilmiş və xüsusi müsadirə obyekti olan əmlakın qiymətləndirilməsi və idarə olunması sahəsində beynəlxalq təcrübənin öyrənilməsi | |
| **Aralıq nəticə** | Təkliflərin toplanılması, təhlili və qanunvericilik aktının layihəsinin hazırlanması | |
| **Yekun nəticə** | Xüsusi müsadirə obyekti olan əmlakın qiymətləndirilməsi və idarə olunması sahəsində səmərəliliyin artırılması ilə bağlı müvafiq qanunvericilik aktının layihəsinin təqdim edilməsi | |
| **Qatqı (*input*) indikatorları** | 1. Maddi resurslar (maddi-texniki vəsait, o cümlədən kompüter, printer, proqram təminatı, kargüzarlıq vasitələri, digər mallar və əmtəə) üzrə çəkilən xərc | |
| | 2. İnsan resursu üzrə çəkilən xərc | |
| **Hasilat (*output*) indikatorları və ballar** | 1. Əmlakın ittiham, müdafiə tərəfi və məhkəmə ilə bağlılığı olmayan orqan (qurum) tərəfindən idarə edilməsi (satışı, icarəyə, idarə etməyə verilməsi və yaxşılaşdırılması) | 20 |
| | 2. Əmlakın idarə edilməsi (satışı, icarəyə, idarə etməyə verilməsi və yaxşılaşdırılması) fəaliyyətinin hərrac yolu ilə həyata keçirilməsi | 10 |
| | 3. Əmlakın idarə edilməsi (satışı, icarəyə, idarə etməyə verilməsi və yaxşılaşdırılması) barədə qərarın məhkəmə tərəfindən verilməsi və ya məhkəməyə müraciət etmək imkanının olması | 10 |
| | 4. Əmlakın qiymətləndirilməsinin müstəqil ekspert və ya mütəxəssis tərəfindən həyata keçirilməsi | 10 |
| | 5. Əmlakın idarə edilməsi üzrə keçirilən hərrac komissiyasında aidiyyəti qurumların təmsil olunması | 5 |
| | 6. Əmlakın idarə edilməsi üzrə hərracın onlayn formada keçirilmə imkanı | 5 |
| | 7. Əmlakın idarə edilməsi üzrə hərraca dair elanın ağlabatan müddətdə yerləşdirilməsi və vətəndaşların hərracda iştirak etməsinə şərait yaradılması | 10 |
| | 8. Hərracda iştirak edən şəxslərin alış-satış qiyməti barədə əvvəlcədən sövdələşməsi və ya digər üsulla hərracın şəffaf keçirilməsinə maneə törətməsi imkanını istisna edən tədbirlərin görülməsi | 10 |
| | 9. Hərracın müsabiqə formasında keçirilməsi zamanı ən yaxşı təklifə dair rəy vermək üçün təşkil olunan müsabiqə komissiyası üzvlərinin müstəqil ekspertlərdən ibarət olması | 10 |
| | 10. Hərrac komissiyası üzvləri, qiymətləndirici şəxslər və müsabiqə komissiyası üzvlərinin maraqlar toqquşmasının həll edilməsinə dair qaydaların mövcudluğu | 10 |
| **Nəticə (*outcome*) indikatorları** | 1. Müvafiq normativ hüquqi aktın qəbulundan sonrakı illər üzrə idarə edilməsi (satışı, icarəyə, idarə etməyə verilməsi və yaxşılaşdırılması) barədə qəbul edilmiş qərarların (əmlakların) sayı və hər bir idarəetmə üzrə əmlakların məbləğləri | |

| | |
|---|---|
| | 2. Müvafiq normativ hüquqi aktın qəbulundan sonrakı illər üzrə əmlakın idarə edilməsi hesabına büdcəyə daxil olan gəlirin məbləği |
| | 3. Müvafiq normativ hüquqi aktın qəbulundan sonrakı illər üzrə əmlakın idarə edilməsi hesabına zərərçəkmiş şəxslərə ödənilən ziyanın məbləği və ziyanı tamamilə və ya qismən ödənilmiş zərərçəkmiş şəxslərin sayı |
| **Təsir (*impact*) indikatorları** | 1. Korrupsiya ilə mübarizə sahəsində beynəlxalq reytinqlərdə Azərbaycan Respublikasının göstəricilərinin yüksəldilməsi |
| | 2. Vurulmuş maddi ziyanın ödənilməsi hesabına dövlət büdcəsinə daxilolmaların artımı |
| | 3. Orqanlara (qurumlara) ictimai etimadın yüksəlməsi |
| | 4. Zərərçəkmiş şəxslərə vurulan ziyanın ödənilməsi ilə sosial ədalətin bərpası |

**1.6. Dövlət orqanlarının (qurumlarının) vəzifəli şəxslərin fəaliyyətində maraqlar toqquşmasının qarşısının alınması ilə bağlı müvafiq qanunvericilik aktlarının hazırlanması**

| | | |
|---|---|---|
| **İcraçılar və icra müddəti** | Nazirlər Kabineti, Korrupsiya ilə mübarizə üzrə Komissiya, Baş Prokurorluq, 2022–2024 | |
| **İlkin nəticə** | Normativ hüquqi aktın layihəsinin hazırlanması ilə bağlı ilkin təkliflərin toplanması | |
| **Aralıq nəticə** | Beynəlxalq təcrübə nəzərə alınmaqla hüquqi aktın layihəsinin hazırlanması | |
| **Yekun nəticə** | Vəzifəli şəxslərin fəaliyyətində maraqlar toqquşmasının qarşısının alınması ilə bağlı müvafiq qanunvericilik aktının qəbul edilməsi | |
| **Qatqı (*input*) indikatorları** | 1. Maddi resurslar (maddi-texniki vəsait, o cümlədən kompüter, printer, proqram təminatı, kargüzarlıq vasitələri, digər mallar və əmtəə) üzrə çəkilən xərc | |
| | 2. İnsan resursu üzrə çəkilən xərc | |
| **Hasilat (*output*) indikatorları və ballar** | 1. Maraqlar toqquşmasının anlayışının müəyyən edilməsi və hər üç növ halın (real, potensial və təəssürat) maraqlar toqquşmasına aid edilməsi | 10 |
| | 2. Maraqlar toqquşması məsələləri üzrə konfidensial məsləhət verən səlahiyyətli subyektin müəyyən edilməsi və səlahiyyətlərinin dəqiq müəyyənləşdirilməsi | 10 |
| | 3. Maraqlar toqquşması yarandığı halda onun həlli prosesinin (icraatın başlanması və yekunlaşması) müəyyən edilməsi, bu məsələnin həllini həyata keçirən səlahiyyətli struktur bölmənin müəyyənləşdirilməsi, onun funksiyalarının müəyyən edilməsi, ölkə və orqanlar (qurumlar) üzrə vahid statistikanın aparılması funksiyanın struktur bölməyə həvalə edilməsi | 20 |
| | 4. Maraqlar toqquşmasının həlli yollarının dəqiq müəyyən edilməsi | 20 |
| | 5. Vəzifəli şəxsin əmlakının etibar edilmiş şəxs tərəfindən idarə edilməsi institutunun mövcudluğu | 20 |
| | 6. Vəzifəyə təyin edilməzdən əvvəl və vəzifə müddətində ildə bir dəfədən az olmayaraq şəxsi maraqların bəyan edilməsi | 20 |

| | |
|---|---|
| **Nəticə (*outcome*) indikatorları** | 1. Müvafiq normativ hüquqi akt qəbul edildikdən sonrakı illər üzrə maraqlar toqquşması haqqında bəyannamələrin sayı |
| | 2. Müvafiq normativ hüquqi akt qəbul edildikdən sonrakı illər üzrə maraqlar toqquşmasının həll edildiyi işlərin sayı |
| | 3. Müvafiq normativ hüquqi akt qəbul edildikdən sonrakı illər üzrə maraqlar toqquşması üzrə verilən konfidensial məsləhətin sayı |
| | 4. Müvafiq normativ hüquqi akt qəbul edildikdən sonrakı illər üzrə maraqlar toqquşması haqqında qanunvericiliyin müddəalarının pozulmasına görə məsuliyyətə cəlb edilən şəxslərin və faktların sayı |
| | 5. Müvafiq normativ hüquqi akt qəbul edildikdən sonrakı illər üzrə maraqlar toqquşması məsələsi üzrə təlimlərə cəlb edilən işçilərin sayı və hər bir təlimin orta müddəti (saatla) |
| | 6. Müvafiq normativ hüquqi akt qəbul edildikdən sonrakı illər üzrə qeydə alınmış hədiyyələrin sayı və məbləği |
| **Təsir (*impact*) indikatorları** | 1. Korrupsiya ilə mübarizə sahəsində beynəlxalq reytinqlərdə Azərbaycan Respublikasının göstəricilərinin yüksəldilməsi |
| | 2. Orqanlara (qurumlara) ictimai etimadın yüksəlməsi |
| | 3. Orqanların (qurumların) işçiləri tərəfindən törədilən korrupsiya cinayətlərinin qarşısının alınması |

### 1.7. Dövlət xidmətlərinin təşkili prinsiplərini və qaydasını tənzimləyən, dövlət orqanları (qurumları) tərəfindən xidmətlərin göstərilməsinə dair tələbləri müəyyən edən vahid qanunun qəbul edilməsi

| | | |
|---|---|---|
| **İcraçılar və icra müddəti** | Nazirlər Kabineti, Dövlət xidmətləri göstərən aidiyyəti dövlət orqanları (qurumları), 2022–2023 | |
| **İlkin nəticə** | Dövlət xidmətlərinin təşkili qaydalarına dair qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təkliflərin toplanılması | |
| **Aralıq nəticə** | Qeyd edilən normativ hüquqi akt layihələrinin hazırlanması | |
| **Yekun nəticə** | Dövlət xidmətlərinin təşkili qaydalarını tənzimləyən normativ hüquqi aktların qəbul edilməsi | |
| **Qatqı (*input*) indikatorları** | 1. Maddi resurslar (maddi-texniki vəsait, o cümlədən kompüter, printer, proqram təminatı, kargüzarlıq vasitələri, digər mallar və əmtəə) üzrə çəkilən xərc | |
| | 2. İnsan resursu üzrə çəkilən xərc | |
| **Hasilat (*output*) indikatorları və ballar** | 1. Dövlət xidmətlərinin elektron reyestrinin mövcudluğu | 20 |
| | 2. Dövlət xidmətləri üçün keyfiyyətə nəzarət mexanizminin o cümlədən, dövlət xidmətlərinin monitorinq və qiymətləndirilməsinin nəzərdə tutulması | 20 |
| | 3. Monitorinq zamanı fəaliyyətində normativ tələblərə uyğunsuzluq və qeyri-peşəkarlıq müəyyən edilən dövlət xidmətləri üzrə müvafiq tədbir görülməsi üçün məsələ qaldırılması imkanının nəzərdə tutulması | 20 |
| | 4. Xidmət istifadəçilərinin məmnunluq səviyyəsinin yoxlanma mexanizminin təsbit edilməsi | 20 |

| | | |
|---|---|---|
| | 5. Fiziki və elektron formada göstərilən xidmətlər üzrə minimum tələblərin (xidmət yerinin şərait (məsələn, bir nəfərə düşən ərazi, temperatur, havalandırma, isitmə-soyutma sistemi və s.) göstəriciləri, monitor lövhənin, elektron və ya ona alternativ növbəlilik sisteminin mövcudluğu, çağrı xidməti zamanı maksimum gözləmə müddətinin tətbiq edilməsi, növbə barədə məlumat verilməsi) müəyyən edilməsi | 20 |
| **Nəticə (*outcome*) indikatorları** | 1. Müvafiq normativ hüquqi aktın qəbulundan sonrakı illər üzrə reyestrə alınmış dövlət xidmətlərinin sayı | |
| | 2. Müvafiq normativ hüquqi aktın qəbulundan sonrakı illər üzrə fəaliyyətində normativ tələblərə uyğunsuzluq və qeyri-peşəkarlıq müəyyən edilən dövlət xidmətlərinin sayı, həmin hallar üzrə verilmiş tövsiyələrin sayı və tövsiyələrin icra olunma göstəricisi (faizi) | |
| | 3. Müvafiq normativ hüquqi aktın qəbulundan sonrakı illər üzrə hər bir xidmət üzrə istifadəçilərin məmnunluq səviyyəsi | |
| | 4. Müvafiq normativ hüquqi aktın qəbulundan sonrakı illər aparılan dövlət xidmətlərinin monitorinq və qiymətləndirilməsinin sayı | |
| **Təsir (*impact*) indikatorları** | 1. Korrupsiya ilə mübarizə sahəsində beynəlxalq reytinqlərdə Azərbaycan Respublikasının göstəricilərinin yüksəldilməsi | |
| | 2. Orqanlara (qurumlara) ictimai etimadın yüksəlməsi | |

### 1.8. Tikilməkdə olan və ya tikilmiş və istismara qəbul edilməmiş çoxmənzilli binalarda mənzillərə dair verilmiş hüquqmüəyyənedici sənədlərin vahid informasiya bazasının yaradılması, bu istiqamətdə daşınmaz əmlakın təminat qeydinin aparılması mexanizmlərinin təkmilləşdirilməsi

| | | |
|---|---|---|
| **İcraçılar və icra müddəti** | Nazirlər Kabineti, İqtisadiyyat Nazirliyi, 2022–2024 | |
| **İlkin nəticə** | Vahid informasiya bazasının yaradılması, daşınmaz əmlakın təminat qeydinin aparılması mexanizmlərinin təkmilləşdirilməsi üçün təkliflərin toplanılması | |
| **Aralıq nəticə** | Vahid informasiya bazasının yaradılması | |
| **Yekun nəticə** | Daşınmaz əmlakın təminat qeydinin aparılması mexanizmlərinin təkmilləşdirilməsi üçün təkliflərin təqdim edilməsi | |
| **Qatqı (*input*) indikatorları** | 1. Maddi resurslar (maddi-texniki vəsait, o cümlədən kompüter, printer, proqram təminatı, kargüzarlıq vasitələri, digər mallar və əmtəə) üzrə çəkilən xərc | |
| | 2. İnsan resursu üzrə çəkilən xərc | |
| **Hasilat (*output*) indikatorları və ballar** | 1. Vahid məlumat bazasına vətəndaşların identifikasiya nömrəsindən istifadə etməklə çıxış imkanının mövcudluğu | 10 |
| | 2. Vahid məlumat bazasının onlayn əsasda fəaliyyət göstərməsi | 10 |
| | 3. Mülkiyyət hüququna dair ətraflı məlumatların mövcudluğu | 40 |

| | | |
|---|---|---|
| | 4. Məlumatların həqiqiliyini müəyyən etmək və dəyişiklikləri izləmək imkanını | 20 |
| | 5. Vahid məlumat bazasında vətəndaşın konkret ünvan üzrə yerləşən mənzil barədə axtarış etdikdə fərdi məlumat toxunulmazlığı hüququ nəzərə alınmaqla həmin mənzilin mülkiyyət hüququnun başqa şəxsin adına qeydə alınması, hüququn qeydə alınma tarixçəsi kimi məlumatların mövcudluğu | 20 |
| **Nəticə (*outcome*) indikatorları** | 1. Vahid informasiya bazası yaradıldıqdan sonrakı illər üzrə bazadan qeydiyyatdan keçirilmiş mənzillərin sayının satılmış mənzillərin sayına nisbəti | |
| | 2. Yeni tikilən binalarda bir mənzili bir neçə satmaqla vəzifəli şəxslər tərəfindən törədilən korrupsiya cinayəti faktlarının (epizodlarının) və cinayət məsuliyyətinə cəlb edilən şəxslərin sayı | |
| **Təsir (*impact*) indikatorları** | 1. Özəl sektor subyektləri tərəfindən törədilən korrupsiya cinayətlərinin qarşısının alınması | |
| | 2. Vətəndaş məmnunluğunun artması | |

**1.9. Dövlət investisiya layihələri üzrə korrupsiya risklərinin qiymətləndirilməsi və bu qiymətləndirmənin nəticələrinə uyğun olaraq qabaqlayıcı institusional mexanizmlərə dair təkliflər verilməsi**

| | | |
|---|---|---|
| **İcraçılar və icra müddəti** | Nazirlər Kabineti, İqtisadiyyat Nazirliyi, 2022–2024 | |
| **İlkin nəticə** | Dövlət investisiya layihələri üzrə korrupsiya risklərinin qiymətləndirilməsi | |
| **Aralıq nəticə** | Qiymətləndirmə nəticələrinə uyğun olaraq qabaqlayıcı institusional mexanizmlərə dair təkliflər hazırlanması | |
| | |
|---|---|
| | 4. Orqanların (qurumların) işçilərinin korrupsiya cinayəti törətmələrinin qarşısının alınması |
| | 5. Orqanların (qurumların) işçilərinin korrupsiyaya şərait yaradan hüquqpozma törətmələrinin qarşısının alınması |

**2.10. Özəl sektorda şəffaflığın artırılması məqsədilə həmin sahədə şəffaflıq üzrə beynəlxalq standartların tətbiqinin genişləndirilməsi üçün tədbirlər görülməsi**

| | | |
|---|---|---|
| **İcraçılar və icra müddəti** | Nazirlər Kabineti, İqtisadiyyat Nazirliyi, digər aidiyyəti dövlət orqanları (qurumları), 2022–2025 | |
| **İlkin nəticə** | Özəl sektorda müvafiq beynəlxalq standartların tətbiqinin genişləndirilməsi üçün tədbirlər görülməsi | |
| **Aralıq nəticə** | Bu sahədə mövcud problemlərin öyrənilərək təhlil edilməsi və toplanılmış təkliflərin ümumiləşdirilməsi | |
| **Yekun nəticə** | Özəl sektorda şəffaflığın artırılması | |
| **Qatqı (*input*) indikatorları** | 1. Maddi resurslar (maddi-texniki vəsait, o cümlədən kompüter, printer, proqram təminatı, kargüzarlıq vasitələri, digər mallar və əmtəə) üzrə çəkilən xərc | |
| | 2. İnsan resursu üzrə çəkilən xərc. | |
| **Hasilat (*output*) indikatorları və ballar** | 1. Özəl sektorda etik davranış qaydasının tətbiq edilməsi, maraqlar toqquşmasının qarşısının alınması, hədiyyə qəbulu, sponsorluq, özəl-dövlət sektoruna keçmə üçün soyutma müddəti kimi məsələlərin tənzimlənməsi | 30 |
| | 2. Özəl sektor subyeklərində daxili nəzarət mexanizminə dair standartların mövcudluğu | 20 |
| | 3. Özəl sektorda korrupsiya risk idarəçiliyinin tənzimlənməsi | 10 |
| | 4. Özəl sektorda uyğunluq standartlarına nəzarətin tənzimlənməsi | 10 |
| | 5. Hüquqi şəxslər cinayət məsuliyyətinə cəlb edilərkən komplayns standartlarının mövcudluğunun məsuliyyəti yüngülləşdirən hal kimi nəzərə alınması kimi halların qanunvericilikdə təsbit etməklə hüquqi şəxsləri antikorrupsiya tələblərini qəbul etməyə təşviq edən tədbirlər | 20 |
| | 6. Özəl sektorda mövcud problemlərin təhlilinə və aradan qaldırılması üzrə təkliflər barədə arayış (hesabat) | 10 |
| **Nəticə (*outcome*) indikatorları** | 1. Müvafiq tədbirlərin tətbiqindən əvvəlki 3 il və sonrakı illər üzrə etik davranış qaydaları qəbul etmiş özəl sektor subyektlərinin say dinamikası | |
| | 2. Müvafiq tədbirlərin tətbiqindən əvvəlki 3 il və sonrakı illər üzrə maraqlar toqquşması və hədiyyə qəbulu qaydaları qəbul etmiş özəl sektor subyektlərinin say dinamikası | |
| | 3. Müvafiq tədbirlərin tətbiqindən əvvəlki 3 il və sonrakı illər üzrə korrupsiya risk qiymətləndirilməsi qaydaları qəbul və tətbiq etmiş özəl sektor subyektlərinin say dinamikası | |
| | 4. Müvafiq tədbirlərin tətbiqindən əvvəlki 3 il və sonrakı illər üzrə üzrə özəl sektor subyektlərinə dair korrupsiya cinayəti faktlarının (epizodlarının) və cinayət məsuliyyətinə cəlb edilən fiziki və hüquqi şəxslərin sayı | |

| | |
|---|---|
| | 6. Müvafiq tədbirlərin tətbiqindən əvvəlki 3 il və sonrakı illər üzrə özəl sektor subyektlərinin ödədikləri vergilərin dinamikası |
| | 7. Müvafiq tədbirlərin tətbiqindən əvvəlki 3 il və sonrakı illər üzrə özəl sektor subyektlərinin vergi, mühasibatlıq və maliyyə pozuntuları üzrə üzrə inzibati xəta faktlarının (epizodlarının) və inzibati məsuliyyətə cəlb edilən şəxslərin sayı |
| **Təsir (*impact*) indikatorları** | 1. Şəffaflığın artırılması |
| | 2. Özəl sektor subyektləri tərəfindən törədilən korrupsiya cinayətlərinin qarşısının alınması |
| | 3. Özəl sektor subyektləri tərəfindən törədilən korrupsiyaya şərait yaradan hüquqpozmaların qarşısının alınması |
| | 4. Adambaşına düşən ümumi daxili məhsulun məbləğinin artması |
| | 5. Özəl sektordan vergi daxilolmalarının məbləğinin artması |

## 2.11. İSO 37001 "Antikorrupsiya idarəetmə sistemləri" beynəlxalq standartının tətbiqinin nəzərdən keçirilməsi və bununla bağlı təkliflər verilməsi

| | | |
|---|---|---|
| **İcraçılar və icra müddəti** | Nazirlər Kabineti, Baş Prokurorluq, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, aidiyyəti dövlət orqanları (qurumları), 2022–2026 | |
| **İlkin nəticə** | Qabaqcıl beynəlxalq təcrübənin, müvafiq standartın tətbiqi imkanlarının öyrənilməsi | |
| **Aralıq nəticə** | Bu sahədə təkliflərin toplanılması və qiymətləndirilməsi | |
| **Yekun nəticə** | (İSO 37001) "Antikorrupsiya idarəetmə sistemləri"nin qurulmasının təşviqi | |
| **Qatqı (*input*) indikatorları** | 1. Maddi resurslar (maddi-texniki vəsait, o cümlədən kompüter, printer, proqram təminatı, kargüzarlıq vasitələri, digər mallar və əmtəə) üzrə çəkilən xərc | |
| | 2. İnsan resursu üzrə çəkilən xərc | |
| **Hasilat (*output*) indikatorları və ballar** | 1. ISO 37001 məzmunun Azərbaycan Respublikasının qanunvericiliyi ilə əlaqəli şəkildə təhlil edilməsi və bu təhlilə dair arayışın (hesabatın) tərtibi | 30 |
| | 2. ISO 37001 tətbiqi ilə bağlı xarici ölkələrin qanunvericilik və təcrübəsinin təhlil edilməsi, müsbət təcrübələrin ümumiləşdirilməsi və bu təhlil və ümumiləşdirməyə dair arayışın (hesabatın) tərtibi | 30 |
| | 3. Aparılmış təhlillər və ümumiləşdirmələr əsasında Azərbaycan Respublikasının qanunvericiliyində ISO 37001 tələblərinə uyğun olmayan müddəaların müəyyən edilməsi və qanunvericiliyə təklif edilən dəyişikliklər | 40 |
| **Nəticə (*outcome*) indikatorları** | 1. Müvafiq tədbir tətbiq edilməzdən əvvəlki 3 il və sonrakı illər üzrə antikorrupsiya strategiyaları qəbul edilən orqanların (qurumların) say dinamikası | |
| | 2. Müvafiq tədbir tətbiq edilməzdən əvvəlki 3 il və sonrakı illər üzrə korrupsiya ilə mübarizə üzrə qanunvericilik və standartların tətbiqinə nəzarət edən səlahiyyətli vəzifəli şəxsin orqanlarda (qurumlarda) müəyyən edilməsi və onların say dinamikası | |

| | |
|---|---|
| | 3. Müvafiq tədbir tətbiq edilməzdən əvvəlki 3 il və sonrakı illər üzrə risk qiymətləndirilməsi aparılan orqanların (qurumların) say dinamikası |
| | 4. Müvafiq tədbir tətbiq edilməzdən əvvəlki 3 il və sonrakı illər üzrə rüşvət almağa qarşı mübarizə üzrə tədbirlərə dair uyğunluq qiymətləndirilməsi (due diligence) sayı dinamikası |
| | 5. Müvafiq tədbir tətbiq edilməzdən əvvəlki 3 il və sonrakı illər üzrə orqanlarda (qurumlarda) ISO 37001 üzrə təlimlərə cəlb edilən şəxslərin sayı |
| | 6. Müvafiq tədbir tətbiq edilməzdən əvvəlki 3 il və sonrakı illər üzrə korrupsiya cinayəti faktlarının (epizodlarının) və cinayət məsuliyyətinə cəlb edilən şəxslərin sayı |
| **Təsir (*impact*) indikatorları** | 1. Şəffaflığın artırılması |
| | 2. Korrupsiya cinayətlərinin törədilməsinin qarşısının alınması |
| | 3. Korrupsiyaya şərait yaradan hüquqpozmaların sayının azalması |

### 2.12. Dövlət satınalmalarında şəffaflığın artırılması məqsədilə bu sahədə nəzarətin gücləndirilməsi və yol verilən hüquqpozmalara qarşı mübarizə tədbirlərinin artırılması

| | | |
|---|---|---|
| **İcraçılar və icra müddəti** | Baş Prokurorluq, İqtisadiyyat Nazirliyi, Aidiyyəti dövlət qurumlar, 2022–2024 | |
| **İlkin nəticə** | Satınalma prosedurlarında nəzarət tədbirlərinin gücləndirilməsi | |
| **Aralıq nəticə** | Hüquqpozmalara yol vermiş təşkilatlarla bağlı məsuliyyət tədbirlərinin görülməsi ilə bağlı məsələlərin qaldırılması | |
| **Yekun nəticə** | Dövlət satınalma prosedurlarında şəffaflığın təmin olunması və sağlam rəqabət mühitinin təmin edilməsi | |
| **Qatqı (*input*) indikatorları** | 1. Maddi resurslar (maddi-texniki vəsait, o cümlədən kompüter, printer, proqram təminatı, kargüzarlıq vasitələri, digər mallar və əmtəə) üzrə çəkilən xərc | |
| | 2. İnsan resursu üzrə çəkilən xərc | |
| **Hasilat (*output*) indikatorları və ballar** | 1. Dövlət satınalmasına idarədaxili nəzarətin mövcudluğu və sənədlərin həmin nəzarət subyektinə təqdim olunması | 10 |
| | 2. İdarədənkənar nəzarət orqanının mövcudluğu | 10 |
| | 3. Satınalmalar üzrə etik davranış və maraqlar toqquşmasına dair tələblərin mövcudluğu, maraqlar toqquşmasının bəyan edilməsi, idarə olunması və qaydaların pozulmasına görə məsuliyyət (Etik davranış qaydalarının sırf dövlət satınalmasına yönəlməsi, dövlət qulluqçularının etik davranış qaydalarında və digər normativ hüquqi aktlarda nəzərdə tutulmuş ümumi müddəaların daha da konkretləşməsi bu indikator üzrə nəzərə alınır) | 30 |
| | 4. Dövlət satınalmasından idarədənkənar şikayət hüququnun və buna çevik baxılması imkanının nəzərdə tutulması | 5 |

| | | |
|---|---|---|
| | 5. Dövlət satınalması prosesində vətəndaş cəmiyyəti institutlarının iştirakının təmin edilməsi, ictimai dinləmələrin keçirilməsi, cəmiyyətin maraqlarının nəzərə alınması | 10 |
| | 6. Dövlət satınalmalar üzrə illik ictimai hesabatların dərc edilməsi | 10 |
| | 7. Dövlət satınalmasında azı üç təchizatçının iştirak etməsi | 5 |
| | 8. Yeni təsis edilmiş, dövriyyəsi məhdud olan, mütəmadi qalib elan edilən və digər şübhəli satınalma prosesində iştirak edən subyektlərin aşkar edilərək satınalmadan kənarlaşdırılması məqsədilə nəzarət qurumu tərəfindən satınalma komissiyası üzvlərinə və satınalmanın digər iştirakçılarına, o cümlədən təchizatçılara dair "due diligence" aparılması | 20 |
| **Nəticə (*outcome*) indikatorları** | 1. Müvafiq normativ hüquqi akt qəbul edildikdən və ya tədbirlər tətbiq olunduqdan sonrakı illər üzrə dövlət satınalamaları üzrə maraqlar toqquşması haqqında qanunvericiliyin pozulması faktlarının dinamikası | |
| | 2. Müvafiq normativ hüquqi akt qəbul edildikdən və ya tədbirlər tətbiq olunduqdan sonrakı illər üzrə dövlət satınalamaları üzrə maraqlar toqquşması haqqında bəyannamələrin dinamikası və maraqlar toqquşmasının həll edilməsinə dair qərarların dinamikası | |
| | 3. Müvafiq normativ hüquqi akt qəbul edildikdən və ya tədbirlər tətbiq olunduqdan əvvəlki 3 il və sonrakı illər üzrə dövlət satınalamaları haqqında qanunvericiliyin pozulmasına görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 445-1-ci maddəsi üzrə inzibati xəta faktlarının (epizodlarının) və inzibati məsuliyyətə cəlb edilən şəxslərin sayı | |
| | 4. Müvafiq normativ hüquqi akt qəbul edildikdən və ya tədbirlər tətbiq olunduqdan əvvəlki 3 il və sonrakı illər üzrə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308-2-ci maddəsi üzrə cinayət faktlarının (epizodlarının) və cinayət məsuliyyətinə cəlb edilən şəxslərin sayı | |
| | 5. Müvafiq normativ hüquqi akt qəbul edildikdən və ya tədbirlər tətbiq olunduqdan sonrakı illər üzrə dövlət satınalamaları üzrə “due diligence” standartına uyğun hesab edilməyən vəzifəli şəxslər və təchizatçıların say dinamikası | |
| | 6. Müvafiq normativ hüquqi akt qəbul edildikdən və ya tədbirlər tətbiq olunduqdan əvvəlki 3 il və sonrakı illər üzrə ləğv edilən satınalma müqavilələrinin sayı və ləğv əsasları | |
| | 7. Müvafiq normativ hüquqi akt qəbul edildikdən və ya tədbirlər tətbiq olunduqdan əvvəlki 3 il və sonrakı illər üzrə dövlət satınalamaları qaydaları pozmaqla dövlət vəsaitinin mənimsənməsi və ya israf edilməsi hallarına görə cinayət və inzibati məsuliyyətə cəlb edilən şəxslərin, faktların, orqanların sayı və talanan əmlakın məbləği | |
| | 8. Müvafiq normativ hüquqi akt qəbul edildikdən və ya tədbirlər tətbiq olunduqdan əvvəlki 3 il ərzində və sonrakı illər üzrə satınalma komissiyalarının qərar və ya protokollarının təsdiq edilməmə sayı və əsasları | |
| | 9. Müvafiq normativ hüquqi akt qəbul edildikdən sonrakı illər üzrə dövlət satınalmasının effektivliyi və səmərəliliyinin təchizatçıların, maraqlı subyektlərin, vətəndaş cəmiyyəti institutlarının arasında sorğu keçirilməklə kəmiyyət qiymətləndirilməsi nəticələri | |
| | 1. Şəffaflığın təmin olunması | |

| | |
|---|---|
| **Təsir (*impact*) indikatorları** | 2. Orqanların (qurumların) işçiləri tərəfindən törədilən korrupsiya cinayətlərinin qarşısının alınması |
| | 3. Korrupsiyaya şərait yaradan hüquqpozmaların törədilməsinin qarşısının alınması |
| | 4. Dövlət büdcəsi vəsaitinin səmərəli idarə edilməsi |
| | 5. Dövlət satınalmasına ictimai etimadın möhkəmləndirilməsi |
| | 6. Dövlət satınalamasında rəqabətin təmin olunması |

**2.13. Dövlət satınalmalarında iştirak edən şirkətlərə benefisiar mülkiyyətçinin açıqlanması öhdəliyinin müəyyən edilməsi ilə bağlı təkliflərin təqdim edilməsi**

| | | |
|---|---|---|
| **İcraçılar və icra müddəti** | Nazirlər Kabineti, Baş Prokurorluq, İqtisadiyyat Nazirliyi, Ədliyyə Nazirliyi, Maliyyə Monitorinqi Xidməti, 2022–2026 | |
| **İlkin nəticə** | Dövlət satınalmalarında iştirak edən hüquqi şəxslərin benefisiar mülkiyyətçiləri üzrə strateji təhlillərin aparılması | |
| **Aralıq nəticə** | Hüquqi şəxslərin benefisiar mülkiyyətçilərinin müəyyən edilməsinə dair təkliflər hazırlanması | |
| **Yekun nəticə** | Dövlət satınalmalarında şəffaflığın təmin edilməsi | |
| **Qatqı (*input*) indikatorları** | 1. Maddi resurslar (maddi-texniki vəsait, o cümlədən kompüter, printer, proqram təminatı, kargüzarlıq vasitələri, digər mallar və əmtəə) üzrə çəkilən xərc | |
| | 2. İnsan resursu üzrə çəkilən xərc | |
| **Hasilat (*output*) indikatorları və ballar** | 1. Benefisiar mülkiyyətçini açıqlamaq tələbi ilə bağlı Azərbaycan Respublikasının və dünya təcrübəsinin təhlil olunmasına dair arayışın (hesabatın) hazırlanması | 30 |
| | 2. Benefisiar mülkiyyətçini açıqlamaq tələbi ilə bağlı qanunvericilik və təcrübədə mövcud olan problemlərin sadalanmasına dair arayışın (hesabatın) hazırlanması | 30 |
| | 3. Benefisiar mülkiyyətçini açıqlamaq tələbi ilə bağlı konkret təklifləri nəzərdə tutan layihənin hazırlanması | 40 |
| **Nəticə (*outcome*) indikatorları** | 1. Müvafiq normativ hüquqi akt qəbul edildikdən və ya tədbirlər tətbiq olunduqdan əvvəlki 3 il və sonrakı illər üzrə benefisiar mülkiyyətçisi açıqlanmaqla həyata keçirilən satınalmaların say dinamikası | |
| | 2. Müvafiq normativ hüquqi akt qəbul edildikdən və ya tədbirlər tətbiq olunduqdan əvvəlki 3 il və sonrakı illər üzrə benefisiar mülkiyyətçi ilə bağlı tələblərə zidd olaraq bağlanan satınalma müqavilələrinin və onların ləğv edilmə sayının və əsaslarının dinamikası | |
| | 3. Müvafiq normativ hüquqi akt qəbul edildikdən və ya tədbirlər tətbiq olunduqdan əvvəlki 3 il və sonrakı illər üzrə benefisiar mülkiyyətçi tələbinə zidd olduğuna görə təchizatçıların satınalmalardan kənarlaşdırılması hallarının və təchizatçıların say dinamikası | |
| | 4. Müvafiq normativ hüquqi akt qəbul edildikdən və ya tədbirlər tətbiq olunduqdan əvvəlki 3 il və sonrakı illər üzrə dövlət satınalamaları haqqında qanunvericiliyin pozulmasına görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 445-1-ci maddəsi üzrə inzibati xəta faktlarının (epizodlarının) və inzibati məsuliyyətə cəlb edilən şəxslərin sayı | |

| | |
|---|---|
| | 5. Müvafiq normativ hüquqi akt qəbul edildikdən və ya tədbirlər tətbiq olunduqdan əvvəlki 3 il və sonrakı illər üzrə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308-2-ci maddəsi ilə cinayət faktlarının (epizodlarının) və cinayət məsuliyyətinə cəlb edilən şəxslərin sayı |
| | 6. Müvafiq normativ hüquqi akt qəbul edildikdən və ya tədbirlər tətbiq olunduqdan sonrakı illər üzrə dövlət satınalamaları üzrə “due diligence” standartına uyğun hesab edilməyən vəzifəli şəxslər və təchizatçıların say dinamikası |
| | 7. Müvafiq normativ hüquqi akt qəbul edildikdən və ya tədbirlər tətbiq olunduqdan əvvəlki 3 il və sonrakı illər üzrə dövlət satınalamaları qaydaları pozmaqla dövlət vəsaitinə münasibətdə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 179-cu maddəsi üzrə korrupsiya cinayəti faktlarının (epizodlarının) və cinayət məsuliyyətinə cəlb edilən şəxslərin sayı |
| | 8. Müvafiq normativ hüquqi akt qəbul edildikdən və ya tədbirlər tətbiq olunduqdan əvvəlki 3 il və sonrakı illər üzrə dövlət satınalamaları cəlb olunan müxtəlif təchizatçıların say dinamikası |
| **Təsir (*impact*) indikatorları** | 1. Şəffaflığın təmin olunması |
| | 2. Orqanların (qurumların) işçiləri tərəfindən törədilən korrupsiya cinayətlərinin qarşısının alınması |
| | 3. Korrupsiyaya şərait yaradan hüquqpozmaların törədilməsinin qarşısının alınması |
| | 4. Dövlət büdcəsi vəsaitinin səmərəli idarə edilməsi |
| | 5. Dövlət satınalmasına ictimai etimadın möhkəmləndirilməsi |
| | 6. Dövlət satınalamasında rəqabətin təmin olunması |

**2.14. Dövlət satınalmaları üzrə maliyyə əməliyyatlarının monitorinqi mexanizminin yaradılması**

| | | |
|---|---|---|
| **İcraçılar və icra müddəti** | Nazirlər Kabineti, Baş Prokurorluq, İqtisadiyyat Nazirliyi, Ədliyyə Nazirliyi, Maliyyə Monitorinqi Xidməti, 2022–2024 | |
| **İlkin nəticə** | Dövlət satınalmalarından əldə edilən vəsaitlərlə bağlı əməliyyatların müntəzəm monitorinqi sisteminin qurulması | |
| **Aralıq nəticə** | Dövlət satınalmaları ilə bağlı əməliyyatların müntəzəm monitorinqi vasitəsilə pul vəsaitlərindən qeyri-qanuni məqsədlər üçün istifadə imkanlarının məhdudlaşdırılması | |
| **Yekun nəticə** | Dövlət satınalmaları sahəsində mövcud risklərə münasibətdə proaktiv mübarizə sisteminin formalaşdırılması | |
| **Qatqı (*input*) indikatorları** | 1. Maddi resurslar (maddi-texniki vəsait, o cümlədən kompüter, printer, proqram təminatı, kargüzarlıq vasitələri, digər mallar və əmtəə) üzrə çəkilən xərc | |
| | 2. İnsan resursu üzrə çəkilən xərc | |
| **Hasilat (*output*) indikatorları və ballar** | 1. Təchizatçıların dövlət satınalmasından əldə etdiyi vəsaitin təyinatını izləməyə imkan verən onlayn sistemin mövcudluğu | 40 |
| | 2. Onlayn sistemə bilə-bilə yanlış məlumatın daxil edilməsi yaxud şəffaflığı pozan digər əməllərə görə məsuliyyət müəyyən edilməsi | 20 |

| | | |
|---|---|---|
| | 3. Onlayn sistemin "e-tender.gov.az" sisteminə, dövlət maliyyə nəzarətini və kənar dövlət maliyyə nəzarətini həyata keçirən orqanların (qurumların) müvafiq elektron sistemlərinə inteqrasiya edilməsi | 15 |
| | 4. Maliyyə monitorinqi orqanının və prokurorluğun real vaxt rejimində həmin sistemə çıxışının olması | 15 |
| | 5. Onlayn sistemdə əks olunan məlumatların konfidensiallıq tələbləri nəzərə alınmaqla dövlət satınalmasını həyata keçirən orqan (qurum) tərəfindən mütəmadi cəmiyyətə açıqlanması | 10 |
| **Nəticə (*outcome*) indikatorları** | 1. İllər üzrə monitorinq sistemi qurulduqdan sonra təchizatçıların dövlət satınalmasından əldə etdiyi vəsaitin nağdlaşdırılmaqla orqana (quruma) qaytarılması riski yüksək olan əməliyyatların sayı | |
| | 2. İllər üzrə monitorinq sistemi qurulduqdan sonra təchizatçıların dövlət satınalmasından əldə etdiyi vəsaitin nağdlaşdırılmaqla orqana (quruma) qaytarılması üzrə aşkar olunan faktların sayı | |
| | 3. İllər üzrə monitorinq sistemi qurulduqdan sonra köçürülən vəsait üzrə müvafiq keyfiyyət və kəmiyyətdən aşağı işlərin görülməsi faktlarının sayı | |
| | 4. İllər üzrə təchizatçılar arasında sorğular keçirməklə monitorinq mexanizminin səmərəlilik və keyfiyyətinin kəmiyyət baxımından qiymətləndirilməsi nəticələri | |
| **Təsir (*impact*) indikatorları** | 1. Şəffaflığın təmin olunması | |
| | 2. Orqanların (qurumların) işçiləri tərəfindən törədilən korrupsiya cinayətlərinin qarşısının alınması | |
| | 3. Korrupsiyaya şərait yaradan hüquqpozmaların törədilməsinin qarşısının alınması | |
| | 4. Dövlət büdcəsi vəsaitinin səmərəli idarə edilməsi | |
| | 5. Dövlət satınalmasına ictimai etimadın möhkəmləndirilməsi | |
| | 6. Dövlət satınalamasında rəqabətin təmin olunması | |

### 2.15. Satınalma prosedurlarından olan kotirovkalarla alınan mal və xidmətlərin bazar qiymətlərinə uyğun müəyyən edilməsinə nəzarətin həyata keçirilməsi prosedurlarının təkmilləşdirilməsi, satınalma komissiyasının fəaliyyət müstəqilliyinin gücləndirilməsi

| | |
|---|---|
| **İcraçılar və icra müddəti** | Nazirlər Kabineti, Aidiyyəti dövlət orqanları (qurumları), 2022–2026 |
| **İlkin nəticə** | Satınalma prosedurlarından olan kotirovkalarla alınan mal və xidmətlərin bazar qiymətlərinə uyğun müəyyən edilməsinə nəzarət tədbirlərinin gücləndirilməsi |
| **Aralıq nəticə** | Satınalma komissiyasının fəaliyyət müstəqilliyinin yüksəldilməsi |
| **Yekun nəticə** | Satınalma prosedurlarında şəffaflığın artırılması |
| **Qatqı (*input*) indikatorları** | 1. Maddi resurslar (maddi-texniki vəsait, o cümlədən kompüter, printer, proqram təminatı, kargüzarlıq vasitələri, digər mallar və əmtəə) üzrə çəkilən xərc |
| | 2. İnsan resursu üzrə çəkilən xərc |

| | | |
|---|---|---|
| **Hasilat (*output*) indikatorları və ballar** | 1. Kotirovka sorğusu üzrə mal və ya xidmətin alınmasına dair dəqiq qaydanın mövcud olması və həmin qaydada təsbit edilən üsullardan hansının seçilməsinə dair dəqiq indikatorların müəyyən edilməsi | 20 |
| | 2. Kotirovka sorğusundan əvvəl mövcud bazar qiymətlərinin analiz edilməsinə, əlverişli qiymət aralığının müəyyən edilməsinə və həmin qiymətlər cədvəlinin (kataloqunun) gələcək yoxlamalar üçün satınalma sənədlərinə əlavə edilməsinə dair tələbin mövcudluğu | 10 |
| | 3. Kotirovka sorğuları üzrə qiymətləri müqayisə etmək üçün vahid bazanın mövcudluğu və yeni katirovka sorğuları zamanı həmin bazadan istifadə etmək, mütəmadi olaraq bazadakı qiymətləri yeniləmək | 20 |
| | 4. Kotirovka sorğusu zamanı hər bir məhsulun dəqiq əlamətlərinin müəyyən edilməsi (istehsal yeri, istehsalçı firma, məhsulun modeli, texniki göstəriciləri və s.) və qiymətlərin həmin dəqiq əlamətlər əsasında müəyyən olunması | 5 |
| | 5. Kotirovka sorğusunun minimum 3 təchizatçıya edilməsi və hər bir təchizatçının təklif etdiyi qiymətlərin materiallara əlavə olunması | 5 |
| | 6. Məhsul spesifik texnika və ya müasir texnologiya ilə bağlı olduqda bazar qiymətləri və ən keyfiyyətli məhsula (xidmətə) dair idarədənkənar mütəxəssis rəyinin mövcudluğu | 5 |
| | 7. Dövlət satınalmaları üzrə komissiyaya üzv olan şəxslərin mütəmadi təlimlərə cəlb edilərək bilik və bacarıqlarının artırılması | 5 |
| | 8. Satınalma komissiyalarının fəaliyyətinə idarədaxili müdaxilələrin baş verməsini istisna edən minimum tələblərin mövcudluğu | 10 |
| | 9. Satınalma komissiyaları üzvlərinin təyin edilməsinə dair qaydanın mövcudluğu və həmin qaydada üzvün təyin edilməsi zamanı nəzərə alınan indikatorların (təcrübə, bilik, şəffaflıq və s) mövcud olması, üzvün dəqiq müəyyən edilmiş müddətə təyin olunması, orqanın (qurumun) müxtəlif istiqamət sahələri üzrə şəxslərdən ibarət olması | 10 |
| | 10. Satınalma komissiyaları üzvlərinin maraqlar toqquşmasını bəyan etmək öhdəliyinin olması, bəyan edilən və ya edilməyən bütün maraqların yoxlanılma mexanizminin mövcudluğu | 10 |
| **Nəticə (*outcome*) indikatorları** | 1. Müvafiq normativ hüquqi akt qəbul edildikdən və tədbirlər görüldükdən əvvəlki 3 il və sonrakı illər üzrə satınalma komissiyalarının fəaliyyətinə idarədaxili müdaxilələrə dair şikayətlərin sayı | |
| | 2. Müvafiq normativ hüquqi akt qəbul edildikdən və tədbirlər görüldükdən əvvəlki 3 il və sonrakı illər üzrə müəyyən edilmiş qiymət aralığından əhəmiyyətli dərəcədə yüksək fərqlə kotirovka sorğusunun həyata keçirilməklə dövlət vəsaitinin xərclənməsi hallarının say dinamikası | |
| | 3. Müvafiq normativ hüquqi akt qəbul edildikdən və tədbirlər görüldükdən əvvəlki 3 il və sonrakı illər üzrə satınalma komissiyalarına üzvün müvafiq tələblər pozulmaqla təyin edilməsi hallarının və həmin şəxslərin komissiyadan kənarlaşdırılması faktlarının sayı və əsası | |

| | |
|---|---|
| | 4. Müvafiq normativ hüquqi akt qəbul edildikdən və tədbirlər görüldükdən əvvəlki 3 il və sonrakı illər üzrə satınalma komissiyalarının üzvləri tərəfindən maraqlar toqquşması haqqında qanunvericiliyin tələblərinin pozulması hallarının say dinamikası |
| | 5. Müvafiq normativ hüquqi akt qəbul edildikdən və tədbirlər görüldükdən əvvəlki 3 il və sonrakı illər üzrə kotirovka sorğusu metodu üzrə satınalma komissiyaları tərəfindən qəbul edilmiş qərarların ləğv edilməsi sayı və əsası |
| | 6. Müvafiq normativ hüquqi akt qəbul edildikdən və tədbirlər görüldükdən əvvəlki 3 il və sonrakı illər üzrə nəzarət orqanı tərəfindən satınalma komissiyalarının iclaslarında müşahidəçi qismində iştirak sayları |
| | 7. Müvafiq normativ hüquqi akt qəbul edildikdən və tədbirlər görüldükdən əvvəlki 3 il və sonrakı illər üzrə nəzarət orqanının satınalma komissiyalarının iclaslarında müşahidəçi qismində iştirak edərkən aşkar etdiyi pozuntuların sayı və əsası |
| | 8. Müvafiq normativ hüquqi akt qəbul edildikdən və tədbirlər görüldükdən əvvəlki 3 il və sonrakı illər üzrə aşkar edilmiş pozuntulara görə müqavilələrin ləğv olunma sayı və əsası |
| **Təsir (*impact*) indikatorları** | 1. Şəffaflığın təmin olunması |
| | 2. Orqanların (qurumların) işçiləri tərəfindən törədilən korrupsiya cinayətlərinin qarşısının alınması |
| | 3. Korrupsiyaya şərait yaradan hüquqpozmaların törədilməsinin qarşısının alınması |
| | 4. Dövlət büdcəsi vəsaitinin səmərəli idarə edilməsi |
| | 5. Dövlət satınalmasına ictimai etimadın möhkəmləndirilməsi |
| | 6. Dövlət satınalamasında rəqabətin təmin olunması |

## 2.16. Bələdiyyə gəlir və xərclərinin vahid portalının yaradılması və bütün bələdiyyə xərclərinin portal vasitəsilə həyata keçirilməsi, portalın açıqlığının təmin olunması

| | | |
|---|---|---|
| **İcraçılar və icra müddəti** | Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Bələdiyyələrin milli assosiasiyaları, 2022–2024 | |
| **İlkin nəticə** | Vahid portalın qanunvericilik bazasının hazırlanması | |
| **Aralıq nəticə** | Bələdiyyə gəlir və xərclərinin vahid portalının yaradılmasına və fəaliyyətinin tənzimlənməsinə dair müvafiq aktın qəbul edilməsi | |
| **Yekun nəticə** | Bələdiyyə gəlir və xərclərinin vahid portalının hazırlanması, portalın açıqlığının təmin olunması | |
| **Qatqı (*input*) indikatorları** | 1. Maddi resurslar (maddi-texniki vəsait, o cümlədən kompüter, printer, proqram təminatı, kargüzarlıq vasitələri, digər mallar və əmtəə) üzrə çəkilən xərc | |
| | 2. İnsan resursu üzrə çəkilən xərc | |
| **Hasilat (*output*)** | 1. Portalda bələdiyyə gəlirləri və onların mənbələrinin, xərclərinin təsbit olunması | 30 |
| | 2. Portal vasitəsilə bələdiyyə xərclərinin həyata keçirilməsi | 30 |

| | | |
|---|---|---|
| **indikatorları və ballar** | 3. Portal və ya digər resurslar vasitəsilə hər bir bələdiyyənin illik maliyyə fəaliyyəti barədə cəmiyyətə məlumat verilməsi | 20 |
| | 4. Portalda bələdiyyə ərazisində yaşayan şəxslərin bələdiyyə qərarların qəbulu zamanı ictimai rəyin nəzərə alınması mexanizminin təsbiti | 20 |
| **Nəticə (*outcome*) indikatorları** | 1. Portal fəaliyyətə başladıqdan sonrakı illər üzrə portala qoşulan bələdiyyələrin say dinamikası | |
| | 2. Portal fəaliyyətə başladıqdan əvvəlki il ərzində və sonrakı illər üzrə bələdiyyənin xərcləri (manatla) və portal vasitəsilə istifadə olunan xərcləri (manatla) | |
| | 3. Portal fəaliyyətə başladıqdan sonrakı illər üzrə bələdiyyələr tərəfindən ictimai əhəmiyyətli məsələlər üzrə (məsələn, müəyyən ərazinin abadlaşdırılması, yol çəkilməsi və s.) qərar qəbul edilməzdən əvvəl Portal vasitəsilə əhalinin rəyinin öyrənilməsi hallarının say dinamikası | |
| | 4. Portal fəaliyyətə başladıqdan əvvəlki 3 il ərzində və sonrakı illər üzrə bələdiyyələr tərəfindən ictimai əhəmiyyətli məsələlər üzrə (məsələn, müəyyən ərazinin abadlaşdırılması, yol çəkilməsi və s.) qəbul edilən qərarların say dinamikası | |
| | 5. Portal fəaliyyətə başladıqdan əvvəlki 3 il ərzində və sonrakı illər üzrə bələdiyyələrin vəzifəli şəxsləri tərəfindən törədilən korrupsiya cinayəti faktlarının (epizodlarının) və cinayət məsuliyyətinə cəlb edilən şəxslərin sayı | |
| **Təsir (*impact*) indikatorları** | 1. Şəffaflığın təmin edilməsi | |
| | 2. Bələdiyyələrə ictimai etimadın yüksəlməsi | |
| | 3. Bələdiyyələrdə səmərəli idarəçilik mexanizminin möhkəmləndirilməsi və yerli əhali qarşısında hesabatlılığının artırılması | |
| | 4. Bələdiyyənin vəzifəli şəxsləri tərəfindən törədilən korrupsiya cinayətlərinin qarşısının alınması | |
| | 5. Bələdiyyənin vəzifəli şəxsləri tərəfindən törədilən korrupsiya şərait yaradan hüquqpozmaların qarşısının alınması | |

### 2.17. Dövlət orqanları (qurumları) tərəfindən korrupsiya risklərinin qiymətləndirilməsi və qarşısının alınması ilə bağlı illik hesabatların hazırlanması və Korrupsiya ilə mübarizə üzrə Komissiyaya təqdim edilməsi

| | |
|---|---|
| **İcraçılar və icra müddəti** | Mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılmış publik hüquqi şəxslər, 2022–2026 |
| **İlkin nəticə** | Dövlət orqanları (qurumları) tərəfindən korrupsiya risklərinin müəyyən edilməsi |
| **Aralıq nəticə** | Korrupsiya risklərinin qarşısının alınması üçün müvafiq tədbirlər görülməsi |
| **Yekun nəticə** | Dövlət orqanları (qurumları) tərəfindən korrupsiya risklərinin qiymətləndirilməsi və onların qarşısının alınması ilə bağlı hesabatların təqdim edilməsi |
| **Qatqı (*input*) indikatorları** | 1. Maddi resurslar (maddi-texniki vəsait, o cümlədən kompüter, printer, proqram təminatı, kargüzarlıq vasitələri, digər mallar və əmtəə) üzrə çəkilən xərc |

| | | |
|---|---|---|
| | 2. İnsan resursu üzrə çəkilən xərc | |
| **Hasilat (*output*) indikatorları və ballar** | 1. Korrupsiya risklərinin ISO 31000 və ISO 31010 standartların uyğun metodologiya ilə müəyyən edilməsi, təhlili və qiymətləndirilməsi | 40 |
| | 2. Korrupsiya riskini idarə edən struktur bölmə və işçi qrupun mövcudluğu | 10 |
| | 3. Korrupsiya riski müəyyən edilərkən cəmiyyət nümayəndələrinin iştirakı | 10 |
| | 4. Korrupsiya risklərinin siyahısının tam təsbit olunması | 40 |
| **Nəticə (*outcome*) indikatorları** | 1. Müvafiq normativ hüquqi akt qəbul edildikdən və tədbirlər həyata keçirildikdən sonrakı illər üzrə yüksək və orta korrupsiya risklərinin say dinamikası | |
| | 2. Müvafiq normativ hüquqi akt qəbul edildikdən və tədbirlər həyata keçirildikdən sonrakı illər üzrə orqan (qurum) tərəfindən müvafiq tədbirlər görülmüş risklərin sayının idarə edilməsi zəruri hesab olunan risklərin sayına nisbəti | |
| | 3. Orqanın (qurumun) fəaliyyətində həm risklərin idarə edilməsi fəaliyyətindən əvvəlki 3 il ərzində, həm də bu fəaliyyətdən sonrakı illərdə korrupsiya hüquqpozmaları ilə bağlı şikayətlərin sayı | |
| | 4. Orqanın (qurumun) fəaliyyətində həm risklərin idarə edilməsi fəaliyyətindən əvvəlki 3 il ərzində, həm də bu fəaliyyətdən sonrakı illərdə korrupsiya cinayətlərinin sayı | |
| | 5. Orqanın (qurumun) fəaliyyətində həm risklərin idarə edilməsi fəaliyyətindən əvvəlki 3 il ərzində, həm də bu fəaliyyətdən sonrakı illərdə Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 410-cu və 445-1-ci maddələri üzrə inzibati xəta faktlarının (epizodlarının) və inzibati məsuliyyətə cəlb edilən şəxslərin sayı | |
| **Təsir (*impact*) indikatorları** | 1. Korrupsiya ilə mübarizə sahəsində beynəlxalq reytinqlərdə Azərbaycan Respublikasının göstəricilərinin yüksəldilməsi | |
| | 2. Adambaşına düşən ümumi daxili məhsulun məbləğinin artması | |
| | 3. Vurulmuş maddi ziyanın ödənilməsi hesabına dövlət büdcəsinə daxilolmaların artımı | |
| | 4. Effektiv maliyyə nəzarəti mexanimzlərinin tətbiqi nəticəsində dövlət vəsaitinin qanunauyğun, məqsədyönlü, səmərəli istifadə və idarə edilməsi | |
| | 5. Orqanlara (qurumlara) ictimai etimadın yüksəlməsi | |
| | 6. Orqanların (qurumların) işçiləri tərəfindən törədilən korrupsiya cinayətlərinin qarşısının alınması | |

## PRİORİTET 3. MALİYYƏ ŞƏFFAFLIĞININ TƏMİN EDİLMƏSİ VƏ CİNAYƏT YOLU İLƏ ƏLDƏ EDİLMİŞ ƏMLAKIN LEQALLAŞDIRILMASINA VƏ TERRORÇULUĞUN MALİYYƏLƏŞDİRİLMƏSİNƏ QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ TƏDBİRLƏR

### 3.1. Nağdsız hesablaşmalar bazarının üstünlüyünün təmin edilməsi məqsədilə tədbirlər görülməsi

| | | |
|---|---|---|
| **İcraçılar və icra müddəti** | Nazirlər Kabineti, Mərkəzi Bank, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, 2022–2024 | |
| **İlkin nəticə** | Nağdsız hesablaşmalar bazarının üstünlüyünün təmin edilməsi ilə bağlı təkliflərin toplanılması | |
| **Aralıq nəticə** | Müvafiq təkliflər əsasında birgə iş planının qəbul edilməsi | |
| **Yekun nəticə** | Nağdsız hesablaşmalar bazarının üstünlüyünün təmin edilməsi məqsədilə iş planında nəzərdə tutulmuş normativ və praktiki tədbirlər görülməsi | |
| **Qatqı (*input*) indikatorları** | 1. Maddi resurslar (maddi-texniki vəsait, o cümlədən kompüter, printer, proqram təminatı, kargüzarlıq vasitələri, digər mallar və əmtəə) üzrə çəkilən xərc | |
| | 2. İnsan resursu üzrə çəkilən xərc | |
| **Hasilat (*output*) indikatorları və ballar** | 1. POS terminalların sayının Nazirlər Kabinetinin 2012-ci il 4 oktyabr tarixli 219 nömrəli Qərarına əsasən POS terminal quraşdırılmalı olan obyektlərin sayına nisbəti | 30 |
| | 2. Ödəyicinin nağdsız ödəniş barədə müraciəti olduqda belə müraciətin ödənişi qəbul edən subyekt üçün məcburiliyinə dair normanın mövcudluğu | 10 |
| | 3. Dövlət büdcəsi vəsaitlərinin nağdsız qaydada istifadə edilməsinə dair tələbin mövcudluğu | 10 |
| | 4. Vergi ödəyicilərini və POS terminal istifadə olunan obyektləri nağdsız hesablaşmalara təşviq edən mexanizmlərin (məsələn, istehlakçılar tərəfindən ödənilmiş ƏDV-nin o cümlədən, bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV-nin müəyyən hissəsinin geri qaytarılması, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış mallara və nağdsız qaydada ödənilmiş tibbi xidmətlərə görə ƏDV-nin müəyyən hissəsinin qaytarılması, tibb müəssisələrinə və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslərə nağdsız qaydada POS-terminal vasitəsilə aparılan ödəmələrin onların vergi tutulan ümumi dövriyyəsindən çıxılması, nağdsız qaydada ödənildiyi halda vergi ödəyicisinin hesabat ilinin mənfəətinin 15 faizindən çox olmayan hissəsinin elm, təhsil, səhiyyə, idman və mədəniyyət sahəsində fəaliyyət göstərən müəssisə, idarə və təşkilatlara köçürülməsi zamanı mənfəət vergisindən azad olunması, ƏDV tutulan əməliyyatlar üçün malların (işlərin, xidmətlərin) alışı zamanı nağdsız qaydada ödənilmiş ƏDV məbləğlərinin əvəzləşdirilməsi) mövcudluğu | 20 |
| | 5. Nağdsız ödənişlərin təhlükəsizliyinin təmin olunması üçün maliyyə bazarlarında fəaliyyətinə nəzarət edilən subyektlər üçün kibertəhlükəsizlik standartlarının mövcudluğu və həmin obyektlərin bu standartlara | 20 |

| | | |
|---|---|---|
| | uyğunluğunun aidiyyəti orqan (qurum) tərəfindən yoxlanılması (belə standartlarda multifaktor identifikasiya (göndərilən kod vasitəsilə təsdiq, tətbiqə daxil olmaqla təsdiq, biometrik göstəricilərlə təsdiq, bankdan əlaqə saxlanılmaqla təsdiq və s. bu kimi azı 2-3 növ identifikasiya metodu ilə təsdiq) tələbi nəzərdə tutulmalı, istifadəçilərə ilin müəyyən dövründə kibertəhlükəsizliklə bağlı faydalı məlumat və təlimatlar göndərilməli, aparılan bütün əməliyyatlara süni intellekt tətbiq edilməklə şübhəli əməliyyatlara dair ödəyiciyə xəbərdalıq edilməli və zəruri identifikasiya tədbirlərindən sonra ödənişə icazə verilməli, kibercinayətkarlıq halları ilə bağlı vahid müraciət forması müəyyən edilməli, belə müraciətlərə çevik baxılmanın qaydaları müəyyən edilməli, kibertəhlükəsizlik standartlarının kənar audit və aidiyyəti orqan (qurum) tərəfindən yoxlanılması təmin olunmalıdır) | |
| | 6. Nağdsız hesablaşmalar haqqında qanunvericiliyin pozulmasına görə tətbiq edilən məcburetmə tədbirləri | 10 |
| **Nəticə (*outcome*) indikatorları** | 1. Müvafiq tədbirlər tətbiq edildikdən əvvəlki 3 il və sonrakı illər üzrə aktiv POS terminalların və digər nağdsız ödəmə məntəqələrinin sayı | |
| | 2. Müvafiq tədbirlər tətbiq edildikdən əvvəlki 3 il və sonrakı illər üzrə nağdsız ödəmələrin məbləğinin bütün ödəmələrin məbləğinə nisbəti | |
| | 3. Müvafiq tədbirlər tətbiq edildikdən əvvəlki 3 il və sonrakı illər üzrə milli səviyyədə yaradılmış rəqəmsal ödəniş platformalarının sayı | |
| | 4. Müvafiq tədbirlər tətbiq edildikdən əvvəlki 3 il və sonrakı illər üzrə milli səviyyədə rəqəmsal ödəniş platformaları vasitəsilə edilmiş ödənişlərin məbləği | |
| | 5. Müvafiq tədbirlər tətbiq edildikdən əvvəlki 3 il və sonrakı illər üzrə nağdsız hesablaşmalar üzrə fırıldaqçılıq hadisələrinin və zərərçəkmiş şəxslərin sayı | |
| | 6. Müvafiq tədbirlər tətbiq edildiyi dövrdən əvvəlki 3 il və sonrakı illər üzrə elektron ticarət vasitəsilə həyata keçirilən ödənişlərin məbləği | |
| | 7. Müvafiq tədbirlər tətbiq edildiyi dövrdən əvvəlki 3 il və sonrakı illər üzrə nağdsız hesablaşmalarda fırıldaqçılıq əməliyyatlarının məbləğinin ümumi nağdsız ödənişlərin məbləğinə nisbəti | |
| **Təsir (*impact*) indikatorları** | 1. Nağdsız hesablaşmaların təşviq edilməsi | |
| | 2. Şəffaflığın təmini | |
| | 3. Vergi ödənişlərinin həcminin artırılması hesabına dövlət büdcəsi gəlirlərinin artırılması | |

### 3.2. “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən mühasibat uçotu subyektləri tərəfindən Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edilməli olan maliyyə hesabatlarının elektron formada verilməsini təmin edən “e-mühasibat” elektron portalının yaradılması

| | | |
|---|---|---|
| **İcraçılar və icra müddəti** | Nazirlər Kabineti, Maliyyə Nazirliyi və digər aidiyyəti dövlət orqanları (qurumları), 2022–2025 | |
| **İlkin nəticə** | Elektron portalın yaradılması ilə bağlı ilkin təkliflərin müəyyən edilməsi | |
| **Aralıq nəticə** | Maliyyə hesabatlarının elektron formada verilməsini təmin edən elektron portal ilə əlaqədar müvafiq sənədlərin və portalın layihəsinin hazırlanması | |
| **Yekun nəticə** | “e-mühasibat” elektron portalının yaradılmasının başa çatdırılması | |
| **Qatqı (*input*) indikatorları** | 1. Maddi resurslar (maddi-texniki vəsait, o cümlədən kompüter, printer, proqram təminatı, kargüzarlıq vasitələri, digər mallar və əmtəə) üzrə çəkilən xərc | |
| | 2. İnsan resursu üzrə çəkilən xərc | |
| **Hasilat (*output*) indikatorları və ballar** | 1. “e-mühasibat" informasiya sistemi vasitəsilə maliyyə hesabatlarını təqdim edən mühasibat uçotu subyektlərinin sayının Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə maliyyə hesabatlarını təqdim etmək öhdəliyi olan mühasibat uçotu subyektlərinin sayına nisbəti | 50 |
| | 2. "e-mühasibat" portalında "İnformasiya əldə etmək haqqında" Qanunun 29-cu maddəsində nəzərdə tutulan hər kəs üçün açıq olan informasiyaya çıxışın təmin olunması | 20 |
| | 3. Maliyyə Nazirliyinə təqdim edilən maliyyə hesabatlarının "e-mühasibat" informasiya sistemi vasitəsilə təhlil imkanının mövcudluğu | 30 |
| **Nəticə (*outcome*) indikatorları** | 1. Portal tətbiq edildikdən sonra illər üzrə Portala inteqrasiya edilmiş büdcə təşkilatlarının sayı | |
| | 2. Portal tətbiq edildikdən sonra illər üzrə Portalın təhlil funksiyası hesabına aşkar edilmiş pozuntuların sayı və görülmüş tədbirlər | |
| | 2. Portal tətbiq edildikdən əvvəlki 3 il və sonrakı illər üzrə maliyyə hesabatlarının tərtibi və təqdim edilməsinə sərf olunan orta müddət (saatla) | |
| | 3. Portal tətbiq edildikdən əvvəlki 3 il və sonrakı illər üzrə Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 410-cu maddəsi ilə inzibati məsuliyyətə cəlb edilən şəxslərin, faktların sayı və maliyyə qaydaları pozulmaqla istifadə olunan vəsaitlərin məbləği | |
| **Təsir (*impact*) indikatorları** | 1. Korrupsiya ilə mübarizə sahəsində beynəlxalq reytinqlərdə Azərbaycan Respublikasının göstəricilərinin yüksəldilməsi | |
| | 2.Vurulmuş maddi ziyanın ödənilməsi hesabına dövlət büdcəsinə daxilolmaların artımı | |
| | 3. Effektiv maliyyə nəzarəti mexanimzlərinin tətbiqi nəticəsində dövlət vəsaitinin qanunauyğun, məqsədyönlü, səmərəli istifadə və idarə edilməsi | |
| | 4. Orqanlara (qurumlara) ictimai etimadın yüksəlməsi | |
| | 5. Maliyyə şəffaflığı və hesabatlılığın təmin edilməsi | |

**3.3. Dövlət büdcəsindən ayrılan vəsaitlərin təyinatı üzrə səmərəli xərclənməsi ilə əlaqədar həyata keçirilən yoxlamaların, təftişlərin və digər nəzarət tədbirlərinin səmərəliliyinin, keyfiyyətinin daha da artırılması, dövlət büdcəsindən ayrılan vəsaitlərin xərclənməsində şəffaflığın yüksəldilməsi**

| | | |
|---|---|---|
| **İcraçılar və icra müddəti** | Nazirlər Kabineti, Aidiyyəti dövlət orqanları (qurumları, Hesablama Palatası, 2022–2026 | |
| **İlkin nəticə** | Dövlət büdcəsindən ayrılan vəsaitlərin təyinatı üzrə səmərəli xərclənməsi ilə əlaqədar həyata keçirilən yoxlamaların, təftişlərin və digər nəzarət tədbirlərinin səmərəliliyinin artırılması ilə bağlı iş planının təsdiq edilməsi | |
| **Aralıq nəticə** | Dövlət büdcəsindən ayrılan vəsaitlərin təyinatı üzrə səmərəli xərclənməsi ilə əlaqədar həyata keçirilən yoxlamaların, təftişlərin və digər nəzarət tədbirlərinin səmərəliliyinin artırılması | |
| **Yekun nəticə** | Dövlət büdcəsindən ayrılan vəsaitlərdən istifadə sahəsində şəffaflığın yüksəldilməsi ilə bağlı tədbirlər görülməsi | |
| **Qatqı (*input*) indikatorları** | 1. Maddi resurslar (maddi-texniki vəsait, o cümlədən kompüter, printer, proqram təminatı, kargüzarlıq vasitələri, digər mallar və əmtəə) üzrə çəkilən xərc | |
| | 2. İnsan resursu üzrə çəkilən xərc | |
| **Hasilat (*output*) indikatorları və ballar** | 1. Dövlət maliyyə nəzarəti və kənar dövlət maliyyə nəzarəti tədbirləri zamanı İXM-in 410-cu maddəsinin əlamətləri müəyyən edilərkən həmin maddə üzrə məsuliyyətə cəlb edilməzdən əvvəl təqsirkar vəzifəli şəxsin əməlində CM-in müvafiq maddələrinin tərkibinin olmasının yoxlanılması üçün hüquq mühafizə orqanlarına göndərilən materialların (faktın) sayının İXM-in 410-cu maddəsi ilə məsuliyyətə cəlb edilən şəxslərin (faktların) sayına nisbəti | 30 |
| | 2. Dövlət maliyyə nəzarəti, kənar dövlət maliyyə nəzarəti, habelə orqanın (qurumun) öz daxili nəzarət tədbirlərinə dair plan, aparılan yoxlamalar və aşkar edilən pozuntular barədə ictimaiyyətin məlumatlandırılması | 10 |
| | 3. Nəzarət tədbirlərini yerinə yetirən şəxslərin dürüstlüyü, səriştəliliyi və peşəkarlığının ISSAI 130 (Etik Kodeks) və digər aidiyyəti standartlara uyğun olaraq qiymətləndirilməsi və belə qiymətləndirmə indikatoru və qaydasının mövcudluğu | 15 |
| | 3. Nəzarət tədbirlərinin səmərəliliyinin, keyfiyyətinin artırılması məqsədi ilə aparılmış normativ hüquqi, təşkilati-struktur dəyişikliklər və digər tədbirlər | 15 |
| | 5. Peşəkarlığın artırılması üçün təlimlərə cəlb olunan nəzarət tədbirini yerinə yetirən şəxslərin sayının nəzarət tədbiri həyata keçirən şəxslərin ümumi sayına nisbəti | 10 |
| | 5. Nəzarət tədbirini yerinə yetirən şəxslər üçün ayrıca etik davranış qaydalarının mövcudluğu (həmin qayda və ya digər sənəddə maraqlar toqquşması məsələsinin həll edilməsi qaydasının təsbiti, maraqlar toqquşması haqqında bəyannamənin verilməsi, onlara baxılması qaydalarının mövcudluğu, bəyannamədə məlumatın təqdim edilməməsi və yanlış təqdim edilməsinə görə məsuliyyətin təsbiti, hədiyyələrin bəyan edilməsi və qeydiyyatının aparılması və digər aidiyyəti məsələlərin tənzimlənməsi) | 20 |

| | |
|---|---|
| | Qeyd: Hesabat dövrü ərzində dövlət maliyyə nəzarətinin və kənar dövlət maliyyə nəzarətinin obyekti olan orqanın (qurumun) öz daxili maliyyə nəzarəti tədbirlərinin nəticəsi üzrə hüquq mühafizə orqanlarına göndərilən pozuntu faktlarının sayının daxili maliyyə nəzarəti tədbirləri çərçivəsində aşkar edilmiş cinayət və ya inzibati məsuliyyətə səbəb olan pozuntu faktlarının sayına nisbəti bu tədbir üzrə əlavə ən çox 20 baldır. |
| **Nəticə (*outcome*) indikatorları** | 1. Müvafiq tədbir tətbiq edildikdən əvvəlki 3 il və sonrakı illər üzrə dövlət əmlakına münasibətdə korrupsiya cinayətləri üzrə faktların (epizodların) və cinayət məsuliyyətinə cəlb edilən şəxslərin sayı |
| | 2. Müvafiq tədbir tətbiq edildikdən əvvəlki 3 il və sonrakı illər üzrə dövlət əmlakının mənimsənilməsi üzrə dövlət büdcəsinə vurulmuş ziyanın, onun ödənilən hissəsinin məbləği və belə faktların (epizodların) sayı |
| | 3. Müvafiq tədbir tətbiq edildikdən əvvəlki 3 il və sonrakı illər üzrə orqanlarda (qurumlarda) dövlət büdcəsindən ayrılan vəsaitlərin təyinatı üzrə səmərəli xərclənməməsi yaxud dövlət əmlakının idarə edilməsi ilə bağlı korrupsiya cinayətləri və korrupsiyaya şərait yaradan hüquqpozmalarla bağlı şikayətlərin sayı |
| | 4. Müvafiq tədbir tətbiq edildikdən əvvəlki 3 il və sonrakı illər üzrə orqanlarda (qurumlarda) dövlət büdcəsindən ayrılan vəsaitlərin təyinatı üzrə səmərəli xərclənməməsi yaxud dövlət əmlakının idarə edilməsi ilə bağlı korrupsiya cinayətləri və korrupsiyaya şərait yaradan hüquqpozmalarla bağlı mediada yayılan məlumatlar |
| **Hasilat (*output*) indikatorları və ballar** | 1. 2022–2024-cü illərdə sərhəd buraxılış məntəqələrinin hər biri üzrə ən çox əcnəbi və vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasına daxil olduğu 3 saat aralığında (2024-cü ilin noyabr ayı istisna olmaqla) sərhəd buraxılış məntəqələrindəki e-köşklər və digər innovativ texnologiyalardan (biometrik oxuyucular, smart skanerlər, self-check-in modulları və s.) istifadə edən şəxslərin orta gözləmə müddəti (bu zaman hər bir sərhəd buraxılış məntəqəsindəki e-köşklərin və digər innovativ texnologiyaların sayı, Azərbaycan Respublikasına ən çox sayda daxil olmanın qeydə alındığı 3 saat ərzində gələn və həmin köşk və innovativ texnologiyadan istifadə edən əcnəbi və vətəndaşlığı olmayan şəxslərin sayı, e-köşklərin | 40 |

| | | |
|---|---|---|
| | və ya digər innovativ texnologiyaların bu əcnəbi və vətəndaşlığı olmayan şəxslərə göstərdiyi xidmət müddəti nəzərə alınır) (0-5 dəqiqəlik gözləmə müddəti bu indikator üzrə 100%-lik, 6-10 dəqiqəlik gözləmə müddəti 75%-lik, 11-15 dəqiqəlik gözləmə müddəti 50%-lik, 16-20 dəqiqə 25%-lik, 21 dəqiqədən artıq gözləmə müddəti isə 0%-lik nəticədir) | |
| | 2. Elektron köşk və innovativ xidmət modullarına texniki xidmət göstərilməsi və onların fasiləsiz işləməsinin təmin olunması | 20 |
| | 3. 2022–2024-cü illərin hər birində hər bir sərhəd buraxılış məntəqəsi üzrə il ərzində əcnəbi və ya vətəndaşlığı olmayan şəxsin ən çox daxil olduğu gündə bir elektron köşk və ya digər innovativ vasitədən istifadənin orta sayının əcnəbi və ya vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasına ən çox sayda daxil olduğu gündə ölkə üzrə bir elektron köşk və ya digər innovativ vasitədən istifadənin orta sayına nisbəti | 20 |
| | 4. Elektron köşk və səyyar xidmətlər üzrə istifadəçilər üçün təqdim edilən interfeysin (dil seçimi, əlçatanlıq, istifadənin sadəliyi) keyfiyyətinin təmin edilməsi | 10 |
| | 5. Sərhəd və səyyar xidmətlər üzrə texniki və s. imkanların təkmilləşdirilməsi məqsədilə sorğuların keçirilməsi və nəticələrinin nəzərə alınması | 10 |
| **Nəticə (*outcome*) indikatorları** | 1. Müvafiq tədbir tətbiq edildikdən əvvəlki 3 il və sonrakı illər üzrə sərhəd buraxılış məntəqələrində elektron köşk və digər texnologiyadan orta istifadə müddəti (dəqiqə ilə) | |
| | 2. Müvafiq tədbir tətbiq edildikdən əvvəlki 3 il və sonrakı illər üzrə sərhəd buraxılış məntəqələrində elektron köşk və digər texnologiyanın say dinamikası | |
| | 3. Müvafiq tədbir tətbiq edildikdən sonrakı illər üzrə sərhəd buraxılış məntəqələrində elektron köşk və digər texnologiyanın keyfiyyəti barədə əhali, o cümlədən internet istifadəçiləri arasında keçirilmiş sorğuların kəmiyyət nəticəsi | |
| | 4. Müvafiq tədbir tətbiq edildikdən əvvəlki 3 il və sonrakı illər üzrə sərhəd buraxılış məntəqələrində elektron köşk və digər texnologiyaya çatımlılıq olmayan sərhəd buraxılış məntəqələrinin sayı | |
| **Təsir (*impact*) indikatorları** | 1. Dövlət xidmətlərinin şəffaflaşdırılması | |
| | 2. Əcnəbi və vətəndaşlığı olmayan şəxslərin dövlət xidmətlərindən məmnunluğunun yüksəlməsi | |
| | 3. Elektron hökumətə keçidin sürətləndirilməsi | |
| | 4. Azərbaycan Respublikasının xarici ölkələrdə formalaşmış müsbət imicinin möhkəmləndirilməsi | |

### 4.9. Dövlət orqanlarının (qurumlarının) göstərdikləri xidmətlərin keyfiyyətinin qiymətləndirilməsi məqsədilə rəsmi internet saytları və sosial şəbəkələr vasitəsilə mütəmadi elektron məmnunluq sorğularının keçirilməsi, bu prosesə vətəndaş cəmiyyəti institutlarının və ictimai şuraların cəlb edilməsi

| | | |
|---|---|---|
| **İcraçılar və icra müddəti** | Sosial Tədqiqatlar Mərkəzi, aidiyyəti dövlət orqanları (qurumları), 2022–2026 | |
| **İlkin nəticə** | Müvafiq elektron sorğular keçirilməsi nəzərdə tutulan sahələrin, belə elektron sorğuların keçirilməsi hədəflərinin müəyyən edilməsi | |
| **Aralıq nəticə** | Müvafiq sahələr üzrə, rəsmi internet saytları və sosial şəbəkələr vasitəsilə mütəmadi elektron məmnunluq sorğularının keçirilməsi və nəticələrinin dərc edilməsi | |
| **Yekun nəticə** | Dövlət xidmətləri göstərən dövlət orqanlarının (qurumlarının) işində şəffaflığın təmin edilməsi, onların göstərdikləri xidmətlərin keyfiyyətinin qiymətləndirilməsi, korrupsiya hallarına qarşı preventiv tədbirlər görülməsi | |
| **Qatqı (*input*) indikatorları** | 1. Maddi resurslar (maddi-texniki vəsait, o cümlədən kompüter, printer, proqram təminatı, kargüzarlıq vasitələri, digər mallar və əmtəə) üzrə çəkilən xərc | |
| | 2. İnsan resursu üzrə çəkilən xərc | |
| **Hasilat (*output*) indikatorları və ballar** | 1. Sorğunun sosial tədqiqat metodunun tələblərinə cavab verməsi və sorğunun keçirilməsinə dair orqanlar (qurumlar) üçün əlçatan olan metodologiyanın mövcudluğu (sualın sadə, aydın olması, yönəldici olmaması, sorğunun həm kəmiyyət, həm də keyfiyyət qiymətləndirməsinə dair elementləri ehtiva etməsi, sorğunun ümumi nəticəsi üzrə konkret xidmətin 100 ballıq göstərici üzrə kəmiyyət qiymətləndirilməsinin aparılmasına imkan verməsi, sorğunun qısa – maksimum 10 sualdan ibarət olması, anonimlik və konfidensiallıq tələbinə uyğun olması, sorğunun respondentlər üçün əlçatan və praktik olması və müxtəlif onlayn platformalarla əldə edilməsi mümkün olması, müvafiq xidmət qiymətləndirildiyindən respondentlərin yalnız həmin xidmətdən istifadə etmiş şəxslərlə məhdudlaşdırılması və respondentlərin təsadüfi seçmə əsasında əvvəlcədən müəyyən edilməsi, eyni şəxsin bir neçə dəfə cavab göndərməsi imkanının istisna edilməsi üçün spesifik identifikasiya nömrəsindən istifadə olunması, respondentlər seçilərkən təmsilçilik xidmət istifadəçilərinin müxtəlif indikatorlar üzrə (yaş, ərazi, cins, xidmətin spesifik sahəsi) sayına proporsional şəkildə nəzərə alınması) | 30 |
| | 2. Elektron məmnunluq sorğusu keçirilmiş xidmətlərin sayının ümumi xidmətlərin sayına nisbəti (Ölkə üzrə ümumi xidmətlərin 60% üzrə elektron məmnunluq sorğusunun keçirilməsi bu indikator üzrə 100%-lik nəticədir) | 30 |
| | 3. Sorğu nəticələrinə əsasən konkret xidmət üzrə əsas problem, çatışmazlıq, boşluq və ya hər hansı neqativ elementin nədən ibarət olmasının müəyyən edilməsi | 15 |
| | 4. Sorğu nəticələrinin sistemli şəkildə təhlil edilməsi və nəticələrin rəsmi kanallar vasitəsilə ictimaiyyətə açıqlanması | 15 |
| | 5. Məmnunluq sorğularının keçirilməsində və nəticələrin təhlilində vətəndaş cəmiyyəti institutlarının və ictimai şuraların iştirakı | 10 |

| | |
|---|---|
| **Nəticə (*outcome*) indikatorları** | Hər ilin sorğu nəticələrinə əsasən fəaliyyəti mənfi qiymətləndirilən (100 ballıq şkala üzrə 51 baldan aşağı nəticə göstərmiş) xidmət üzrə sorğu nəticələrinin aidiyyəti orqan (qurum) ilə bölüşdürülməsi, vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə müvafiq xidmətin təkmilləşdirilməsi üçün təkliflərin verilməsi və müvafiq təkmilləşdirmələrin edilməsindən sonrakı dövrdə yenidən həmin xidmətin qiymətləndirilməsi Əvvəlki və sonrakı qiymətləndirmə 51-dən az olarsa bu zaman sonrakı qiymətləndirmənin əvvəlkinə nisbəti nəzərə alınır. Nisbət 0-1 aralığında olarsa 0%-lik, 1,1-2 aralığında olarsa 10%-lik, 2,1-3 aralığında olarsa 20%-lik, 3,1-4 aralığında olarsa 30%-lik, 4-dən yuxarı olarsa 40%-lik göstəricidir. Sonrakı qiymətləndirmə 51-dən artıq olduğu halda qiymətləndirmə nəticələri nəzərə alınır. Nəticə 51-60 olarsa 60%-lik, 61-70 olarsa 70%-lik, 71-80 olarsa 80%-lik, 81-90 olarsa 90%-lik, 91-100 olarsa 100%-lik göstəricidir) |
| **Təsir (*impact*) indikatorları** | 1. Dövlət xidmətlərinin şəffaflaşdırılması |
| | 2. Vətəndaş məmnunluğunun artması |
| | 3. Orqanlara (qurumlara) ictimai etimadın yüksəlməsi |

### 4.10. Çağrı mərkəzləri mövcud olmayan dövlət orqanlarında (qurumlarında) bu xidmətlərin təşkil edilməsi, mövcud çağrı mərkəzlərinin işinin təkmilləşdirilməsi və çağrı mərkəzləri tərəfindən göstərilən xidmətlərin ümumi tələblər əsasında həyata keçirilməsi ilə bağlı tədbirlər görülməsi

| | | |
|---|---|---|
| **İcraçılar və icra müddəti** | Nazirlər Kabineti, aidiyyəti dövlət orqanları (qurumları), 2022–2024 | |
| **İlkin nəticə** | Çağrı mərkəzləri mövcud olan dövlət orqanlarında (qurumlarında) çağrı mərkəzlərinin fəaliyyətində çatışmazlıqların müəyyən edilməsi, iş keyfiyyətinin artırılması və çatışmazlıqların aradan qaldırılması məqsədilə ilkin tədbirlər hazırlanması | |
| **Aralıq nəticə** | Çağrı mərkəzlərinin işinin təkmilləşdirilməsi | |
| **Yekun nəticə** | Çağrı mərkəzləri tərəfindən vətəndaşların müraciətlərinə operativ qaydada baxılmanın, müraciətləri üzrə onlara tam və hərtərəfli izah verilməsinin təmin olunması | |
| **Qatqı (*input*) indikatorları** | 1. Maddi resurslar (maddi-texniki vəsait, o cümlədən kompüter, printer, proqram təminatı, kargüzarlıq vasitələri, digər mallar və əmtəə) üzrə çəkilən xərc | |
| | 2. İnsan resursu üzrə çəkilən xərc | |
| **Hasilat (*output*) indikatorları və ballar** | 1. Yeni çağrı mərkəzi yaradılan orqanların (qurumların) sayının çağrı mərkəzi olmayan və yaradılması zəruri olan orqanların (qurumların) sayına nisbəti | 30 |
| | 2. Çağrı mərkəzlərinin fəaliyyətini tənzimləyən ümumi standartların (gözləmə müddəti, müraciətin qeydi, müxtəlif dildə xidmət, sorğunun növündən asılı olaraq ixtisaslaşma, verilmiş cavabın müraciətçi tərəfindən qiymətləndirilməsi imkanı, və gözləmə növbəsində olduğu halda müraciətçinin bununla bağlı xəbərdar edilməsi) mövcudluğu | 20 |

| | | |
|---|---|---|
| | 3. Çağrı mərkəzi işinə cəlb edilən şəxslərin bu sahə üzrə ixtisaslaşması və ixtisaslaşmış çağrı mərkəzi işçilərinin formalaşdırılması | 20 |
| | 4. Çağrı mərkəzinə müraciət edən şəxslərin orta gözləmə müddəti (0-3 dəqiqəlik gözləmə müddəti bu indikator üzrə 100%-lik, 4-7 dəqiqəlik gözləmə müddəti 75%-lik, 8-10 dəqiqəlik gözləmə müddəti 50%-lik, 11-15 dəqiqə 25%-lik, 15 dəqiqədən artıq gözləmə müddəti isə 0%-lik nəticədir) | 20 |
| | 5. Çağrı mərkəzinə müraciət etmiş şəxslərin daha sonra çağrı mərkəzinin effektivliyi və səmərəliliyi barədə elektron qaydada, telefonla yaxud digər üsullarla sorğuya tutulması və qiymətləndirilməsi | 10 |
| **Nəticə (*outcome*) indikatorları** | Hər ilin sorğu nəticələrinə əsasən fəaliyyəti mənfi qiymətləndirilən (100 ballıq şkala üzrə 51 baldan aşağı nəticə göstərmiş) çağrı mərkəzi üzrə sorğu nəticələrinin təhlil edilib müvafiq çağrı mərkəzinin təkmilləşdirilməsi üçün təkliflərin verilməsi və müvafiq təkmilləşdirmələrin edilməsindən sonrakı dövrdə yenidən həmin çağrı mərkəzinin fəaliyyətinin qiymətləndirilməsi (Əvvəlki və sonrakı qiymətləndirmə 51-dən az olarsa bu zaman sonrakı qiymətləndirmənin əvvəlkinə nisbəti nəzərə alınır. Nisbət 0-1 aralığında olarsa 0%-lik, 1,1-2 aralığında olarsa 10%-lik, 2,1-3 aralığında olarsa 20%-lik, 3,1-4 aralığında olarsa 30%-lik, 4-dən yuxarı olarsa 40%-lik göstəricidir. Sonrakı qiymətləndirmə 51-dən artıq olduğu halda qiymətləndirmə nəticələri nəzərə alınır. Nəticə 51-60 olarsa 60%-lik, 61-70 olarsa 70%-lik, 71-80 olarsa 80%-lik, 81-90 olarsa 90%-lik, 91-100 olarsa 100%-lik göstəricidir) | |
| **Təsir (*impact*) indikatorları** | 1. Dövlət xidmətlərinin şəffaflaşdırılması | |
| | 2. Vətəndaş məmnunluğunun artması | |
| | 3. Orqanlara (qurumlara) ictimai etimadın yüksəlməsi | |

### 4.11. Haqqı ödənilən ictimai işlərə cəlbolunma ilə bağlı müraciətlərin qəbulu və baxılma prosedurlarının elektronlaşdırılması, sui-istifadə hallarını aradan qaldıracaq mexanizmlərin hazırlanması

| | | |
|---|---|---|
| **İcraçılar və icra müddəti** | Nazirlər Kabineti, Baş Prokurorluq, Yerli icra hakimiyyəti orqanları, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, 2022–2023 | |
| **İlkin nəticə** | Haqqı ödənilən ictimai işlərə cəlb olunmaqla bağlı müraciətlərin mövcud vəziyyətinin təhlili | |
| **Aralıq nəticə** | Bu sahədə sui-istifadəyə imkan yaradan halları aradan qaldıra biləcək preventiv tədbirlərin müəyyən edilməsi, müraciətlərin tam elektronlaşdırılması | |
| **Yekun nəticə** | Haqqı ödənilən ictimai işlərə cəlb olunmaqla bağlı müraciətlər üzrə vətəndaş məmnunluğunun təmin edilməsi | |
| **Qatqı (*input*) indikatorları** | 1. Maddi resurslar (maddi-texniki vəsait, o cümlədən kompüter, printer, proqram təminatı, kargüzarlıq vasitələri, digər mallar və əmtəə) üzrə çəkilən xərc | |
| | 2. İnsan resursu üzrə çəkilən xərc | |
| **Hasilat (*output*)** | 1. Haqqı ödənilən ictimai işlərə cəlbolunma ilə bağlı müraciətlərin qəbulu və baxılması üçün elektron portalın yaradılması, portal vasitəsilə sənədlərin onlayn qaydada göndərilməsi, müraciətçinin müraciət statusunu izləmə imkanının mövcudluğu və portalın fəaliyyət göstərməsi | 30 |

| | | |
|---|---|---|
| **indikatorları və ballar** | 2. Haqqı ödənilən ictimai işə qəbula dair müsabiqənin (müraciətin) hansı qaydada keçirilməsinin müsabiqə iştirakçılarına aydın olması, qəbul zamanı tələb olunan sənədlər, nəzərə alınan indikatorların, həmçinin hər bir inzibati ərazi vahidi üzrə haqqı ödənilən işin, əmək haqqının, iş funksiyası, yeri, iş şəraitinə dair məlumatın və digər zəruri informasiyanın onlayn rejimdə hər kəs üçün açıq olması | 20 |
| | 3. Haqqı ödənilən işlərə müraciət edən şəxslərin növbəlilik əsasında qeydiyyatının aparılması və onlayn qaydada hər kəs üçün açıq olması, həm də portalda həmin məlumatların yerləşdirilməsi, eyni iş üçün müraciət edən şəxslərin sayının hər kəs üçün açıq olması və şikayət vermə mexanizminin mövcudluğu | 10 |
| | 4. Müsabiqənin (iş elanının) hər kəsin ağlabatan müddətdə müsabiqə qaydaları ilə tanış olmaq və tələblərə uyğun olduqda müsabiqədə iştirak etmək imkanı nəzərdə tutulmaqla keçirilməsi (bu indikator üzrə müsabiqədə iştirak barədə elanın azı 30 gün əvvəldən saytda yerləşdirilməsi tələb olunur) | 10 |
| | 5. Portalda yerləşdirilmiş (elan edilmiş) haqqı ödənilən işlərin sayının haqqı ödənilən bütün işlərin sayına nisbəti | 10 |
| | 6. İşə cəlb edilməmə hallarının aşkar olunması məqsədilə haqqı ödənilən işlərə cəlb edilən şəxslərin fəaliyyətinin hüquq mühafizə orqanları və vətəndaş cəmiyyəti nümayəndərlərinin də üzv olduğu işçi qrup tərəfindən mütəmadi monitorinq edilməsi (keçirilmiş monitorinqlərin sayı haqqı ödənilən işlərə cəlb edilən şəxslərin sayının 50% təşkil edərsə bu indikator üzrə 100%-lik nəticədir) | 20 |
| **Nəticə (*outcome*) indikatorları** | 1. Müvafiq tədbir tətbiq edildikdən əvvəlki 3 il və sonrakı illər üzrə hər il üzrə haqqı ödənilən işlərə cəlb edilən şəxslərin sayı, işçinin işə cəlb edilməsindən asılı olmayaraq haqqı ödənilən bütün işlərin sayı | |
| | 2. Müvafiq tədbir tətbiq edildikdən əvvəlki 3 il və sonrakı illər üzrə hər il üzrə işə cəlb edilməmə hallarının aşkar edilməsi məqsədilə keçirilən monitorinqlərın sayı və aşkar edilmiş işə cəlb edilməmə faktlarının sayı | |
| | 3. Müvafiq tədbir tətbiq edildikdən sonrakı illər üzrə hər il üzrə haqqı ödənilən işə cəlb etməyə çatımlılıq, haqqı ödənilən işə müraciət etmə prosesinin şəffaflığı və ədalətliliyi, haqqı ödənilən iş prosesində işçilərin əmək hüquqlarının təmini və sui-istifadə halları ilə bağlı əhali və müraciətçilər arasında keçirilmiş sorğunun kəmiyyət nəticələri | |
| | 4. Müvafiq tədbir tətbiq edildikdən əvvəlki 3 il və sonrakı illər üzrə hər il üzrə haqqı ödənilən işlərə cəlb edilmə ilə bağlı şikayətlərin sayı | |
| | 5. Müvafiq tədbir tətbiq edildikdən əvvəlki 3 il və sonrakı illər üzrə hər il üzrə haqqı ödənilən işlərə cəlb edilmə ilə bağlı korrupsiya cinayət işlərinin, məsuliyyətə cəlb olunan şəxslərin sayı | |
| | 6. Müvafiq tədbir tətbiq edildikdən əvvəlki 3 il və sonrakı illər üzrə hər il üzrə haqqı ödənilən işlərə cəlb edilmə ilə bağlı intizam məsuliyyətinə cəlb olunan orqanın (qurumun) işçilərinin sayı | |
| **Təsir (*impact*) indikatorları** | 1. Dövlət xidmətlərinin şəffaflaşdırılması | |
| | 2. Vətəndaş məmnunluğunun artması | |
| | 3. Orqanlara (qurumlara) ictimai etimadın yüksəlməsi | |
| | 4. Yoxsulluğun azaldılması | |

| | |
|---|---|
| | 5. İşsizliyin azaldılması |
| | 6. Korrupsiya cinayətlərinin törədilməsinin qarşısının alınması |

### 4.12. Dövlət və bələdiyyə torpaq sahələrinin icarəyə və mülkiyyətə verilməsi, icarə müddətlərinin uzadılması, kateqoriyasının dəyişdirilməsi proseslərinin elektronlaşdırılması, bu sahədə sui-istifadə imkanlarının məhdudlaşdırılması ilə bağlı təkliflər hazırlanması

| | | |
|---|---|---|
| **İcraçılar və icra müddəti** | Nazirlər Kabineti, İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Ədliyyə Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, yerli icra hakimiyyəti orqanları, 2022–2023 | |
| **İlkin nəticə** | Dövlət və bələdiyyə torpaq sahələrinin icarəyə verilməsi, icarə müddətlərinin uzadılması, kateqoriyasının dəyişdirilməsi proseslərinin elektronlaşdırılması üçün müvafiq sahədə qanunvericiliyin və dövlət xidmətlərinin təşkili xüsusiyyətlərinin təhlil edilməsi | |
| **Aralıq nəticə** | Dövlət və bələdiyyə torpaq sahələrinin icarəyə verilməsi, icarə müddətlərinin uzadılması, kateqoriyasının dəyişdirilməsi proseslərinin elektronlaşdırılması, habelə bu sahədə sui-istifadə imkanlarının məhdudlaşdırılması ilə bağlı təkliflər hazırlanması | |
| **Yekun nəticə** | Qeyd edilən proseslərin elektronlaşdırılması üzrə tədbirlər görülməsi, bu sahədə şəffaflığın təmin edilməsi | |
| **Qatqı (*input*) indikatorları** | 1. Maddi resurslar (maddi-texniki vəsait, o cümlədən kompüter, printer, proqram təminatı, kargüzarlıq vasitələri, digər mallar və əmtəə) üzrə çəkilən xərc | |
| | 2. İnsan resursu üzrə çəkilən xərc | |
| **Hasilat (*output*) indikatorları və ballar** | 1. Dövlət və bələdiyyə torpaq sahələrinin icarəyə və mülkiyyətə verilməsi, icarə müddətlərinin uzadılması, kateqoriyasının dəyişdirilməsi ilə bağlı mövcud vəziyyətin təhlil edilməsi, çatışmazlıqların aşkar olunmasına dair arayış və ya hesabatın tərtib edilməsi | 50 |
| | 2. Aşkar edilmiş çatışmazlıqların həll yoluna dair arayış və ya hesabatın hazırlanması | 50 |
| **Nəticə (*outcome*) indikatorları** | 1. Dövlət və bələdiyyə torpaq sahələrinin icarəyə və mülkiyyətə verilməsi, icarə müddətlərinin uzadılması, kateqoriyasının dəyişdirilməsi prosesi üzrə elektron xidmət və ya sistemin yaradılması | |
| | 2. Müvafiq tədbir tətbiq edildikdən əvvəlki 3 il və sonrakı illər üzrə hər il bu məsələlərlə bağlı şikayətlərin sayı | |
| | 3. Müvafiq tədbir tətbiq edildikdən əvvəlki 3 il və sonrakı illər üzrə bu məsələlərlə bağlı cinayət işlərinin, məsuliyyətə cəlb olunan şəxslərin sayı | |
| **Təsir (*impact*) indikatorları** | 1. Şəffaflığın artırılması | |
| | 2. Vətəndaş məmnunluğunun artması | |
| | 3. Orqanlara (qurumlara) ictimai etimadın yüksəlməsi | |
| | 4. Korrupsiya cinayətlərinin törədilməsinin qarşısının alınması | |

**4.13. Kənd təsərrüfatı istehsal vasitələrinin satışına və lizinqinə tətbiq edilən güzəştlərin, güzəştli kreditlərin verilməsi ilə bağlı prosedurların elektronlaşdırılması işinin davam etdirilməsi və növbəlilik reyestrlərinin yaradılması**

| | | |
|---|---|---|
| **İcraçılar və icra müddəti** | Nazirlər Kabineti, Kənd Təsərrüfatı Nazirliyi, 2022–2023 | |
| **İlkin nəticə** | Bu sahədə xarici ölkələrin təcrübəsinin öyrənilməsi və təhlil edilməsi | |
| **Aralıq nəticə** | Lizinq və güzəştli kreditlərin verilməsi ilə bağlı elektron proqram təminatının hazırlanması | |
| **Yekun nəticə** | Kənd təsərrüfatı istehsal vasitələrinin satışı və lizinqi ilə bağlı prosedurlarda şəffaflığın təmin edilməsi | |
| **Qatqı (*input*) indikatorları** | 1. Maddi resurslar (maddi-texniki vəsait, o cümlədən kompüter, printer, proqram təminatı, kargüzarlıq vasitələri, digər mallar və əmtəə) üzrə çəkilən xərc | |
| | 2. İnsan resursu üzrə çəkilən xərc | |
| **Hasilat (*output*) indikatorları və ballar** | 1. Kənd təsərrüfatı istehsal vasitələrinin satışına və lizinqinə tətbiq edilən güzəştlərin, güzəştli kreditlərin verilməsi ilə bağlı prosedurların elektronlaşdırılmaqla portalın yaradılması, müraciətlərin həmin portal vasitəsilə edilməsi, portalda müraciətçiyə edilmiş müraciətin nəticəsini izləməyə imkan verilməsi, lizinq (kredit) məbləği, müraciət və ona baxılma müddətləri, imtina edildikdə ondan şikayət vermə mexanizmi, müvafiq xidmət üzrə tələb olunan sənədlər və şərtlər, müraciətin qiymətləndirmə indikatorları barədə ətraflı məlumatın təsbit olunması, şikayətin də portal vasitəsilə edilməsi | 40 |
| | 2. Portalda güzəştin və kredit limitinin məbləği, həmin limitdən istifadə olunma məbləği, qalan limit həcmi barədə məlumatın dəqiq göstərilməsi, verilən hər bir lizinq (kredit) barədə ətraflı məlumatın yerləşdirilməsi (zəruri olduqda müvafiq şəxslər barədə məlumat anonimləşdirilməklə) | 20 |
| | 3. Portalda müraciət edən şəxslərin sayının dəqiq göstərilməsi və növbəliliyə əsaslanan reyestrin hər kəs üçün açıq olması | 20 |
| | 4. Lizinq (kredit) verilməsi barədə qərar qəbul edən şəxslərin maraqlar toqquşmasını bəyan etmək öhdəliyi qoyulması, həmin bəyannamələrin yoxlanması, pozuntular aşkar edildikdə vəzifəli şəxslərin məsuliyyətə cəlb olunması | 20 |
| **Nəticə (*outcome*) indikatorları** | 1. Müvafiq tədbir tətbiq edildikdən əvvəlki 3 il və sonrakı illər üzrə hər il kənd təsərrüfatı istehsal vasitələrinin satışına və lizinqinə tətbiq edilən güzəştlərin, güzəştli kreditlərin sayı və məbləği | |
| | 2. Müvafiq tədbir tətbiq edildikdən əvvəlki 3 il və sonrakı illər üzrə hər il kənd təsərrüfatı istehsal vasitələrinin satışına və lizinqinə tətbiq edilən güzəştlərin, güzəştli kreditlərin verilməsində imtinaların sayı və səbəbi | |
| | 3. Müvafiq tədbir tətbiq edildikdən əvvəlki 3 il və sonrakı illər üzrə hər il kənd təsərrüfatı istehsal vasitələrinin satışına və lizinqinə tətbiq edilən güzəştlər və güzəştli kreditlərin verilməsi məsələləri ilə bağlı şikayətlərin sayı | |
| | 4. Müvafiq tədbir tətbiq edildikdən əvvəlki 3 il və sonrakı illər üzrə hər il kənd təsərrüfatı istehsal vasitələrinin satışına və lizinqinə tətbiq edilən güzəştlər və güzəştli kreditlərin verilməsi məsələləri ilə bağlı intizam məsuliyyətinə cəlb olunan işçilərin sayı və əsası | |

| | | |
|---|---|---|
| | 5. Müvafiq tədbir tətbiq edildikdən əvvəlki 3 il və sonrakı illər üzrə hər il kənd təsərrüfatı istehsal vasitələrinin satışına və lizinqinə tətbiq edilən güzəştlər və güzəştli kreditlərin verilməsi məsələləri ilə bağlı korrupsiya cinayətlərinə görə məsuliyyətə cəlb olunan işçilərin sayı və əsası | |
| **Təsir (*impact*) indikatorları** | 1. Şəffaflığın artırılması | |
| | 2. Vətəndaş məmnunluğunun artması | |
| | 3. Orqanlara (qurumlara) ictimai etimadın yüksəlməsi | |
| | 4. Korrupsiya cinayətlərinin törədilməsinin qarşısının alınması | |

**4.14. Bələdiyyə aktlarının bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqana elektron formada təqdim olunması imkanlarının genişləndirilməsi**

| | | |
|---|---|---|
| **İcraçılar və icra müddəti** | Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi, bələdiyyələrin milli assosiasiyaları, 2022–2026 | |
| **İlkin nəticə** | Bələdiyyə aktlarının elektron formada təqdim olunması imkanlarının təhlil edilərək qiymətləndirilməsi | |
| **Aralıq nəticə** | Bələdiyyə aktlarının elektron formada təqdim olunması qaydasının müəyyən edilməsi | |
| **Yekun nəticə** | Bələdiyyə aktlarının elektron formada təqdim olunması üçün tədbirlər görülməsi, bununla da bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin səmərəliliyinin artırılması və bələdiyyələrin fəaliyyətində şəffaflığın təmin edilməsi | |
| **Qatqı (*input*) indikatorları** | 1. Maddi resurslar (maddi-texniki vəsait, o cümlədən kompüter, printer, proqram təminatı, kargüzarlıq vasitələri, digər mallar və əmtəə) üzrə çəkilən xərc | |
| | 2. İnsan resursu üzrə çəkilən xərc | |
| **Hasilat (*output*) indikatorları və ballar** | 1. Bələdiyyə aktlarının (qərar, iclas protokolu və s.) vahid reyestrinin aparılması, belə reyestr məlumatlarının vahid portala inteqrasiya edilməsi, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət edən orqanın bələdiyyə aktlarının elektronlaşmış nüsxələrinə çıxışının olması, köhnə tarixlə məlumatın portala daxil edilməsinin qarşısının alınması məqsədilə məlumatın daxil edildiyi tarixin portalda təsbit olunması, portal istifadəçilərinin elektron imza ilə təchiz edilməsi, müvafiq məlumata dəyişiklik edildiyi halda belə dəyişiklikləri izləməyə imkan verən texniki parametrlərin mövcudluğu | 70 |
| | 2. Bələdiyyələrin arxivinin elektronlaşdırılması və bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət edən orqanın bu arxivə çıxışının təmin olunması | 30 |
| **Nəticə (*outcome*) indikatorları** | 1. İllər üzrə müvafiq tədbir tətbiq edildikdən sonra qəbul edilən və portala daxil edilən bələdiyyə aktlarının sayının müvafiq tədbir tətbiq edildikdən sonra qəbul olunan bütün aktların sayına nisbəti | |
| | 2. İllər üzrə müvafiq tədbir tətbiq edildikdən sonra qəbul edilən və portala köhnə tarixlə daxil edilən bələdiyyə aktlarının sayının müvafiq tədbir tətbiq edildikdən sonra qəbul olunan bütün aktların sayına nisbəti | |
| | 3. Müvafiq tədbir tətbiq edildikdən sonra illər üzrə nəzarət qurumu tərəfindən portal vasitəsilə aşkar edilmiş bələdiyyə aktlarındakı pozuntuların və ləğv edilən bələdiyyə aktlarının sayı | |

| | |
|---|---|
| | 4. Müvafiq tədbir tətbiq edildikdən sonra illər üzrə nəzarət qurumu tərəfindən aşkar edilmiş bələdiyyə aktlarındakı pozuntuların və ləğv edilən bələdiyyə aktlarının sayı |
| | 5. Müvafiq tədbir tətbiq edildikdən sonra illər üzrə portala köhnə tarixlə daxil edilmiş aktların sayı |
| | 6. Müvafiq tədbir tətbiq edildikdən sonra portala köhnə tarixlə daxil edilmiş aktlarda aktın qəbul edilmə tarixi ilə portala daxil edilmə tarixi arasındakı orta fərq (günlərlə) |
| **Təsir (*impact*) indikatorları** | 1. Bələdiyyə fəaliyyətinə səmərəli inzibati nəzarətin həyata keçirilməsi |
| | 2. Bələdiyyələrə ictimai etimadın yüksəlməsi |
| | 3. Bələdiyyələrin səmərəli idarə edilməsi və yerli əhali qarşısında hesabatlılığının artırılması |
| | 4. Korrupsiya cinayətlərinin törədilməsinin qarşısının alınması |

## PRİORİTET 5. KORRUPSİYAYA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ VƏTƏNDAŞ CƏMİYYƏTİ İNSTİTUTLARI İLƏ ƏMƏKDAŞLIĞIN VƏ BU SAHƏDƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIĞIN İNKİŞAF ETDİRİLMƏSİ

### 5.1. Korrupsiya ilə mübarizə sahəsində fəaliyyət göstərən vətəndaş cəmiyyəti institutları ilə dövlət orqanları (qurumları) arasında əməkdaşlığın daha da gücləndirilməsi və birgə layihələrin həyata keçirilməsi

| | | |
|---|---|---|
| **İcraçılar və icra müddəti** | Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi, Dövlət orqanları (qurumları), Tövsiyə edilir: Baş Prokurorluq, Korrupsiya ilə mübarizə üzrə Komissiya, 2022–2026 | |
| **İlkin nəticə** | Dövlət orqanlarında (qurumlarında) kollegial qərarların qəbulu prosedurlarında vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin iştirakı üçün şərait yaradılması | |
| **Aralıq nəticə** | Korrupsiya ilə mübarizə sahəsində fəaliyyət göstərən vətəndaş cəmiyyəti institutları ilə birgə maarifləndirici layihələrin həyata keçirilməsi | |
| **Yekun nəticə** | Vətəndaş cəmiyyəti institutları ilə dövlət orqanlarının (qurumlarının) sıx əməkdaşlığının qurulması | |
| **Qatqı (*input*) indikatorları** | 1. Maddi resurslar (maddi-texniki vəsait, o cümlədən kompüter, printer, proqram təminatı, kargüzarlıq vasitələri, digər mallar və əmtəə) üzrə çəkilən xərc | |
| | 2. İnsan resursu üzrə çəkilən xərc | |
| **Hasilat (*output*) indikatorları və ballar** | 1. Vətəndaş cəmiyyəti nümayəndələrinin (ictimai şuralar istisna olmaqla) orqanın (qurumun) hüquqi aktlarının qəbulunda (dəyişiklik edilməsində) iştirakı, hüquqi aktlara dair təkliflər verilməsi və təkliflərinin nəzərə alınması | 20 |
| | 2. Vətəndaş cəmiyyəti nümayəndələrinin (ictimai şuralar istisna olmaqla) orqanın (qurumun) fəaliyyətində ən çox şikayət olunan sahələr üzrə təhlillər apararaq bu problemlərin aradan qaldırılmasına dair orqana (quruma) təkliflər verməsi, təklifin nəzərə alınması və əməli tədbir görülməsi | 20 |
| | 3. Vətəndaş cəmiyyəti nümayəndələri (ictimai şuralar istisna olmaqla) ilə birgə korrupsiya ilə mübarizə sahəsində layihələrin həyata keçirilməsi | 20 |
| | 4. Vətəndaş cəmiyyəti nümayəndələri (ictimai şuralar istisna olmaqla) tərəfindən ictimai müzakirə və dinləmələrdə irəli sürülən problemlər, orqanın (qurumun) bu problem və şikayətlərin həll etməsi | 20 |
| | 5. İctimai müzakirələrdə, dinləmələrdə iştirak edən yaxud ictimai iştirakçılıqla bağlı layihələrə cəlb olunan vətəndaşların sayı (il ərzində 1.000 nəfərin iştirakı bu indikator üzrə 100%-lik göstəricidir). | 20 |
| | Qeyd 1: İctimai müzakirələrdə, dinləmələrdə iştirak edən yaxud ictimai iştirakçılıqla bağlı layihələrə cəlb edilən 1.000 nəfərdən artıq hər 20 nəfər bu tədbir üzrə əlavə 1 baldır (20 baldan artıq olmamaqla) | |
| | Qeyd 2: Vətəndaş cəmiyyəti nümayəndələrinin (ictimai şuralar istisna olmaqla) orqanın (qurumun) fəaliyyəti ilə bağlı cəmiyyət nümayəndələri ilə görüşlər keçirməsi, orqanın (qurumun) fəaliyyətində narazılıq yaradan halları müəyyən edilərək aidiyyəti üzrə orqan (qurum) qarşısında qaldırılması və orqan (qurum) tərəfindən həll edilən hər bir məsələ bu tədbir üzrə əlavə 1 baldır (30 baldan artıq olmamaqla) | |

| | |
|---|---|
| **Nəticə (*outcome*) indikatorları** | 1. Müvafiq tədbir tətbiq edilməzdən əvvəlki 3 il və sonrakı illər üzrə vətəndaş cəmiyyəti institutları (ictimai şuralar istisna olmaqla) ilə dövlət qurumları arasında keçirilmiş görüşlərinin sayı |
| | 2. Müvafiq tədbir tətbiq edilməzdən əvvəlki 3 il və sonrakı illər üzrə vətəndaş cəmiyyəti institutlarının (ictimai şuralar istisna olmaqla) dövlət qurumlarının fəaliyyətdə ictimai narazılıq yaradan hallarla bağlı qaldırdığı məsələlərin sayı |
| | 3. Müvafiq tədbir tətbiq edilməzdən əvvəlki 3 il və sonrakı illər üzrə vətəndaş cəmiyyəti institutlarının (ictimai şuralar istisna olmaqla) dövlət qurumlarının fəaliyyətdə ictimai narazılıq yaradan hallarla bağlı qaldırdığı məsələlərin həll olunma sayı |
| | 4. Müvafiq tədbir tətbiq edilməzdən əvvəlki 3 il və sonrakı illər üzrə vətəndaş cəmiyyəti institutlarının ictimai narazılıq yaradan hallarla bağlı Qeyri-hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi ilə keçirdiyi görüşlərin sayı |
| | 5. Müvafiq tədbir tətbiq edilməzdən əvvəlki 3 il və sonrakı illər üzrə vətəndaş cəmiyyəti nümayəndələri (ictimai şuralar istisna olmaqla) ilə birgə korrupsiya ilə mübarizə sahəsində həyata keçirilən layihələrlə bağlı dərc olunan hesabatların sayı |
| **Təsir (*impact*) indikatorları** | 1. Korrupsiya ilə mübarizə sahəsində ictimai iştirakçılığın təmin olunması |
| | 2. Korrupsiya ilə mübarizədə savadlılığın artması |
| | 3. Korrupsiya ilə mübarizə sahəsində beynəlxalq reytinqlərdə Azərbaycan Respublikasının göstəricilərinin yüksəldilməsi |
| | 4. Orqanlara (qurumlara) ictimai etimadın yüksəlməsi |

**5.2. Dövlət orqanlarında (qurumlarında) ictimai iştirakçılığın tətbiqinin genişləndirilməsi və ictimai şuraların fəaliyyətinin səmərəliliyinin artırılması**

| | | |
|---|---|---|
| **İcraçılar və icra müddəti** | Mərkəzi və yerli icra hakimiyyəti orqanları, 2022–2026 | |
| **İlkin nəticə** | Dövlət orqanlarında (qurumlarında) ictimai iştirakçılığın tətbiqinin genişləndirilməsi ilə bağlı təhlillər aparılması, ictimai şuraların mövcud olmadığı qurumlarda belə şuraların yaradılması məsələsinin nəzərdən keçirilməsi | |
| **Aralıq nəticə** | Dövlət orqanlarında (qurumlarında) ictimai iştirakçılığın tətbiqinin genişləndirilməsi ilə bağlı təkliflər hazırlanması | |
| **Yekun nəticə** | İctimai şuraların fəaliyyətinin səmərəliliyinin artırılmasının təmin edilməsi üçün tədbirlər görülməsi | |
| **Qatqı (*input*) indikatorları** | 1. Maddi resurslar (maddi-texniki vəsait, o cümlədən kompüter, printer, proqram təminatı, kargüzarlıq vasitələri, digər mallar və əmtəə) üzrə çəkilən xərc | |
| | 2. İnsan resursu üzrə çəkilən xərc | |
| **Hasilat (*output*)** | 1. Orqanda (qurumda) ictimai şuraların mövcudluğu və "İctimai iştirakçılıq haqqında" Qanuna uyğun təşkili | 30 |
| | 2. İctimai şura üzvləri orqanın (qurumun) hüquqi aktlarının qəbulunda iştirak, təkliflər verməsi və təkliflərinin nəzərə alınması | 30 |

| | | |
|---|---|---|
| **indikatorları və ballar** | 3. İctimai şura üzvləri orqanın (qurumun) fəaliyyətində ən çox şikayət olunan sahələr üzrə təhlillər aparması, bu problemlərin aradan qaldırılmasına dair orqana (quruma) təkliflər verməsi və təkliflərin nəzərə alınması | 20 |
| | 4. İctimai şura üzvlərinin orqanın (qurumun) fəaliyyəti ilə bağlı cəmiyyət nümayəndələri ilə görüşlər keçirilməsi, orqanın (qurumun) fəaliyyətində narazılıq yaradan halları müəyyən edilərək aidiyyəti üzrə orqan (qurum) qarşısında qaldırılması və orqan (qurum) tərəfindən məsələnin həll edilməsi | 20 |
| | Qeyd 1: İctimai şura üzvlərinin orqanın (qurumun) fəaliyyəti ilə bağlı cəmiyyət nümayəndələri ilə görüşlər keçirməsi, orqanın (qurumun) fəaliyyətində narazılıq yaradan halları müəyyən edilərək aidiyyəti üzrə orqan (qurum) qarşısında qaldırılması və orqan (qurum) tərəfindən həll edilən hər bir məsələ bu tədbir üzrə əlavə 1 baldır (30 baldan artıq olmamaqla) | |
| **Nəticə (*outcome*) indikatorları** | 1. Müvafiq tədbir tətbiq edilməzdən əvvəlki 3 il və sonrakı illər üzrə ictimai şuralarla dövlət qurumları arasında keçirilmiş görüşlərinin sayı | |
| | 2. Müvafiq tədbir tətbiq edilməzdən əvvəlki 3 il və sonrakı illər üzrə ictimai şuranın iştirakı ilə qəbul edilən normativ hüquqi akt və ya qərar layihələrinin sayı | |
| | 3. Müvafiq tədbir tətbiq edilməzdən əvvəlki 3 il və sonrakı illər üzrə ictimai şuranın təşəbbüsü və ya təklifi ilə qəbul edilən normativ hüquqi akt və qərar layihələrinin sayı | |
| | 4. Müvafiq tədbir tətbiq edilməzdən əvvəlki 3 il və sonrakı illər üzrə ictimai şuranın qaldırdığı məsələnin sayı, bu məqsədlə qəbul edilən normativ hüquqi akt və qərar layihələrinin sayı | |
| | 5. Müvafiq tədbir tətbiq edilməzdən əvvəlki 3 il və sonrakı illər üzrə ictimai müzakirə və dinləmələrə cəlb olunan şəxslərin sayı | |
| | 6. Müvafiq tədbir tətbiq edilməzdən əvvəlki 3 il və sonrakı illər üzrə ictimai şura üzvlərinin orqanın (qurumun) fəaliyyəti ilə bağlı vətəndaşlarla keçirdiyi görüşlərin sayı | |
| | 7. Müvafiq tədbir tətbiq edilməzdən əvvəlki 3 il və sonrakı illər üzrə ictimai şura üzvlərinin orqanın (qurumun) fəaliyyəti ilə bağlı vətəndaşlarla keçirdiyi görüşlər zamanı vətəndaşların qaldırdığı problemlərin sayı | |
| **Təsir (*impact*) indikatorları** | 1. Korrupsiya ilə mübarizə sahəsində ictimai iştirakçılığın təmin olunması | |
| | 2. Korrupsiya ilə mübarizədə savadlılığın artması | |
| | 3. Korrupsiya ilə mübarizə sahəsində beynəlxalq reytinqlərdə Azərbaycan Respublikasının göstəricilərinin yüksəldilməsi | |
| | 4. Orqanlara (qurumlara) ictimai etimadın yüksəlməsi | |

**5.3. Beynəlxalq Prokurorlar Assosiasiyası (IAP), Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyası (IAACA), Beynəlxalq Antikorrupsiya Akademiyası (IACA), Korrupsiyaya qarşı Avropa Tərəfdaşları Təşkilatı (EPAC) və korrupsiya ilə mübarizə sahəsində fəaliyyət göstərən digər beynəlxalq təşkilatlarla əməkdaşlığın daha da genişləndirilməsi, qabaqcıl antikorrupsiya təcrübələrinin öyrənilməsi ilə bağlı tədbirlərin davam etdirilməsi**

| | | |
|---|---|---|
| **İcraçılar və icra müddəti** | Nazirlər Kabineti, Korrupsiya ilə mübarizə üzrə Komissiya, Baş Prokurorluq, aidiyyəti dövlət orqanları (qurumları), 2022–2026 | |
| **İlkin nəticə** | Korrupsiya ilə mübarizə sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatların tövsiyələrinin təhlil edilməsi | |
| **Aralıq nəticə** | Tövsiyələrin icra olunması ilə bağlı təkliflər hazırlanması | |
| **Yekun nəticə** | Korrupsiya ilə mübarizə sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi ilə bağlı tədbirlər görülməsi | |
| **Qatqı (*input*) indikatorları** | 1. Maddi resurslar (maddi-texniki vəsait, o cümlədən kompüter, printer, proqram təminatı, kargüzarlıq vasitələri, digər mallar və əmtəə) üzrə çəkilən xərc | |
| | 2. İnsan resursu üzrə çəkilən xərc | |
| **Hasilat (*output*) indikatorları və ballar** | 1. Beynəlxalq Prokurorlar Assosiasiyası (IAP), Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyası (IAACA), Beynəlxalq Antikorrupsiya Akademiyası (IACA), Korrupsiyaya qarşı Avropa Tərəfdaşları Təşkilatı (EPAC) və korrupsiya ilə mübarizə sahəsində fəaliyyət göstərən digər beynəlxalq təşkilatların fəaliyyət istiqamətləri üzrə görüşlərin keçirilməsi | 20 |
| | 2. Beynəlxalq Prokurorlar Assosiasiyası (IAP), Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyası (IAACA), Beynəlxalq Antikorrupsiya Akademiyası (IACA), Korrupsiyaya qarşı Avropa Tərəfdaşları Təşkilatı (EPAC) və korrupsiya ilə mübarizə sahəsində fəaliyyət göstərən digər beynəlxalq təşkilatların təşkil etdiyi təlimlərdə iştirak, müsbət beynəlxalq təcrübənin öyrənilməsi, tətbiqi, bu sahədə əldə olunmuş beynəlxalq naliyyət və ya mükafatlar | 20 |
| | 3. Beynəlxalq Prokurorlar Assosiasiyası (IAP), Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyası (IAACA), Beynəlxalq Antikorrupsiya Akademiyası (IACA), Korrupsiyaya qarşı Avropa Tərəfdaşları Təşkilatı (EPAC) və korrupsiya ilə mübarizə sahəsində fəaliyyət göstərən digər beynəlxalq təşkilatların fəaliyyət istiqamətləri üzrə uyğunluq və ya qiymətləndirməyə dair hesabat və məruzələrin göndərilməsi, sorğuların cavablandırılması və bu istiqamətdə digər işlər | 30 |
| | 4. Beynəlxalq Prokurorlar Assosiasiyası (IAP), Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyası (IAACA), Beynəlxalq Antikorrupsiya Akademiyası (IACA), Korrupsiyaya qarşı Avropa Tərəfdaşları Təşkilatı (EPAC) və korrupsiya ilə mübarizə sahəsində fəaliyyət göstərən digər beynəlxalq təşkilatların tövsiyələrinin təhlil edilməsi | 30 |
| | 1. Müvafiq tədbir tətbiq edilməzdən əvvəlki 3 il və sonrakı illər üzrə qabaqcıl antikorrupsiya təcrübələri üzrə qəbul edilən normativ hüquqi aktların sayı | |

| | |
|---|---|
| **Nəticə (*outcome*) indikatorları** | 2. Müvafiq tədbir tətbiq edilməzdən əvvəlki 3 il və sonrakı illər üzrə korrupsiya ilə mübarizə üzrə əməkdaşlıq çərçivəsində imzalanan müqavilə və anlaşma memorandumlarının sayı |
| | 3. Müvafiq tədbir tətbiq edilməzdən əvvəlki 3 il və sonrakı illər üzrə korrupsiya ilə mübarizə sahəsində göndərilmiş beynəlxalq hüquqi əməkdaşlıq sorğularının sayı |
| | 4. Müvafiq tədbir tətbiq edilməzdən əvvəlki 3 il və sonrakı illər üzrə korrupsiya ilə mübarizə sahəsində icra olunmuş xarici ölkələrin beynəlxalq hüquqi əməkdaşlıq sorğularının sayı |
| | 5. Müvafiq tədbir tətbiq edilməzdən əvvəlki 3 il və sonrakı illər üzrə korrupsiya ilə mübarizə sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatların təşkil etdiyi təlimlərdə iştirakla bağlı əldə olunan bilik hesabına tətbiq edilən və özünü doğruldan müsbət beynəlxalq təcrübənin sayı |
| | 6. Müvafiq tədbir tətbiq edilməzdən əvvəlki 3 il və sonrakı illər üzrə əməliyyat-axtarış və istintaq sahəsində əməkdaşlığı asanlaşdıran beynəlxalq antikorrupsiya kanalları, şəbəkələri və platformalarına üzvlük sayı |
| | 7. Müvafiq tədbir tətbiq edilməzdən əvvəlki 3 il və sonrakı illər üzrə xaricdə olan bərpa edilmiş aktivlərin sayı və məbləği |
| | 8. Müvafiq tədbir tətbiq edilməzdən əvvəlki 3 il və sonrakı illər üzrə xarici dövlətlərin aidiyyəti orqanlarının (qurumlarının) sorğusu əsasında Azərbaycan Respublikasındakı bərpa edilmiş aktivlərin sayı və məbləği |
| | 9. Müvafiq tədbir tətbiq edilməzdən əvvəlki 3 il və sonrakı illər üzrə korrupsiya ilə mübarizə sahəsində xarici ölkələrlə birgə istintaq qruplarının və ya paralel istintaq fəaliyyətinin sayı |
| | 10. Müvafiq tədbir tətbiq edilməzdən əvvəlki 3 il və sonrakı illər üzrə əməliyyat-axtarış və istintaq sahəsində əməkdaşlığı asanlaşdıran beynəlxalq antikorrupsiya kanalları, şəbəkələri və platformaları vasitəsilə xaricdə və Azərbaycan Respublikasında icra edilmiş istintaq hərəkətlərinin sayı |
| **Təsir (*impact*) indikatorları** | 1. Korrupsiya ilə mübarizə sahəsində beynəlxalq reytinqlərdə Azərbaycan Respublikasının göstəricilərinin yüksəldilməsi |
| | 2. Orqanlara (qurumlara) ictimai etimadın yüksəlməsi |
| | 3. Azərbaycan Respublikasının xarici ölkələrdə formalaşmış müsbət imicinin möhkəmləndirilməsi |
| | 4. Korrupsiya ilə mübarizədə savadlılığın artması |

### 5.4. Birləşmiş Millətlər Təşkilatının, Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupunun (GRECO), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) tövsiyələrinin icrası istiqamətində tədbirlərin davam etdirilməsi

| | |
|---|---|
| **İcraçılar və icra müddəti** | Nazirlər Kabineti, Baş Prokurorluq, Korrupsiya ilə mübarizə üzrə Komissiya, aidiyyəti dövlət orqanları, 2022–2026 |
| **İlkin nəticə** | Qeyd edilən beynəlxalq təşkilatlar tərəfindən verilmiş tövsiyələrin dövri olaraq təhlil edilməsi |
| **Aralıq nəticə** | Tövsiyələrin icra olunması üçün təkliflər hazırlanması |
| **Yekun nəticə** | Tövsiyələrin icrası ilə bağlı tədbirlər görülməsi |

| | | |
|---|---|---|
| **Qatqı (*input*) indikatorları** | 1. Maddi resurslar (maddi-texniki vəsait, o cümlədən kompüter, printer, proqram təminatı, kargüzarlıq vasitələri, digər mallar və əmtəə) üzrə çəkilən xərc | |
| | 2. İnsan resursu üzrə çəkilən xərc. | |
| **Hasilat (*output*) indikatorları və ballar** | 1. GRECO-nun 31 tövsiyəsi üzrə görülmüş işlər və GRECO-nun bu işlərin qiymətləndirilməsinə dair uyğunluq hesabatındakı nəticələri (GRECO-nun tövsiyələrinə münasibətdə əgər hər bir tövsiyə tam icra edilmişdirsə 4 bal, qismən icra olunmuşdursa 1 bal hesablanır. Çünki GRECO-nun müvafiq raundunu yekunlaşdırmaq üçün 31 tövsiyədən 21 tövsiyənin tam icrası kifayətdir. Tövsiyənin tam və ya qismən icra olunma səviyyəsi GRECO-nun 2025-ci il 17 mart tarixində Azərbaycan Respublikası üzrə qəbul etdiyi uyğunluq hesabtı əsasında qiymətləndirilir) | 100 |
| | Qeyd: Birləşmiş Millətlər Təşkilatının, Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupunun (GRECO), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) tövsiyələrinin təhlil edilməsi aparılmış təhlilin mahiyyətindən və təkliflərin səviyyəsindən asılı olaraq əlavə hər biri üzrə 10 balla (cəmi 20 bal) qiymətləndirilir | |
| **Nəticə (*outcome*) indikatorları** | 1. Korrupsiya ilə mübarizə üzrə beynəlxalq təşkilatların tövsiyəsinin icrası üzrə qəbul edilən normativ hüquqi akt layihələrinin illər üzrə sayı və məzmunu | |
| **Təsir (*impact*) indikatorları** | 1. Azərbaycan Respublikası qanunvericiliyinin beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi | |
| | 2. Beynəlxalq reytinqlərdə korrupsiya ilə mübarizə sahəsində Azərbaycan Respublikasının reytinqinin yüksəlməsi | |

## PRİORİTET 6. KORRUPSİYAYA QARŞI MÜBARİZƏ ÜZRƏ MAARİFLƏNDİRMƏ

### 6.1. Ölkə üzrə əhatəli antikorrupsiya tədris modulunun hazırlanması

| | | |
|---|---|---|
| **İcraçılar və icra müddəti** | Təhsil Nazirliyi Korrupsiya ilə mübarizə üzrə Komissiya, Baş Prokurorluq, 2022 | |
| **İlkin nəticə** | Tədris modulunun hazırlanması üçün işçi qrupun təsis edilməsi | |
| **Aralıq nəticə** | Xarici ölkələrin bu sahədə təcrübəsinin öyrənilməsi və yerli təhsil proqramına uyğunlaşdırılması | |
| **Yekun nəticə** | Antikorrupsiya tədris modulunun hazırlanması | |
| **Qatqı (*input*) indikatorları** | 1. Maddi resurslar (maddi-texniki vəsait, o cümlədən kompüter, printer, proqram təminatı, kargüzarlıq vasitələri, digər mallar və əmtəə) üzrə çəkilən xərc | |
| | 2. İnsan resursu üzrə çəkilən xərc | |
